

# ANIM GÜNÜ

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 207 (9952) 27 sentyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## İLHAM ƏLİYEVİN SÜLH DƏRSLƏRİ



Birinci dərs 2016-cı ilin dördgünlük Aprel müharibəsində oldu.

Bu həm də Azərbaycanın ən yeni silahlarla silahlanmış yeni ordu yaratdığının anonsu idi.

Çox qısa bir müddətdə Azərbaycan Ordusu düşmənə böyük təlәfat yaşadaraq bir neçə mühüm strateji mövqeyi və yaşayış məntəqəsini işğaldan azad etdi.

Lakin Ermənistan Azərbaycanın gücləndiyinin və güclü ordu qurduğunun fərqində olmadı!

* Baş verənlərdən ciddi nəticə çıxarmadı!

* Yeni reallıqla hesablaşmaq istəmədi!

Odur ki, işğalı həmin qayda ilə davam etdirdi.

İkinci dərs isə ildırım sürətli və analoqsuz oldu!

Cəmi 44 gün çəkdi!

Ermənistanın bütün dostlarının orbitdə kəşfiyyat peykləri, güclü kəşfiyyat strukturları vardır.

Azərbaycanla bağlı əldə etdikləri məlumatları isə daim ermənilərlə bölüşürdülər.

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyev yeni ordu quruculuğu, ən müasir silahların alınması, müharibəyə hazırlıq işlərini elə bir məxfiliklə aparmışdı ki, kimsə bundan xəbər tuta bilməmişdi.

Hərbi əməliyyatların başlandığı ilk günlərdən bunun şahidi olduq.

Ermənilər bizim mərkəzdən - Ağdam, Laçın və Kəlbəcərdən hücuma keçəcəyimizi güman edirdilər.

* Yerli şəraitdən, relyefdən istifadə etməklə altıqat müdafiə sistemi qurmuşdular.

* Hətta lovğalıqla "keçilməz" adlandırdıqları "Ohanyan xətti" də burada idi.

* Ən əsası, Ermənistan ordusu bizi yerdə, açıq hücum şəraitində gözləyirdi.

* Özləri də Birinci Qarabağ müharibəsindəki "qələbə taktikası"na köklənmişdilər.

Lakin Azərbaycan Ordusu yeni strategiya və taktika tətbiq etməklə XXI əsrin ən yeni müharibəsini apardı!

Düşmənin başına göydən od yağdırdı!

Ordumuz dəqiq zərbələrlə onların müdafiə qurğularını, atəş nöqtələrini, zirehli texnikalarını darmadağın etdi.

Erməni əsgər və zabitləri elə bir vahiməyə düşmüşdülər ki, döyüş mövqelərini, zirehli texnikalarını atıb, canlarını qurtarmaq üçün qaçırdılar!

On iki min fərarisi oldu erməni ordusunun!

Bu, onların öz etiraflarıdır!

Azərbaycan Ordusu isə sərhədboyu irəliləyərək çox qısa müddətdə bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını işğaldan azad etdi!

Azərbaycan əsgəri görünməmiş, misilsiz rəşadət göstərdi!

Keçilməz cığırlarla irəliləyərək, sıldırım qayalara dırmaşaraq Şuşa qalasına daxil oldular, əsgər xəncərləri və belləri ilə əlbəyaxa döyüşlərdə şəhəri murdar ləpirlilərdən təmizlədilər.

Bununla da Ermənistanın 20 minlik ordusu mühasirəyə alınaraq qısa zamanda real məhvedilmə təhlükəsi ilə üzləşdi!

Hərbi, informasiya və diplomatiya meydanında gedən müharibədə İlham Əliyev Ermənistana diplomatik - sülh dərsini də verdi!

Ermənistana dost dövlət başçıları dayanmadan çoxsaylı zənglər edərək hərbi əməliyyatların dayandırılmasını təkidlə xahiş edirdilər!

Hətta bəzən təhdidə də keçirdilər!

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsini heç nə sarsıda bilmirdi!

Növbəti sülh dərsinin şərtləri isə belə oldu:

Əvvəla, kapitulyasiya aktını əvəz edən üçtərəfli Bəyanat Azərbaycanın tələbləri əsasında tərtib olunmalıdır!

İkincisi, Ermənistan bütün hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmalıdır!

Üçüncüsü, Ağdam, Laçın və Kəlbəcər rayonları dərhal boşaldılmalıdır!

Ən nəhayət, Ermənistan öz qoşunlarının ərazimizdən çıxarılma qrafikini təqdim etməlidir!

Hər şey cənab İlham Əliyevin tələb etdiyi kimi oldu!

Kapitulyasiya aktını əvəz edən üçtərəfli Bəyanat Rusiyanın vasitəçiliyi ilə imzalandı!

4



## Əbədiyyət yolçuları

2020-ci ilin payızında sanki zaman başqa idi, əyyam fərqli...

Elə bil yerlər də, göylər də haqqı nahaqqa verməmək üçün qoşalaşmışdılar. Adətən, yağmurlu olan payız fəslində günəş də Qarabağ uğrunda irəli atılan oğullarımızın yoluna nur çiləmək üçün göy üzündən sanki çəkilmək istəmirdi...

O zaman vətən qibləmiz Qarabağı düşmən caynağından xilas etmək üçün müqəddəs bir yola çıxan igid döyüşçülərimiz elə bir qəhrəmanlıq sərgilədilər ki, dünya tamaşasına durdu. Çətin yollardan, dərələrdən, sıx meşələrdən keçərək, sıldırımlar, zirvələr aşaraq Şuşaya doğru "Zəfər cığırı", Azərbaycana Zəfər yolu açdılar. Silah-sursat olmadıqda belə yalın əllə düşmənin üzərinə şığıdılar. Bu qəhrəman oğulların bir çoxu mənfurların üzərinə yeriyərkən minaya düşdü, qəlpə, güllə yarası aldı, amma onların heç biri can hayına düşüb haqq yolunda irəliləməkdən vaz keçmədi. İgidlərimiz tibbi yardımdan, arxaya təxliyə olunmaqdan imtina etdilər, elə qanları ilə vətən torpaqlarını suvara-suvara yağını qovmaq, vətəni azad etmək üçün irəli atıldılar. 30 illik işğala son qoymaq, bu illər ərzində faciələrə tuş gələn, ədalətsizliyin qurbanı olan xalqımızın qisasını almaq üçün tələsdilər. Ötən illərdə erməni faşistləri xalqımızın başına çox bəlalar gətirmiş, soydaşlarımız dədə-baba torpaqlarından qovulmuş, soyqırımlarla üzləşmiş, tükürpərdici vəhşiliklərə məruz qalmışdılar. Faşist xislətli düşmən əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr həyata keçirmiş, yüz minlərlə vətəndaşımızı öz vətənindən didərgin salmışdı. Bu zaman ərzində o qədər keçmiş məcburi köçkün öz yurd-yuvasını bir daha görmədən bu dünya ilə vidalaşdı ki...

Bütün bu zülmləri, müsibətləri isə nə göydə Allah, nə də yerdə bəndə götürərdi...

İllər idi ki, qəhrəman oğullarımız düşməndən qisas almaq üçün Ali Baş Komandanın Vətən uğrunda "İrəli!" əmrini böyük istək və səbirsizliklə gözləyirdilər.

27 sentyabr 2020-ci ildə qəhrəman döyüşçülərimiz Ali Baş Komandan İlham Əliyevin bu şərəfli əmrini yerinə yetirmək üçün böyük coşqu, ruh yüksəkliyi ilə döyüşə atıldılar. Hünərli oğullarımız çiyin-çiyinə verərək qarış-qarış torpaqlarımızı azad etməyə, elə Vətən müharibəsinin ilk günündən xalqımıza qələbə ərməğanları verməyə başladılar. Ana torpaq uğrunda savaşda iştirak edən hər bir döyüşçümüzün ümdə arzusu üçrəngli bayrağımızı Şuşada dalğalandırmaq oldu. Nə yazıq ki, igidlərimizin bir çoxuna bu arzunu yerinə yetirmək müyəssər olmadı. Düşmən gülləsinə tuş gəlib şəhid olan qəhrəmanlarımızın müqəddəs yolunu döyüşçü yoldaşları davam etdirdilər. Elə oldu ki, can verən döyüşçü yoldaşlarının bu dünyadakı son vəsiyyətlərinə ürəkləri parçalana-parçalana, gözlərindən yaş süzülə-süzülə qulaq verdilər, onların dodaqlarında yarımçıq qalan kəlmeyi-şəhadətlərini tamamladılar, sinələrinə bərk-bərk sıxdıqları bayraqları bu cəsurların əvəzinə Qarabağın zirvələrində dalğalandırdılar...

Bəli, Vətən uğrunda gözünü qırpmadan canından keçməyə hazır olan mərd oğullarımızın fədakarlığı sayəsində biz bu gün bütöv, suveren Azərbaycanın vətəndaşlarıyıq.

12

## 27 SENTYABR 2020-Cİ İL SAAT 06:00...

# ZƏFƏRƏ BELƏ BAŞLADIQ

8-9

# Milli Məclisin parlamentlərarası əlaqələr üzrə İşçi qruplarının rəhbərlərinin və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçılarının 27 Sentyabr Anım Günü ilə bağlı dünya parlamentlərindəki həmkarlarına müraciəti

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müraciətdə ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan Respublikasının təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizinin işğal olunduğu, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı aktları həyata keçirildiyi bildirilir.**

Sənəddə 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti genişmiqyaslı hücumundan sonra Azərbaycan Respublikasının BMT Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədilə əks-hücum əməliyyatına başladığı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən döyüş əməliyyatlarının gedişində ölkəmizin beynəlxalq miqyasda tanınmış ərazisinin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulduğu və dövlətimizin ərazi bütövlüyünün bərpasının təmin edildiyi xatırladılır.

Müraciətdə hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələrinin törətdiyi müharibə cinayətlərindən və insanlıq əleyhinə cinayətlərdən də bəhs edilir. Xüsusilə qeyd olunur ki, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən qanlı hücumlara və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl edib, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf alıb, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməyib.

Sənəddə həmçinin 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son qoyulduğu, Azərbaycanın suverenliyinin onun bütün ərazisində bərqərar edildiyi xatırladılaraq, hazırda işğaldan azad edilmiş bölgələrdə yaşayış məskənləri tikilərək bərpa olunduqca keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı diqqətə çatdırılır. Bununla belə, Ermənistan tərəfinin Azərbaycan ərazilərində basdırdığı yüz minlərlə minanın törədiyi fəsadlar da təəssüf hissi ilə qeyd olunur.

Bütün bunlara baxmayaraq, məhz Azərbaycanın Ermənistanla münasibətlərin normallaşması üçün 5 baza prinsipini təqdim etdiyi, ötən 5 ildə sülh gündəliyinin həyata keçirilməsi üçün ciddi səylər göstərdiyi, sülh sazişinin layihəsinin də məhz Azərbaycan tərəfindən tərtib edildiyi vurğulanır. Bu çərçivədə cari avqust ayının əvvəllərində ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin Vaşinqtonda görüşüb danışıqlar aparmasının, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanmasının münaqişəyə birdəfəlik son qoyulmasına əlverişli şərait yaratdığı xatırladılır.

Eyni zamanda əldə edilmiş razılaşmalara uyğun olaraq, reallaşacaq "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu"nun qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevriləcəyi vurğulanaraq, perspektivdə yekun sülh sazişinin imzalanmasının Azərbaycanla Ermənistan arasında davamlı və uzunmüddətli sülhü bərqərar etməklə, bütün Cənubi Qafqaz regionu qarşısında sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açacağına inam ifadə olunur.

*"Azərbaycan"*

# Çilili parlamentarilər Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər





**Ölkəmizdə səfərdə olan Çili Respublikası Milli Konqresi Senatının İnsan hüquqları daimi komitəsinin sədri, Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Fransisko Çauhan və Senatın İqtisadiyyat daimi komitəsinin sədri Roxo Edvardssentyabrın 26-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti sonra Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət edib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri Azər Badamov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycan Çili ilə bir sıra sahələrdə və platformalarda əməkdaşlıq edir



**Sentyabrın 26-da Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov Çili Respublikası Milli Konqresi Senatının nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan birinci vitse-spiker Azərbaycanın Çili ilə əlaqələrin inkişafına maraq göstərdiyini deyib. Əli Əhmədov xalqlarımızı birləşdirən ortaq bəşəri dəyərlərin, 30 ildən çox davam edən diplomatik əlaqələrin iki ölkə arasında iqtisadi və siyasi dialoqun inkişafına müsbət təsir göstərdiyini bildirib. Qeyd olunub ki, Azərbaycan və Çili bir sıra sahələrdə və platformalarda əməkdaşlıq edir.

Milli Məclis Sədrinin birinci müavini hər iki ölkənin parlamentlərində qarşılıqlı dostluq qruplarının olmasını yüksək qiymətləndirib, parlamentlərarası münasibətləri ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirib. O, Çili senatorlarının bu səfərinin Azərbaycan-Çili əlaqələrinin daha da inkişafına və möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Çili Milli Konqresi Senatının İnsan hüquqları daimi komitəsinin sədri, Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Fransisko Çauhan qonaqpərvərliyə görə təşəkkür edib. Senator ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi imkanları ilə bağlı fikirlərini bölüşüb, bu münasibətlərin intensivləşməsində parlamentlərin rolunu vurğulayıb.

Sonra Çili Senatının İqtisadiyyat daimi komitəsinin sədri Roxo Edvards, Çilinin Azərbaycandakı müvəqqəti işlər vəkili Xuan Karlos Salazar Alvares Azərbaycanla Çili arasında münasibətlərin hazırkı vəziyyəti, ölkələrimizin əlaqələrinin genişləndirilməsi perspektivləri barədə fikirlərini səsləndiriblər.

Söhbət tərəfləri maraqlandıran digər mövzular ətrafında fikir mübadiləsi ilə davam etdirilib.

*"Azərbaycan"*

# Azərbaycan-Çili parlamentlərarası əməkdaşlığı genişlənir

**Sentyabrın 26-da Milli Məclisin Çili ilə parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvləri və ölkəmizdə səfərdə olan Çili Respublikası Milli Konqresi Senatının nümayəndə heyəti arasında görüş olub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Azərbaycan - Çili parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri Azər Badamov bildirib ki, dövlətlərimiz arasında digər sahələrlə yanaşı, parlamentlər səviyyəsində münasibətlər də yüksələn xətt üzrə inkişaf edir. Qeyd olunub ki, bu prosesə görüşlər, eləcə də həyata keçirilən qarşılıqlı səfərlər mühüm töhfə verir.

Azər Badamov Azərbaycan-Çili münasibətlərinin inkişafı üçün böyük imkanların mövcud olduğunu, parlamentlərarası əməkdaşlığın gücləndirilməsinin iqtisadi, mədəni və humanitar sahələrdə tərəfdaşlığın dərinləşməsinə də zəmin yaradacağını, xalqlarımız arasında qarşılıqlı anlaşmanı və etimadı daha da artıracağını bildirib.

Çili Milli Konqresi Senatının İnsan hüquqları daimi komitəsinin sədri, Çili-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Fransisko Çauhan səmimi qonaqpərvərliyə görə təşəkkür edib.

Senator dövlətlərimiz arasında əməkdaşlıq imkanlarına toxunaraq vurğulayıb ki, Azərbaycan və Çili arasında mina təmizlənməsi sahəsində təcrübə mübadiləsi aparılması və idman sahəsində birgə layihələrin reallaşdırılması əməkdaşlığı daha da gücləndirə bilər. O, həmçinin mədəniyyət, təhsil və turizm sahələrində əlaqələrin genişlənməsinin xalqlarımızın daha da yaxınlaşmasına töhfə verəcəyini qeyd edib.

Çili Senatının İqtisadiyyat daimi komitəsinin sədri Roxo Edvards, Çilinin Azərbaycandakı müvəqqəti işlər vəkili Xuan Karlos Salazar Alvares, Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvü Sevinc Fətəliyeva dövlətlərimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin, iqtisadi, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin, həmçinin idman və humanitar sahələrdə ortaq layihələrin reallaşdırılmasının iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyini qeyd ediblər.

Görüş qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi ilə davam edib.

*"Azərbaycan"*

# Elm və təhsil komitəsinin iclasında



**Sentyabrın 26-da Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Anar İsgəndərov iclası açaraq, 27 sentyabr gününün Azərbaycan xalqının taleyində əhəmiyyətini qeyd edib. Ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı qələbənin tarixi önəm daşıdığını bildirib.**

Komitə sədri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-nin Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edildiyini vurğulayıb. Sonra iclas iştirakçıları Anım Günü münasibətilə şəhidlərin xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Daha sonra iclasda gündəlikdəki məsələyə - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsinə baxılıb.

Komitə sədri bildirib ki, sənəddə komitənin profilinə uyğun olan "Təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" qanunların müvafiq maddələrində edilən dəyişikliklərdə "valideynlərini itirmiş" sözlərinin çıxarılması təklif olunur.

Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsinin mahiyyəti ilə bağlı diqqətə çatdırıb ki, ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında daxil olmuş layihədə nəzərdə tutulan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Məlumat verilib ki, sənəddə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun anlayışları özündə ehtiva edən 1-ci maddəsi yeni redaksiyada təqdim olunur. Bununla yanaşı, bu və layihədə adları çəkilən digər qanunlarda "valideynlərini itirmiş" anlayışının çıxarılması ilə bağlı redaktə xarakterli dəyişikliklər öz əksini tapıb. Dəyişikliklərin normativ hüquqi aktlar arasında olan ziddiyyətin və qanunvericilikdəki boşluqların aradan qaldırılması baxımından zəruriliyi qeyd edilib.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədr müavini Fariz İsmayılzadə, üzvləri Şahin Seyidzadə, Vasif Qafarov, Ceyhun Məmmədov, Əziz Ələkbərov, Elnarə Akimova çıxış edərək, təklif olunan dəyişikliklərin məqsədəmüvafiq olduğunu söyləyiblər.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Milli Məclisdə videokonfrans formatında görüş

**Sentyabrın 26-da Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri Ramid Namazov ilə Keniya Senatının üzvləri arasında videokonfrans formatında tanışlıq görüşü keçirilib.**




Ramid Namazov iştirakçıları salamlayaraq, Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti barədə ətraflı məlumat verib, qanunverici orqanlarımız arasında əməkdaşlıq imkanları, qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb, Keniya ilə əlaqələrin əhəmiyyətini qeyd edib.

O, iki ölkənin dövlət başçılarının təmaslarının münasibətlərin inkişafındakı mühüm rolundan danışıb. Görüş əsnasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Keniyaya səfəri xatırladılıb və fondun orada humanitar sahədə gördüyü işlər barədə məlumat verilib.

Ramid Namazov son illər iki ölkə arasındakı münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin rolunu vurğulayaraq, bu cür səfərlərin vacibliyini diqqətə çatdırıb.

Söhbət zamanı komissiya sədri Keniyanın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində daha aktiv fəaliyyət göstərəcəyinə inamını bildirib.

Görüşdə iştirak edən Milli Məclisin deputatı Zaur Şükürov dövlətlərimiz arasındakı münasibətlərin parlamentlərarası əlaqələrə müsbət təsiri barədə fikirlərini səsləndirib.

Keniyalı senator Hamida Kibvana və həmkarları ölkələrinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən parlament diplomatiyasının daha da möhkəmləndirilməsində maraqlı olduğunu bildirərək, qarşılıqlı dostluq və etimad əsasında mövcud olan münasibətləri yüksək qiymətləndirdiklərini qeyd ediblər.

Videokonfrans zamanı ölkələr arasında parlamentlərarası, iqtisadi, davamlı inkişaf, iqlim dəyişikliyi, təhsil, bərpaolunan enerji sahələrində inkişaf perspektivlərindən də bəhs edilib.

Sonda tərəflər ikitərəfli və çoxtərəfli formatlarda qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər.

Görüşdə deputatlar Naqif Həmzəyev, Elşən Musayev, Elnarə Akimova, Azərbaycanın Keniyadakı fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

# DİN-in şəxsi heyəti Anım Günü ilə bağlı Zəfər parkını ziyarət edib



Dünən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin şəxsi heyəti Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə daşının önünə gül dəstələri qoyublar.



***"Azərbaycan"***

# 3-cü Beynəlxalq Statistika Forumu başa çatıb

**24-26 sentyabr tarixlərində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 73-cü iclası keçirilib, iclasın yekunlarına dair Kommunike qəbul edilib.**




Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətləri, tanınmış elmi ictimaiyyət xadimləri və ekspertlərin qatıldıqları forumun açılış sessiyasından sonra müasir statistikanın aktual məsələləri müzakirə olunub.

"Statistik islahatlar və inkişaf perspektivləri", "Statistikanı dəyişdirən innovasiyalar" və "Beynəlxalq müqayisələr proqramı" mövzularında keçirilən sessiyalarda milli statistika sistemlərinin müasirləşdirilməsi, institusional inkişaf tədbirləri, informasiya mühitində rəsmi statistikanın rolu, süni intellektin tətbiqi, smart-data texnologiyaları, məlumat inteqrasiyası və inklüziv data idarəçiliyi, generativ süni intellektin statistik hesabatların keyfiyyətini artırmaq imkanları, yoxsulluğun ölçülməsi, satınalma qabiliyyəti paritetlərinin hesablanması və onların sosial-iqtisadi təhlillərdə istifadəsi məsələləri diqqət mərkəzində olub.

"Milli Hesablar Sistemi 2025" (MHS-2025), "Əhalinin siyahıyaalınması - 2030 mərhələsi" mövzularında keçirilən sessiyalarda yeni MHS-2025 çərçivəsinin tətbiqi, dəyişikliklərin statistik praktikada əks olunması, rəqəmsal dövrdə siyahıyaalmanın yeni metodları, registr əsaslı sistemlərin üstünlükləri və süni intellektdən istifadənin imkanları ilə əlaqədar geniş fikir mübadiləsi aparılıb.

"Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə statistika - yolun yarısı" mövzusuna həsr olunmuş sessiyada isə DİM-in monitorinqi sahəsində görülən işlər, alternativ məlumat mənbələrinin bu prosesdə rolu, milli göstəricilərin müəyyənləşdirilməsi, statistik potensialın ölçülməsi və beynəlxalq müqayisələrin aparılması məsələləri ətrafında müzakirələr olub.

Bağlanış mərasimində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Konstantin Laykam çıxış edərək 3-cü Beynəlxalq Statistika Forumunun mühüm platforma kimi dünya ölkələrinin statistik sistemlərinin modernləşdirilməsi, müasir texnologiyaların tətbiqi, qarşılıqlı fikir və təcrübə mübadiləsi yolu ilə beynəlxalq səviyyədə vahid yanaşmaların formalaşdırılması və əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar.

***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyində şəhidlərin Anım Gününə həsr olunmuş tədbir keçirilib

**Daxili İşlər Nazirliyində 27 Sentyabr - İkinci Qarabağ Müharibəsi Şəhidlərinin Anım Gününün beşinci ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.**



Əvvəlcə respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igid oğullarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında "dəmir yumruq" kimi birləşən silahlı qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini vurğulayıb.

Nazir müavini bu gün işğaldan azad olunan ərazilərdə ictimai təhlükəsizliyin təmin olunması, Böyük qayıdışın daha tez reallaşması üçün Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla vurğulayıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Komandanının müavini - Şəxsi Heyət üzrə İdarənin rəisi general-mayor İnqilab Muradov Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının keçdiyi şərəfli döyüş yolundan danışıb.

Daha sonra çıxış edənlər dövlət başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımızın və polis əməkdaşlarının bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən etimadı doğrultmaq üçün səylərini bundan sonra da əsirgəməyəcəklərini vurğulayıblar.

Tədbirin sonunda Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını özündə əks etdirən sənədli film nümayiş olunub.

***"Azərbaycan"***

# Anlaşma Memorandumu imzalanıb

**Sentyabrın 26-da Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumunun iştirakçıları ilə görüş keçirilib.**




Görüş çərçivəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Memorandumu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyinin direktoru Camşed Nurmaxmadzoda imzalayıblar.

Memorandumdan irəli gələn vəzifələrin icra olunmasının səmərəli nəticələr verəcəyinə - statistika sahəsində əməkdaşlığın təşviq və inkişaf etdirilməsi, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

***"Azərbaycan"***

# Azərbaycan Milli QHT Forumu Anım Günü ilə bağlı bəyanat yayıb

**Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu 27 Sentyabr Anım Gününə həsr olunmuş toplantı keçirib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Konstitusiya quruluşunun, ərazi bütövlüyünün və dövlət suverenliyinin müdafiəsi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub, Dövlət himni səsləndirilib.**

Toplantıda Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatlarının İdarə Heyəti, müxtəlif QHT rəhbərləri, şəhid ailələrinin təmsilçiləri, müharibə veteranları iştirak ediblər. Vətən müharibəsinin başlanması səbəbləri və tarixi Zəfərlə nəticələnməsi, yaranan yeni reallıq geniş təhlil olunub.

Sonda 27 Sentyabr Anım Günü ilə bağlı Azərbaycan Milli QHT Forumunun bəyanatı səsləndirilib. Bəyanatı təqdim edirik: "5 il əvvəl - 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribatına cavab olaraq, Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatı kimi dünya hərb tarixinə düşən əks-hücum əməliyyatına başladı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbə ərazilərimizin işğaldan azad olunması ilə nəticələndi, milli ləyaqət nümunəsinə çevrildi.

27 Sentyabr Anım Günü Vətən uğrunda canından keçən bütün şəhidlərimizin xatirəsinə yüksək ehtiramın təcəssümüdür. Şəhidlərimizin canı və qanı bahasına yazılan bu Zəfər tarixi ədaləti təmin etdi, regional güc balansını Azərbaycanın xeyrinə dəyişdi, gələcək nəsillərə təhlükəsizlik və tərəqqi miras qoydu.

Biz fəxr edirik ki, şəhidlərimiz 44 günlük müharibənin gedişində Gəncə, Tərtər və Bərdə rayonlarında dinc əhaliyə qarşı raket hücumlarının qisasını döyüş meydanında aldı. Biz bundan sonra da şəhidlərimizin şərəfli həyat yolunu öyrənəcək və öyrədəcək, onların tarixi missiyasını unutmayacağıq.

2020-ci ildəki 44 günlük Vətən müharibəsi ərazi bütövlüyümüzü, 2023-cü il 19-20 sentyabr tarixində keçirilən antiterror əməliyyatı isə dövlət suverenliyimizi tam bərpa etdi.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi müvafiq qətnamələrinin icrasına təkbaşına nail oldu. Hazırda azad edilmiş ərazilərdə dünyada bənzəri olmayan geniş bərpa və quruculuq işləri aparılır, Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışı həyata keçirilir.

Azərbaycan beynəlxalq hüququn prinsiplərinə - suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına sadiq qalaraq, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində qətiyyətli addımlar atır. Bu ilin 8 avqustunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamə tarixi əhəmiyyət kəsb edir. Bu sənəd Azərbaycanın əsas ərazisi ilə Naxçıvan bölgəsi arasında maneəsiz bağlantının - Zəngəzur dəhlizinin reallaşmasını da təmin edəcək.

Bütün bunlar həm də şəhidlərimizin fədakarlığı, müharibə veteranlarımızın əzmi, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli, müdrik siyasəti, yaratdığı yeni reallığın nəticəsidir. Prezident İlham Əliyev müharibənin qalibi olduğu kimi, sülhün də müəllifidir.

Azərbaycan QHT-ləri qəhrəman şəhidlərimizin ailələrinə bundan sonra da müqəddəs əmanət kimi yanaşacaq.

Azərbaycan QHT-lərinin çətir təşkilatı olan Azərbaycan Milli QHT Forumu şəhidlərimizin əziz xatirəsini dərin hörmətlə yad edir, onların ruhu qarşısında baş əyir".

# Nazir Anar Əliyev Bərdədə vətəndaşlarla görüşüb



**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Bərdə rayonunda Bərdə və Tərtər rayonlarının sakinlərini qəbul edib.**

Qəbuldan əvvəl A.Əliyev və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Qəbul zamanı vətəndaşlar məşğulluq, əlillik, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

# MSK nümayəndə heyəti Moldovada parlament seçkilərini müşahidə edəcək



**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 28-də Moldovada keçiriləcək parlament seçkilərini müşahidə etmək məqsədilə bu ölkəyə səfər edəcək.**

AZƏRTAC xəbər verir ki, Moldova Mərkəzi Seçki Komissiyasının sədri Anjelika Karamanın rəsmi dəvəti əsasında həyata keçiriləcək bu səfər iki ölkənin ali seçki qurumları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Səfər çərçivəsində M.Pənahovun digər rəsmi şəxslərlə yanaşı, moldovalı həmkarı ilə görüşün keçirilməsi, seçki idarəetmə orqanları arasında uzunmüddətli əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi imkanları, həmçinin seçkilərin təşkili və idarə olunması sahəsində maraq doğuran məsələlər ətrafında müzakirələr aparılması nəzərdə tutulur.

Nümayəndə heyəti səsvermə günündək parlament seçkilərinə ümumi hazırlıq prosesləri ilə tanış olacaq və seçki günü paytaxt Kişineudakı məntəqələrdə səsvermə prosedurlarını da izləyəcəklər.

# İLHAM ƏLİYEVİN SÜLH DƏRSLƏRİ



Bütün müharibələr sülhlə qurtarır!

Aylar, illər, hətta əsrlər boyu davam etsələr belə!

Lakin tərəflər əvvəlcədən məsələni sülh yolu ilə çözmək istəmirlər, yaxud gücsüzlüklərini etiraf etməkdə çətinlik çəkirlər.

Əksinə, hər bir tərəf özünü daha güclü, haqlı, rəqibini isə zəif və haqsız hesab edir!

**Sonda yenə məsələ hərb meydanında həllini tapır:**

**Xeyli qurbanlar, dağıntılar baş verəndən, quruculuq işlərinə xərclənəcək böyük vəsaitlər döyüşlərdə puça çıxarılandan sonra!**

*Belə bir vəziyyət Azərbaycana yaxşı tanışdır.*

Çar Rusiyası tərəfindən Azərbaycana məxsus ərazilərdə yerləşdirilərək Azərbaycan torpaqları hesabına özünə dövlət yaradan vətənsiz ermənilər daim Azərbaycanın yeni ərazilərini ələ keçirməklə vassal dövlətlərini genişləndiriblər.

Buna sovet Rusiyası da daim və yaxından kömək göstərib.

Qırmızı imperiya laxlayaraq dağılmağa başlayanda yenə Ermənistanın və onun havadarlarının əllərinə fürsət düşdü.

**Ulu Öndər Heydər Əliyevin müvəqqəti olaraq ölkə rəhbərliyindən ayrılmasından, Azərbaycana maymaq, qorxaq, səriştəsiz və təcrübəsiz insanların başçılıq etməsindən istifadə edərək Qarabağ münaqişəsini yenidən alovlandırdılar, erməniləri dəstəkləyərək iyirmi faiz ərazimizin işğalına nail oldular.**

*Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqda artıq iş-işdən keçmişdi.*

**Dünya işğal faktını qəbul etsə də, münaqişənin sülh yolu ilə nizamlanması üçün xüsusi bir qurum - ATƏT-in Minsk qrupu yaradılsa da, beynəlxalq hüquq Azərbaycanın tərəfində olsa da, BMT-nin Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etsə də, Ermənistan işğal etdiyi ərazilərdən könüllü şəkildə çıxmaq istəmədi.**

*Nə həmsədr dövlətlər, nə BMT, nə digər beynəlxalq təşkilatlar Ermənistanı buna vadar etdilər, nə də ona qarşı sanksiyalar tətbiq olundu.*

Bu minvalla Qarabağ münaqişəsinin sülh yolu ilə həlli variantı baş tutmadı.

❖ ❖ ❖

**Münaqişənin sülh danışıqları ilə həllinin qəsdən uzadılması Azərbaycanı işğal faktı ilə barışmağa vadar etmənin düşünülmüş bir yolu idi!**

*Bunu heç ermənilər də gizlətmir, bizi mövcud "reallıqla barışmağa", "de-faktonu de-yure tanımağa" çağırırdılar.*

Azərbaycanın mövqeyi də qəti idi: "bir qarış torpaq belə kimsəyə güzəştə gedilməyəcəkdir!"

**Prezident İlham Əliyev isə dövlətə rəhbərlik etdiyi ilk günlərdən daim açıq şəkildə və ucadan bəyan edirdi:**

* Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcəkdir!

* Əgər sülh variantı baş tutmasa, digər vasitələrdən istifadə olunacaqdır!

*Lakin Azərbaycan heç zaman sülh danışıqlarından imtina etmədi!*

*Hətta onlar səmərəsiz və nəticəsiz olsalar belə!*

Amma eyni zamanda münaqişənin "digər vasitələrlə", başqa sözlə, hərbi yolla həllinə ciddi hazırlıqlarını da bir an belə dayandırmadı!

**Azərbaycan ATƏT-in həmsədr dövlətlərinin Ermənistana birbaşa yardımlar etdiklərini gözəl bilirdi.**

MƏSƏLƏN:

* İşğalçı dövlət Ermənistan olduğu halda ABŞ 1992-ci ildə Azərbaycana qarşı birbaşa dövlət yardımını qadağan edən Azadlığı Müdafiə Aktına 907-ci düzəlişi qəbul etdi.

* Rusiya hər dəfə bir milyard dollar həcmində silah-sursatla iki dəfə Ermənistana kömək göstərdi.

* Fransa maliyyə yardımları verməklə yanaşı, beynəlxalq təşkilatlarda da Azərbaycan əleyhinə qərar və qətnamələr çıxarılmasının daimi təşəbbüsçüsü idi.

*Odur ki, Azərbaycan müharibəyə daha ciddi hazırlaşmalı və Ermənistanı silahların keyfiyyəti baxımından da üstələməli idi.*

Buna isə külli miqdarda vəsait tələb olunurdu.

**İlham Əliyevin səmərəli və məqsədyönlü fəaliyyəti nəticəsində tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı!**

Bu həm də yeni ordu quruculuğunun baş şərtlərindən biri idi!

* Yeni gənclər nəsli tərbiyə olundu, onların iştirakı ilə müasir ordu quruldu.

* Ordu ən yeni texnologiyalara əsaslanan silahlarla təchiz edildi.

* Yeni xüsusi təyinatlılar və Komando hissələri hazırlandı.

* Müntəzəm təlimlər keçirilərək ordunun döyüş qabiliyyəti daim yüksəldildi.

* Hücum diplomatiyasına keçən Azərbaycan beynəlxalq təşkilatlarda fəaliyyətini gücləndirdi.

* İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclaslarına, habelə İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına rəhbərliyi dövründə gördüyü işlər, atdığı addımlar Azərbaycanın dünyadakı siyasi nüfuzunu xeyli artırdı, mövqeyini möhkəmləndirdi, dostlarının sayını çoxaltdı.

**Ermənistanın yeni başçısı N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" söyləməsi isə sülh danışıqlarının mənasızlığını ortaya qoydu.**

Havadarlarına güvənən Ermənistan artıq Azərbaycanı "yeni müharibə yeni ərazilər olacaqdır" deyərək hədələyir, Tovuz bölgəsində təxribatlar törədərək strateji boru kəmərlərini hədəfə alacaqları ilə təhdid edirdi.

*Odur ki, hərbi əməliyyatlara, əslində, sülhə məcburetmə əməliyyatına başlamalı olduq!*

**Əslində isə, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın baş naziri N.Paşinyana və onların müdafiəçilərinə bir neçə hissədən ibarət sülh dərsi də verdi!**

❖ ❖ ❖

**Birinci dərs 2016-cı ilin dördgünlük Aprel müharibəsində oldu.**

*Bu həm də Azərbaycanın ən yeni silahlarla silahlanmış yeni ordu yaratdığının anonsu idi.*

Çox qısa bir müddətdə Azərbaycan Ordusu düşmənə böyük tələfat yaşadaraq bir neçə mühüm strateji mövqeyi və yaşayış məntəqəsini işğaldan azad etdi.

Lakin Ermənistan Azərbaycanın gücləndiyinin və güclü ordu qurduğunun fərqində olmadı!

* Baş verənlərdən ciddi nəticə çıxarmadı!

* Yeni reallıqla hesablaşmaq istəmədi!

Odur ki, işğalı həmin qayda ilə davam etdirdi.

**İkinci dərs isə ildırım sürətli və analoqsuz oldu!**

**Cəmi 44 gün çəkdi!**

Ermənistanın bütün dostlarının orbitdə kəşfiyyat peykləri, güclü kəşfiyyat strukturları vardır.

*Azərbaycanla bağlı əldə etdikləri məlumatları isə daim ermənilərlə bölüşürdülər.*

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyev yeni ordu quruculuğu, ən müasir silahların alınması, müharibəyə hazırlıq işlərini elə bir məxfiliklə aparmışdı ki, kimsə bundan xəbər tuta bilməmişdi.**

Hərbi əməliyyatların başlandığı ilk günlərdən bunun şahidi olduq.

Ermənilər bizim mərkəzdən - Ağdam, Laçın və Kəlbəcərdən hücuma keçəcəyimizi güman edirdilər.

* Yerli şəraitdən, relyefdən istifadə etməklə altıqat müdafiə sistemi qurmuşdular.

* Hətta lovğalıqla "keçilməz" adlandırdıqları "Ohanyan xətti" də burada idi.

* Ən əsası, Ermənistan ordusu bizi yerdə, açıq hücum şəraitində gözləyirdi.

* Özləri də Birinci Qarabağ müharibəsindəki "qələbə taktikası"na köklənmişdilər.

*Lakin Azərbaycan Ordusu yeni strategiya və taktika tətbiq etməklə XXI əsrin ən yeni müharibəsini apardı!*

**Düşmənin başına göydən od yağdırdı!**

Ordumuz dəqiq zərbələrlə onların müdafiə qurğularını, atəş nöqtələrini, zirehli texnikalarını darmadağın etdi.

Erməni əsgər və zabitləri elə bir vahiməyə düşmüşdülər ki, döyüş mövqelərini, zirehli texnikalarını atıb, canlarını qurtarmaq üçün qaçırdılar!

*On iki min fərarisi oldu erməni ordusunun!*

*Bu, onların öz etiraflarıdır!*

Azərbaycan Ordusu isə sərhədboyu irəliləyərək çox qısa müddətdə bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını işğaldan azad etdi!

Azərbaycan əsgəri görünməmiş, misilsiz rəşadət göstərdi!

*Keçilməz cığırlarla irəliləyərək, sıldırım qayalara dırmaşaraq Şuşa qalasına daxil oldular, əsgər xəncərləri və belləri ilə əlbəyaxa döyüşlərdə şəhəri murdar ləpirlilərdən təmizlədilər.*

*Bununla da Ermənistanın 20 minlik ordusu mühasirəyə alınaraq qısa zamanda real məhvedilmə təhlükəsi ilə üzləşdi!*

**Hərbi, informasiya və diplomatiya meydanında gedən müharibədə İlham Əliyev Ermənistana diplomatik - sülh dərsini də verdi!**

*Ermənistana dost dövlət başçıları dayanmadan çoxsaylı zənglər edərək hərbi əməliyyatların dayandırılmasını təkidlə xahiş edirdilər!*

Hətta bəzən təhdidə də keçirdilər!

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsini heç nə sarsıda bilmirdi!**

*Növbəti sülh dərsinin şərtləri isə belə oldu:*

*Əvvəla,* kapitulyasiya aktını əvəz edən üçtərəfli Bəyanat Azərbaycanın tələbləri əsasında tərtib olunmalıdır!

*İkincisi,* Ermənistan bütün hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmalıdır!

*Üçüncüsü,* Ağdam, Laçın və Kəlbəcər rayonları dərhal boşaldılmalıdır!

*Ən nəhayət,* Ermənistan öz qoşunlarının ərazimizdən çıxarılma qrafikini təqdim etməlidir!

**Hər şey cənab İlham Əliyevin tələb etdiyi kimi oldu!**

Kapitulyasiya aktını əvəz edən üçtərəfli Bəyanat Rusiyanın vasitəçiliyi ilə imzalandı!

❖ ❖ ❖

*Erməni verdiyi sözün üstündə dursaydı, daha erməni olmazdı ki!*

*Ermənistan havadarlarına güvənərək üçtərəfli Bəyanatın bir sıra bəndlərinin icrasından yayınmağa çalışdı!*

Onlardan biri Laçın dəhlizi ilə bağlı idi!

*Hələ də bu yolla Azərbaycan ərazisinə silah-sursat, qanunsuz hərbi birləşmələrə təchizat daşınır, yeni minalar gətirilərək torpaqlarımızda basdırılırdı.*

Rusiya sülhməramlıları isə bütün bunlara göz yumur, hətta bəzən erməni hərbi texnikasının önündə gedərək onları müşayiət edirdilər.

**İlham Əliyevin üçüncü sülh dərsi Laçın yolu ilə bağlı oldu!**

*Həkəri çayı üzərindəki körpüdə çox sürətli və unikal bir əməliyyat keçirilərək Laçın dəhlizi qapadıldı, bu yola nəzarət Rusiya sülhməramlılarından Azərbaycan Ordusuna keçdi!*

Beləliklə, daim Azərbaycana xain insanlar tərəfindən xəyanət əməllərinin daşındığı yol birdəfəlik bağlandı!

❖ ❖ ❖

**Dördüncü sülh dərsi üçtərəfli Bəyanatın qeyri-qanuni hərbi birləşmələrin çıxarılması bəndi ilə bağlı oldu!**

Ermənistan hələ nəyəsə ümid edərək terrorçu dəstələrini bizim ərazidə saxlayır, "Artsax xalqı"nın hüquqlarından dəm vururdu.

Azərbaycan yenə də hərb tarixinə yazılacaq möhtəşəm bir əməliyyat keçirdi!

**Əsas hissəsi 6 saat, bütövlükdə isə 23 saat çəkən antiterror tədbirləri zamanı bir nəfər mülki adama və mülki obyektə zərər dəymədən qanunsuz silahlı dəstələr darmadağın edildi, ağ bayraq qaldıraraq təslim oldular, aman dilədilər.**

*Azərbaycan böyük alicənablıq göstərərək tərk-silah edilmişləri və ölkəmizdə yaşamaq istəməyənləri təhlükəsiz şəkildə ərazilərimizi tərk etmələrinə imkan yaratdı!*

Beləliklə, Azərbaycan öz ərazisində bir nəfər separatçının belə olmadığı ilk dövlətə çevrildi!

❖ ❖ ❖

**İlham Əliyevin sonrakı dərsləri isə sülh müqaviləsinin imzalanması prosesi ilə bağlı oldu.**

Üçtərəfli Bəyanatın icrasının qarantı Rusiya olsa da, yenə reallıqda ermənipərəst mövqe sərgiləyirdi.

*Fransa, Avropa İttifaqı da Ermənistanın maraqlarını təmin etməkdən ötrü vasitəçiliyə girişmişdilər.*

**İlham Əliyev onlara əsl sülhün necə yaradılacağını başa salaraq vasitəçilikdən birdəfəlik kənarlaşdırdı.**

*Bundan zəruri nəticə çıxaran N.Paşinyan 6 oktyabr 2022-ci ildə Praqada dördtərəfli formatda keçirilən görüşdə Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu göstərən sənəd-bəyanatı imzaladı!*

**Beləliklə, Qarabağın Azərbaycana məxsusluğunu rəsmən təsdiqlədi!**

❖ ❖ ❖

*Müzəffər Ali Baş Komandan İlham Əliyev yalnız öz yolu ilə getdi!*

*Bildiyi kimi hərəkət etdi!*

**Altıncı sülh dərsi isə Paşinyana dünyanın birnömrəli dövlətinin birnömrəli ofisində verildi.**

*ABŞ Prezidenti D.Tramp sülhpərvərlik missiyasını davam etdirərək Azərbaycan tərəfinin bütün maraqları gözlənilməklə sülh müqaviləsinin imzalanması üçün möhkəm təməl qoydu!*

Başqa sözlə, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsi paraflandı.

Bu bağlaşmanı etibarlı edən bir neçə hadisə də baş verdi.

BELƏ Kİ:

* Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması;

* ATƏT-in Minsk qrupunun ləğv edilməsi;

* Azadlığı Müdafiə Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması;

* Habelə Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə müvafiq sənədlər imzalandı.

❖ ❖ ❖

Bu gün finişə yaxınlaşmaqda olan sülhün yolu o qədər asan və rahat olmamışdır.

Lakin Azərbaycan heç zaman öz qəti və prinsipial mövqeyindən bir addım belə geri çəkilməmiş, ilk günlərdən qarşısına məqsəd qoyduğu bütün hədəflərə çatmışdır!

**Ötən ay Kəlbəcər şəhərinin sakinləri ilə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin toxunduğu məqamlara bir daha diqqət çəkirik:**

*"Güclü iqtisadiyyat qurduq, beynəlxalq müstəvidə Ermənistanı işğalçı dövlət kimi ifşa etdik. Bir çox aparıcı beynəlxalq təşkilat bizim səylərimiz nəticəsində mövqeyimizi qəbul etməyə məcbur olmuşdur. Güclü ordu yaratdıq, ən müasir silahlar aldıq və gənc nəsil yetişdirdik. O gənc nəsil ki Vətən müharibəsində sinəsini qabağa verib torpaqlarımızı düşməndən azad etdi".*

*"44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi. Ermənistan ordusunda isə özlərinin dediklərinə görə 12 min fərari olmuşdur".*

*"Tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi. Ancaq bununla bərabər, o vaxt hələ də torpaqlarımızın bir hissəsi nəzarətimizdə deyildi. O vaxtdan 2023-cü il sentyabrın 19-na qədər bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi. O tarixi siz yaxşı xatırlayırsınız, həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, "Fərrux", "Qırxqız", "Sarıbaba" əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi".*

*"Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq".*

**İlham Əliyevin sülh dərslərinin Ermənistanın baş naziri N.Paşinyan tərəfindən düzgün qavranılaraq dərindən dərk edildiyi də aydın görünür.**

Hakim "Vətəndaş Müqaviləsi" partiyasının sentyabrın 20-də keçirilən qurultayındakı çıxışı zamanı baş nazir Paşinyanın dedikləri bunu bir daha təsdiq edir:

*"Sülh avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı və dəstəyi, mənim və Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi Bəyannamə ilə bərqərar oldu. Avqustun 8-i uzun bir prosesin kulminasiya nöqtəsi, zirvəsidir. Bir il yeddi aydır ki, Ermənistan-Azərbaycan sərhədində atışma nəticəsində bir nəfər də əsgər ölməyib və yaralanmayıb. Sülh budur. İndi bu 1 il 7 ay tarixi olan böyük sülhü 2 il 7 ay, 3 il, 4 il, 100 il, 200 il və sair halına gətirməliyik və Ermənistanın bütün sərhədlərinə şamil etməliyik".*

**Qalır Azərbaycanın sonuncu şərti - Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılması.**

**Bundan sonra Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün heç bir maneə qalmır.**

❖ ❖ ❖

*Nəhayət, Ermənistanın baş naziri N.Paşinyan dərk elədi ki, sülh Azərbaycandan çox Ermənistana gərəkdir!*

**Bunu ona İlham Əliyev "dəmir yumruğ"u, yeritdiyi siyasət, habelə müharibədə və müharibədən sonrakı dövrdə atdığı addımlar, gördüyü işlər və qazandığı nəticələrlə başa saldı!**

Paşinyan başa düşdü ki, Ermənistan həmişə ona-buna arxalanaraq Azərbaycana meydan oxuyub!

*Bu gün isə heç kim Ermənistanın arxasında dayanmır və dayana bilmir!*

*Çünki Azərbaycan buna öz gücü və imkanları ilə yol vermir!*

**Paşinyan başa düşdü ki, Azərbaycan Ermənistandan qat-qat üstün və güclüdür, qüvvələr nisbətindəki bu fərqi heç zaman dəyişmək mümkün olmayacaqdır!**

ÇÜNKİ:

* Azərbaycan iqtisadiyyatı, potensialı ilə güclüdür!

* Azərbaycan qüdrətli ordusu ilə güclüdür!

* Azərbaycan insan resursları ilə qat-qat üstün, xalqın mənəvi birliyi və yekdilliyi baxımından güclüdür!

* Azərbaycan müdrik və uzaqgörən rəhbəri, Müzəffər Ali Baş Komandanı ilə güclüdür!

* Azərbaycan xalqı torpağa bağlılığı, vətənpərvərliyi, yurdsevərliyi və rəhbərinə məhəbbəti ilə güclüdür!

Bunların heç biri Ermənistanda yoxdur və olmayacaqdır da!

Çünki Ermənistan işğalçıdır, dağıdıcıdır, yırtıcıdır, ona öz torpaqlarında yer verərək dövlət qurmasına şərait yaradan xalqa xain çıxıb, olmazın pisliklərini edib!

**Bu gün isə əməllərinin cəzasını alır!**

**Amma bu xalq, bu dövlət yenə ona güzəştə gedir, sülhün vacibliyini başa salır!**

*Ermənistan və onun rəhbəri Paşinyan sülhdən başqa çarələri qalmadığına görə sülh istəyirlər!*

**Bəxtiyar SADIQOV**



# Milli iradənin və birliyin rəmzi

**Xalqımızın kökləri minilliklərə gedib çıxan qədim və zəngin dövlətçilik tarixinin ən parlaq səhifələrindən biri olan 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başlanmasından beş il keçir. 27 sentyabr milli birlik, milli ləyaqət və milli iradə rəmzi olan Anım Günüdür. Hələ 2003-cü il oktyabrın 15-də Prezident andı içərkən İlham Əliyev Azərbaycan torpaqlarının bir qarışının düşmən işğalı altında qalmayacağını, necə olursa-olsun azad ediləcəyini demişdi. Hakimiyyətə gəldiyinin 20-ci ilində - 2023-cü il oktyabrın 15-də cənab İlham Əliyev Xankəndidə dövlət bayrağımızı ucaltmaqla söylədiklərini yerinə yetirdi. Artıq Azərbaycan ərazisində işğalçı qüvvələr və xarici qoşunlar yoxdur, dövlət suverenliyi tam bərpa edilib. Baş vermiş hadisələrin əhəmiyyətini bilməkdən ötrü bir sıra suallar cavablandırılmalıdır: 1988-ci ildən sonra millətimizin istəyi nə idi və necə yerinə yetirildi? 27 sentyabr tariximizdə hansı yeri tutur? Qazanılan qələbənin tarixi əhəmiyyəti nədir? Ondan hansı ibrət dərsləri almaq lazımdır?**

## Qarşıda dayanan başlıca vəzifələr

1988-ci ildən etibarən Azərbaycan xalqının və bir-birini əvəz edən hakimiyyətlərin qarşısında dayanan başlıca vəzifələr Ermənistandan - tarixi torpaqlarından, dədə-baba yurdlarından vəhşicəsinə qovulan azərbaycanlıların problemlərini həll etmək, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini dayandırmaq, dövlət müstəqilliyi bərpa edildikdən sonra isə hərbi təcavüz nəticəsində işğal olunmuş torpaqları azad, ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etmək idi. Kökləri geniş mənada Orta əsrlərin səlib yürüşlərinə, sonralar çarizmin isti dənizlərə çıxmaq məqsədlərinə çatmaqdan ötrü erməniləri gətirib azərbaycanlılara məxsus torpaqlara yerləşdirməsinə, rejim, sistem dəyişsə də, sovet hakimiyyətinin strateji niyyətləri naminə əvvəlki siyasəti başqa formalarla davam etdirməsinə, Azərbaycan ərazisində süni şəkildə muxtar qurum yaratmasına, Ermənistan adlanan ərazidən azərbaycanlıların tarixi torpaqlarından kütləvi surətdə deportasiya edilmələrinə gedib çıxan əsassız ərazi iddialarının və işğalın qarşısını 1988-1993-cü illərdə bir-birini əvəz edən Azərbaycan rəhbərləri ala bilmədilər. Ərazilərimiz işğal olundu, qaçqın və məcburi köçkünlər ordusu yarandı, ölkəmiz geriyə getdi.

## 27 sentyabrın təməli

Azərbaycan dövlət müstəqilliyini itirmək, xaricdən dəstəklənən separatçılıqla parçalanmaq, vətəndaş müharibəsi təhlükəsi qarşısında dayandığı ağır bir şəraitdə xalqın tələbi və Konstitusiyaya uyğun olaraq hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev təkcə dövlət müstəqilliyini itirilməkdən, ölkəni separatçılıqla bölünməkdən, xalqı vətəndaş müharibəsindən xilas etmədi, eyni zamanda Ermənistanın hərbi təcavüzünü dayandırmaqdan və işğal edilmiş əraziləri azad etməkdən ötrü müəyyənləşdirdiyi strategiyasını ardıcıl olaraq həyata keçirməyə başladı. Heydər Əliyev yeni Azərbaycan dövlətinin memarı oldu. Ölkədə yaranmış ağır şəraiti qiymətləndirən Heydər Əliyev 1994-cü ilin may ayında atəşkəsə getdi. Lakin bundan əvvəl düşmənə zərbə vurmaq qərarına gəlindi. 1993-cü ilin sonları - 1994-cü ilin əvvəllərində uğurlu Horadiz əməliyyatı nəticəsində ərazilərin bir qisminin işğaldan azad edilməsi ilə düşmənə və dünyaya göstərildi ki, Azərbaycan xalqı və dövləti torpaqlarının işğal altında qalması faktı ilə qətiyyən barışmayacaq, hansı yollarla olursa-olsun azad edəcək. Atəşkəsə gedərkən Heydər Əliyevin başlıca məqsədi dağınıq halda olan ordunu qurmaq, bərbad vəziyyətə düşən ölkənin inkişafının açarını tapmaq, fəal xarici siyasət yürüdərək tərəfdaşlar qazanmaq və əraziləri işğaldan qurtarmaqdan ötrü etibarlı zəmin hazırlamaq idi. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq təbii sərvətini - nefti milli sərvətə çevirərək onun gəlirlərini başlıca hədəfə çatmağa yönəltdi. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndirildi və qonşularla bərabərhüquqlu münasibətlər yaradıldı. Bununla 1 milyondan çox qaçqın və məcburi köçkünün yaşayış yeri ilə təmini, sosial problemləri, övladlarının təhsil xərcləri dövlət büdcəsi hesabına həll edildi. Qaçqın şəhərcikləri ləğv olundu. Bu, Azərbaycan modeli idi.

## Azərbaycan başlıca məqsədinə çatacaq: diplomatiya, yoxsa müharibə yolu ilə?

2003-cü il oktyabrın 15-də prezident seçilən İlham Əliyev bütün ikitərəfli və beynəlxalq görüşlərdə qətiyyətlə bildirdi ki, Azərbaycan xalqı və dövləti ərazilərinin işğal altında qalması ilə heç vaxt barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcək və istənilən vasitələrlə onu azad edəcək. Dövlət və millət bu məqsədə nail olmaq üçün hazırlandı. 2016-cı ilin Aprel döyüşləri nəticəsində ərazilərinin bir hissəsini azad etməklə Azərbaycan dövləti işğalla barışmayacağını düşmənə və dünyaya qəti şəkildə göstərdi. Aprel döyüşləri 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan qələbənin baş məşqi oldu.

Məqsədə çatmaqdan ötrü Prezident İlham Əliyev həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş tədbirlər həyata keçirdi. Tariximizdə ilk dəfə olaraq "yumşaq güc"dən məharətlə istifadə olundu. İşğalçılıq siyasətini ört-basdır etmək məqsədilə münaqişəyə dini don geyindirməyə, guya xristianların hüquqlarının pozulması kimi qələmə verməyə çalışan Ermənistanın çirkin təbliğatına cavab olaraq Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində uydurma erməni təbliğatına ağır zərbələr vuruldu. Qan tökülməsini və müharibəni istəməyən Azərbaycan dövlətinin münaqişəni dinc yolla həll etmək səylərinə baxmayaraq, Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deməklə məsələnin danışıqlar vasitəsilə tənzimlənməsi mümkünlüyünə son qoydu. Müxtəlif beynəlxalq toplantılarda Prezident İlham Əliyev onu tutarlı cavabları ilə rəzil etdi. Lakin Ermənistan yenə də təxribatlarını davam etdirdi. 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu hissəsində qanlı hadisəni törətməkdə rəsmi İrəvanın məqsədi sərhəddəki strateji yüksəklikləri ələ keçirmək, diqqəti Azərbaycan torpaqlarının işğalından yayındırmaq, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək, Azərbaycanın Qərbə çıxışının qarşısını kəsmək, böyük İpək yolu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və digər layihələrin keçdiyi əraziləri nəzarətə götürmək idi. Qarşısı qətiyyətlə alınan düşmən yerində oturdulsa da, təxribatlarından əl çəkməyərək sentyabr ayında yenidən qanlı əməllər törətdi. Diplomatiyanın imkanları artıq tükənmişdi. Bundan sonra baş verənlər üçün bütün məsuliyyət Ermənistanın üstünə düşürdü. Azərbaycan dövləti "sərt güc"dən istifadə etməyə məcbur oldu.

## Ədalətsiz dünyaya qarşı tək yumruqla döyüş

Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı müharibəyə başladı. Bu, təkcə işğalçı Ermənistana deyil, onu müdafiə edən ədalətsiz dünyaya qarşı tək bir yumruqla mübarizəyə qalxmaq idi. Müharibə ovaxtadək aparılan siyasətin başqa vasitələrlə, silah gücü ilə davamı oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük döyüş və 2023-cü il sentyabrın 19-20-də 23 saat sürən lokal xarakterli antiterror tədbirləri nəticəsində 1988-ci ildən bəri Azərbaycanın qarşısında dayanan problemi birdəfəlik həll edən bu mübarizə Azərbaycan tərəfindən xarakterinə görə ədalətli, azadlıq və ərazilərin işğaldan qurtarılması uğrunda Vətən müharibəsi idi.

Alınmaz qala olan Şuşa şəhərinin azad edilməsi ilə düşmənin beli qırıldı. İmzalanan üçtərəfli Bəyanat Ermənistanın danışıqsız təslimolma aktı idi. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, ötən əsrin 20-ci illərinin əvvəllərindən etibarən süni şəkildə siyasi leksikona daxil edilmiş qondarma "Dağlıq Qarabağ" ifadəsi tarixin zibilliyinə atıldı. Bu, 100 ilin kobud səhvinin Prezident İlham Əliyev tərəfindən düzəldilməsi və tarixi zəfərdir. Müharibə Prezidentin mahir strateq, böyük komandan olduğunu göstərdi. Siyasi, diplomatik və informasiya savaşının da tək komandanı Prezident İlham Əliyev idi. Qazanılan qələbə o zamana qədər Prezident İlham Əliyevin liderliyində yürüdülən daxili və xarici siyasətin düzgünlüyünü, mükəmməlliyini göstərdi. Bu, Azərbaycan iqtisadiyyatının, Silahlı Qüvvələrinin, hərb sisteminin, dövlət idarəetməsinin, daxili və xarici siyasətinin, diplomatiyasının, ideologiyasının, milli-mənəvi ruhunun düşmən üzərində parlaq qələbəsidir.

Məğlub olmasına baxmayaraq, Ermənistan üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirmədi. Bütün çağırışlara məhəl qoymayan İrəvan silahlı qruplaşmalarını və terrorçu dəstələrini Azərbaycanın ərazilərindən çıxarmadı. Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük alicənablıq göstərərək Ermənistana sülh əlini uzatsa da, bu ölkə özünü sanki məğlub olmayıbmış kimi aparmağa, gücü olmasa belə xarici havadarlarının təhrikilə yenidən meydan oxumağa başladı və təbii sərvətləri talamağı davam etdirdi. Ekofəalların etiraz olaraq keçirdikləri aksiyalar nəticə vermədikdə Azərbaycan dövləti aprelin 23-də Ermənistanla sərhəddə Laçın rayonunda Həkəri çayının üstündə körpüdə nəzarət-buraxılış məntəqəsini yaratmaqla dövlət sərhədləri üzərində nəzarəti tam bərqərar etdi. Azərbaycan Respublikasının 1991-ci ildən sonra ilk dəfə olaraq dövlət sərhədlərinə nəzarəti tam həyata keçirməyə başlaması Prezident İlham Əliyevin misli görünməmiş tarixi başarısıdır.

Azərbaycanın yenidən uzatdığı sülh əlini qəbul etməyən Ermənistan və xarici ölkələrdəki erməni təşkilatları xislətlərinə uyğun olaraq dünyada haray-həşir qopardıqda, terror aktlarını həyata keçirdikdə Azərbaycan yenidən "sərt güc"dən istifadə etməli oldu. Təcavüzkar Ermənistanın işğal nəticəsində qurduğu separatçı, terrorçu rejim Azərbaycan dövlətinin 19-20 sentyabr tarixlərində həyata keçirdiyi, bir sutkadan az sürən lokal xarakterli antiterror tədbirlərindən sonra şərtləri qəbul etdi, ağ bayraq qaldıraraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşısında diz çökdü, ayaqları altında sərildi. Heç bir mülki əhali ziyan görmədi. Qondarma rejim özünü buraxdı. Bu, tarixi Zəfərdir!

## Qələbəni şərtləndirən başlıca amillər

Böyük zəfərin qazanılmasını müharibə ərəfəsində və hərbi əməliyyatların gedişində bir sıra amillər şərtləndirdi. Birincisi, qələbənin qazanılmasında iqtisadi güc və yürüdülən müstəqil siyasət müstəsna rol oynadı. Prezident İlham Əliyev bu barədə deyir: *"İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi... Müstəqillik və bu bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda ordumuzu gücləndirək. Biz ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik?"*

İkincisi, qələbənin qazanılmasında siyasi iradə və milli birlik başlıca rol oynadı. Ölkə daxilində uğurlu siyasətin aparılması nəticəsində Azərbaycan dünya üçün nadir inkişaf modelini yaratmışdı. Milli vəhdət, vahid amal uğrunda birləşmək, xalq-iqtidar birliyi əlavə güc verdi, bəzi mənfur xarici dairələrin çirkin planlarını Azərbaycanda həyata keçirmələrinin qarşısını aldı.

Üçüncüsü, qələbənin qazanılmasında səmərəli vahid xarici siyasət xətti xüsusi yer tutdu. Azərbaycan diplomatiyası, digər siyasi və ictimai təşkilatlar dövlət başçısının müəyyənləşdirdiyi xətti uğurla həyata keçirdi. Ermənistanın işğal altında saxladığı ərazilərin Azərbaycanın tarixi torpağı, ermənilərin gəlmə olduqları rəsmi fakt və sənədlərin əsasında dünyada sübut edildi və beynəlxalq təşkilatlar tərəfindən müvafiq qətnamələr qəbul olundu. Dövlət başçısının müəyyənləşdirdiyi və ardıcıllıqla həyata keçirilən vahid xarici siyasət xətti Azərbaycan xalqını qələbəyə gətirdi.

Qonşu dövlətlərlə mehriban və səmimi münasibətlərin qurulması qələbənin qazanılmasına təsir etdi. Bunu dövlət başçısı İlham Əliyev belə bəyan etdi: *"Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".*

Azərbaycan dövlətinin yürütdüyü uğurlu xarici siyasət fəaliyyəti nəticəsində işğalçı Ermənistan dalana dirəndi. Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Bakıda keçirilən dinlərarası, sivilizasiyalararası dialoq forumları, İtaliya, Fransa, Vatikan və başqa ölkələrdə kilsələrin təmiri Ermənistanın uydurma təbliğatını puça çıxardı. Həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirərək Ermənistanı təcrid vəziyyətinə saldı.

Dördüncüsü, qələbənin qazanılmasında vacib amillərdən biri güclü ordunun qurulması və müdafiə sənayesinin yaradılması oldu. Azərbaycan dövləti Silahlı Qüvvələrinə xüsusi qayğı göstərdi. Bu məsələdən danışan dövlət başçısı bildirdi: *"Ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar... Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı... Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik".*

Beşincisi, qələbə Azərbaycan hərbçisinin qəhrəmanlığı sayəsində qazanıldı. Dağlardan, sıldırım qayalardan keçərək ağır texnikadan istifadə etmədən, dünya hərb tarixində nadir halda rast gəlinən qəhrəmanlıq göstərərək əlbəyaxa savaşda Şuşa şəhərinin azad edilməsi və sairə Azərbaycan əsgərinin qəhrəmanlığı idi. Heç bir xarici yardım olmadan ərazilərini işğaldan azad etməklə Azərbaycan İkinci Dünya müharibəsindən sonrakı dövrdə tarixi nailiyyət əldə etdi.

Altıncısı, qələbənin qazanılmasında Prezident, Ali Baş Komandan İlham Əliyevin şəxsiyyəti amili, qəti iradəsi, prinsipial mövqeyi, dünya işlərini dərindən bilməsi, mahir diplomatiyası, üstün zəkası və böyük sərkərdəlik məharəti başlıca rol oynadı. Bütün anti-Azərbaycan qüvvələrin fövqündə dayanaraq milləti toparlayan, millətindən güc alan Prezident İlham Əliyev qələbənin memarı oldu. Ərazilərimizi işğaldan azad edən əsgər dünyanın ən güclü əsgəri, həmin orduya rəhbərlik edən Ali Baş Komandan isə dünyanın ən qüdrətli sərkərdəsidir. Dediyi bütün sözlərin üstündə dayanan dövlət başçısı yenilməz əzmi və qətiyyəti ilə zəfər qazandı.

Nəhayət, qələbənin qazanılmasında millətin dövlət rəhbərinə böyük inam və etimadı mühüm rol oynadı. Millətin dövlət rəhbərinə inam və etibarı isə özü-özündən deyil, onun gördüyü işlərdən, millət sevgisindən yaranır. Dövlət başçısı gücünü, qüdrətini Uca Yaradandan və millətdən alır.

## Zəfərin əhəmiyyəti: Azərbaycan tarixinin ən yeni dövrünün başlanması

Prezident İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində düşmənin ərazilərimizdən qovulması, bir müddət sonra sərhəddə Laçın rayonunda Həkəri çayının üstündəki körpüdə nəzarət-buraxılış məntəqəsinin qurulması ilə bütün sərhədlərimiz üzərində nəzarətin əldə edilməsi, lokal xarakterli antiterror tədbirlərindən sonra separatçı rejimin dövlətimizin şərtlərini qəbul edərək ağ bayraq qaldırması nəticəsində bütün ərazilərimizdə suverenliyimizin tam bərpa olunması, separatçıların həbs olunması, bütün bunlar əhəmiyyətinin miqyasına görə geniş, əhatəli, mənasına görə dərindir. Terrorçu qrupların və separatçıların təslim olması ilə Azərbaycan Respublikası bütün ərazilərində dövlət suverenliyini bərpa etdi. Kökləri müstəmləkəçilik siyasətinə gedib çıxan, həm 1918-1920-ci illərdə birinci respublika, həm 1920-1991-ci illərdə müstəqil olmasa da, ikinci respublika, həm də 1991-ci ildən sonrakı üçüncü respublika illərində Azərbaycanın bədənində qarayara, çiban olan bu problemi yalnız Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 2023-cü ildə birdəfəlik, kökündən kəsib ataraq qazandığı möhtəşəm zəfərlə tariximizdə ən yeni dövrün başlanğıcını qoydu. Qondarma "Dağlıq Qarabağ" ifadəsi tarixin zibilliyinə atıldı. 1921-ci ildə siyasi leksikondan çıxarılmış Zəngəzur adı bərpa edildi.

İşğalçı ölkənin əzilməsi, ərazilərimizin azad edilməsi Orta əsrlərin "səlib yürüşləri"ndən başlayan, dünya erməniliyinin və havadarlarının XVIII əsrdən etibarən qurduqları planların darmadağın edilməsi və Azərbaycan xalqının arzularının, xəyallarının gerçəkləşdirilməsidir. Bu, Ermənistanı müdafiə edən dövlətlər, təşkilatlar, lobbi qrupları üzərində tarixi zəfərdir. Prezident İlham Əliyev xalqımıza qarşı olan səlibçi psixologiyanı, islamafob planları darmadağın edərək onların hamısından güclü, yenilməz və qüdrətli olduğunu bir daha sübut etdi. Bütün təzyiqləri rədd edən, özünün də dediyi kimi, heç bir yarımçıq qərarın qəbuluna tərəfdar olmayan, millətin və dövlətin inkişafına mane olan əngəlləri əzən, əsrin səhvini düzəldərək Azərbaycan ərazisində basdırılmış bombanı əbədi olaraq zərərsizləşdirən Prezident İlham Əliyev zəmanəmizin ən böyük strateqi, diplomatı, mahir sərkərdəsi və informasiya savaşının qalibi oldu. Prezident İlham Əliyev göstərdi ki, bir dövlətin böyüklüyü onun ərazisinin həcmi, əhalisinin sayının çox və ya az olması ilə müəyyənləşdirilmir. Onu müəyyənləşdirən millət, dövlətə rəhbərlik edən şəxsin zəkasıdır.

Azərbaycan xalqının və dövlətinin arzularını və xəyallarını gerçəkləşdirən Prezident İlham Əliyev gələcək nəsillərə yaşamağın düsturunu verdi, dünyanın harasında qalmasından asılı olmayaraq, başını dik tutaraq yaşamağı öyrətdi. Tariximizdə ilk dəfə olaraq yaradılan Zəfər Parkı təkcə indiki deyil, gələcək nəsillər üçün də tarixi əhəmiyyət daşıyır. Zəkası, qətiyyəti, cəsarəti və yenilməz iradəsi ilə dünyaya möhtəşəm azərbaycanlı obrazı təqdim edən Prezident İlham Əliyev göstərdi ki, Azərbaycanın haqq işindən heç vaxt geri çəkilməz, Azərbaycanla təzyiqlə danışmaq nəticə verməz. Ərazilərin işğaldan azad edilməsi 1994-cü ildə atəşkəsə gedərkən Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Ermənistan, dünya erməniliyi və onların havadarları üzərində üstünlüyünü və qalibiyyətini göstərdi.

Heç bir xarici dövlət və beynəlxalq təşkilatın yardımı olmadan işğaldan azad edilmiş ərazilərdə qısa müddətdə şəhər, qəsəbə və kəndlərin tikilməsi, infrastrukturun yaradılması, iş yerlərinin açılması, keçmiş məcburi köçkünlərin planlı şəkildə doğma yurdlarına qaytarılması, hazırda təxminən 100 min nəfərə qədər insanın işğaldan azad edilmiş ərazilərdə olması Prezident İlham Əliyevin yaratdığı ən yeni Azərbaycandır.

Qazanılan qələbə ilə Cənubi Qafqazın tarixində sülh və əməkdaşlıq üçün yeni imkanlar yarandı. Prezident İlham Əliyev erməniləri öz maraqları naminə istifadə edən dövlətlərin də əlindən qurtarmağa çalışır. Qazandığı qələbə ilə yüzilliklər boyu türk dünyasına qarşı quraşdırılan kirli oyunları darmadağın edən Prezident İlham Əliyev türk dövlətlərinə və xalqlarına da yol göstərdi və başını uca etdi. Türk dövlətləri və müstəqil dövlətləri olmayan türk xalqlarının özünə inamı artdı. Bu zəfər XXI əsri türk əsri etdi. Qazanılan qələbə ilə BMT, ATƏT və başqa təşkilatların üstündəki ləkə də silindi. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinin mərhələli, paket və ümumi dövlət planlarını istifadəyə yararsız kağız parçası kimi cırıb bir kənara atdı.

Qələbə ilə Prezident İlham Əliyev dünyada əzilən xalqlara da yol göstərdi. Bu gün Azərbaycan rəhbəri haqq, ədalət rəmzidir.

Azərbaycan və Ermənistan arasında sülh sazişinin Vaşinqtonda dünyanın fövqəldövləti olan Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Amerika xalqının baş evi olan Ağ Evdə paraflanması, döyüş meydanında qazanılan qələbənin masada da qəbul etdirilməsi Azərbaycan diplomatiya tarixinin parlaq səhifəsidir.

## İbrət dərsləri

Tarix yalnız xronologiya və rəvayət üçün öyrənilmir. Tarixin öyrənilməsi bir millətin haradan gəldiyini, harada olduğunu və haraya gedəcəyini bilməsi, keçmişdən ibrət dərsləri çıxarması, buraxılan səhvləri bir daha buraxmaması üçün lazımdır. Tarixini bilməyən bir xalq zamanın qaranlıq sel-sularında qərq olmuş kimidir. Ermənistanın əsassız ərazi iddialarının irəli sürüldüyü 1988-ci ildən başlayaraq dövlət suverenliyinin tam bərqərar edildiyi 2023-cü ilədək olan tariximizdən düzgün ibrət dərsi almaqdan ötrü belə bir suala cavab vermək lazımdır: Azərbaycan əraziləri hansı şəraitdə işğal edilmişdi və hansı şəraitdə azad edildi? Ərazilərimiz ölkəmizdə xaos, anarxiya, dövlət hakimiyyətinin qanadları arasında intriqalar, dövlət rəhbərləri zəif olanda işğal edilmişdi. Ərazilərimiz ölkəmizdə sabitlik, ciddi qayda-qanun, güclü dövlət, qüdrətli dövlət rəhbəri olanda, millət tək bayraq altında birləşəndə işğaldan xilas edildi. Deməli, millətimizin inkişafının və arzularına çatmasının təməlində milli müstəqil dövləti və qüdrətli dövlət rəhbəri dayanır. 27 sentyabrın daha geniş mənada başlıca yekunu Azərbaycan tarixinin gedişinin dəyişməsi, həlli mümkün olmayanın mümkün edilməsidir. Böyük Britaniyanın Baş naziri Uinston Çörçil deyirdi ki, mümkün olmayanı mümkün edənlər dahilər olur, milləti və dövləti durduqca əbədiyyən yaşayırlar. Cənab Prezidentimiz xəyallara gəlməyəni və mümkün olmayanı mümkün etdi.

Allah şəhidlərimizə rəhmət etsin!

Millətimizi məğlub vəziyyətdən çıxarıb qalib edən, arzularını gerçəkləşdirən, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yürüdülən bu siyasət daim davam etdirilməlidir...

***Musa QASIMLI,***
***Azərbaycan Respublikası***
***Milli Məclisi Sədrinin müavini***




# Qürur və xatirə günü

**27 sentyabr Azərbaycanın öz torpaqlarını düşməndən azad etmək üçün başladığı tarixi gündür. Ali Baş Komandan İlham Əliyevin əmri ilə başlanan əks-hücum əməliyyatları Azərbaycan Silahlı Qüvvələrinin tam və qəti qələbəsi ilə başa çatdı. Xalqımızın qürur tarixinə çevrilmiş 44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü dünyaya göstərdi - erməni işğalına son qoyuldu və ərazilərimiz bütövləşdi.**

1990-cı illərdən bəri davam edən işğal, eləcə də sülh danışıqlarının nəticəsiz qalması Azərbaycanın hərbi yolla torpaqlarını azad etmək qərarını şərtləndirdi. Rəsmi İrəvan uzun illər ərzində Azərbaycana qarşı düşmənçilik siyasəti aparırdı. Bu siyasət təkcə hərbi işğalla deyil, eyni zamanda ideoloji, siyasi və mədəni sahələrdə də həyata keçirilirdi.

Hələ çar Rusiyası dövründə, xüsusilə 1828-ci il Türkmənçay müqaviləsindən sonra Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi erməni köçü təşkil olunmuşdu. Bu siyasət Rusiya imperiyasının regional maraqları çərçivəsində həyata keçirilirdi, bölgədə müsəlman əhalisini zəiflətmək və yeni etnik balans yaratmaq məqsədi daşıyırdı. Xalqımıza qarşı yönəlmiş bu düşmənçilik siyasəti artıq 200 ildən çox bir dövrü əhatə edirdi. Bu fakt erməni millətçilərinin Azərbaycan türklərinə qarşı həyata keçirdiyi ardıcıl siyasətin planlı, sistemli və uzunmüddətli xarakter daşıdığını göstərirdi.

Tarixboyu, xüsusilə XX əsrin əvvəllərində erməni silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilir, etnik təmizləmələr aparılır, yerli əhali doğma yurdlarından sürgün olunur və mədəni irsimiz məqsədyönlü şəkildə məhv edilirdi. Ermənilər Azərbaycan ərazisində məskunlaşdıqları dövrdən etibarən xalqımıza məxsus toponimləri dəyişdirməyə başlamışlar. Məsələn, Xankəndinin adının dəyişdirilməsi, Şuşanın erməni şəhəri kimi təqdim olunması bu siyasətin nümunələri idi.

Ermənilərin məskunlaşdığı bölgələrdə azərbaycanlılara qarşı təzyiqin müxtəlif formaları geniş yayılmışdı. "Daşnaksütyun" partiyası XIX əsrin sonlarında yaranaraq ifrat millətçi və ekspansionist ideologiya ilə tanınırdı. Bu partiyanın əsas hədəfi "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək idi. Rusiya və Osmanlı imperiyalarının zəiflədiyi dövrlərdə - xüsusən 1905-1907-ci illər və 1918-1920-ci illər aralığında daşnak silahlı dəstələri Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında etnik təmizləmə və kütləvi qırğınlar həyata keçirirdilər. Bu siyasət birbaşa erməni millətçiliyinin radikal qolu olan "Daşnaksütyun"un ideoloji xəttinə söykənirdi və nəticədə Azərbaycana qarşı düşmənçilik və işğalçılıq strategiyasına çevrilirdi.

Qondarma "dənizdən-dənizə Ermənistan" ideyası, yəni Qara dənizdən Xəzər dənizinədək uzanan "böyük Ermənistan" yaratmaq xülyası əsassız və təhlükəli bir etnik imperializm layihəsi idi. Bu ideya təkcə Azərbaycan üçün deyil, bölgədəki bütün qonşu xalqlar üçün təhdid idi. 1948-1956-cı illərdə SSRİ rəhbərliyinin qərarı ilə 150 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. 1987-1989-cu illərdə Ermənistandan daha 300 min azərbaycanlı zorla çıxarıldı, Ermənistan monoetnik dövlətə çevrildi. 1988-ci ildən başlayan Qarabağ münaqişəsi də bu ideyanın tərkib hissəsi idi. Məqsəd təkcə Qarabağı deyil, Azərbaycanın digər ərazilərini də zəbt etmək idi. Bu sərsəm ideya ilə təkcə tarixi saxtalaşdırmağa deyil, müharibə və insan faciələrini legitimləşdirməyə çalışırdılar.

Sovet İttifaqının dağılması ilə yaranan boşluqdan istifadə edən Ermənistan xarici siyasi və hərbi dəstəyə arxalanaraq Dağlıq Qarabağ və ətraf 7 rayonu işğal etdi. Bu işğal zamanı yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, mülki əhali qətlə yetirildi, dinc insanlar etnik təmizləməyə məruz qaldılar. Başlıbel, Ağdaban və Bağanis-Ayrım kimi kəndlərdə törədilən qətliamlar erməni silahlı qüvvələrinin sistemli və amansız cinayətlərini göstərir. Xocalı soyqırımı isə bu vəhşiliklərin zirvəsi oldu.

Azərbaycan-Ermənistan münaqişəsində beynəlxalq qurumlar, o cümlədən ATƏT-in Minsk qrupu 29 il ərzində hər hansı nəticə doğuran bir addım belə atmamış, işğalçı və işğala məruz qalan tərəflərə eyni mövqedən yanaşmışlar. Bu "neytrallıq", əslində, Ermənistanın maraqlarına xidmət etmiş, işğalın dondurulmasına səbəb olmuşdur. Beləliklə, "ikili standartlar" siyasəti Azərbaycanın ərazi bütövlüyünə qarşı səssiz razılıq kimi qiymətləndirilə bilər.

Azərbaycan 30 ilə yaxın müddətdə münaqişənin sülh, diplomatik yolla həlli üçün səbir və siyasi iradə nümayiş etdirdi. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistanın işğalçı qüvvələrinin qeyd-şərtsiz olaraq geri çəkilməsini tələb etsə də, icra olunmadı. Beynəlxalq ictimaiyyətin bu məsələdə təsirsiz və zəif reaksiyası işğalın uzunmüddətli olmasına şərait yaratdı.

Sülh danışıqları aparıldığı illər ərzində Ermənistan təxribatlardan çəkinməmiş, təmas xəttində dinc azərbaycanlıları hədəfə almış və silahlı hücumlar və diversiya qrupları vasitəsilə vəziyyəti daim gərgin saxlamışdır. Bu təxribatlar Ermənistanın sülh istəmədiyini və münaqişəni dondurmaqla torpaqları əbədi işğal altında saxlamaq niyyətində olduğunu ortaya qoyurdu.

Lakin Azərbaycan xalqı işğalla heç vaxt razılaşmadı. Bu, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ilin Tovuz hadisələrində və nəhayət, 44 günlük Vətən müharibəsində sübut olundu. Azərbaycan uzun illər ərzində sülh və danışıqlar yolunu üstün tutaraq beynəlxalq hüquqa sadiqlik nümayiş etdirmişdi. Lakin bu müddət ərzində Ermənistan tərəfindən işğalın davam etməsi, mütəmadi hərbi təxribatlar, 2020-ci il 27 sentyabr tarixində atəşkəsin kobud şəkildə pozulması Azərbaycan xalqının səbir kasasını daşdırmışdı.

Həmin gün Ermənistan silahlı qüvvələri yalnız hərbi mövqelərimizi deyil, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl kimi yaşayış məntəqələrimizi də artilleriya atəşinə tutaraq dinc əhaliyə qarşı növbəti təcavüz aktı həyata keçirdi. Bu hücumlar nəticəsində hərbçilərlə yanaşı, mülki şəxslər də həlak oldular. Cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin əmri ilə genişmiqyaslı əks-hücum əməliyyatına başladı.

44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu 300-dən çox yaşayış məntəqəsini, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini işğaldan azad etdi. Noyabrın 9-da Şuşa şəhərinin azad olunması ilə müharibənin taleyi həll edildi və Ermənistan kapitulyasiya bəyanatını imzalamağa məcbur oldu. Bu sənədə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz Azərbaycana qaytarıldı. Beləliklə, Azərbaycan həm hərbi, həm də siyasi masada qələbəsini möhkəmləndirmiş oldu.

Bu müharibə yalnız silah və texnika ilə deyil, xalqın ordusuna və dövlətinə olan sarsılmaz dəstəyi ilə qazanıldı. Müharibə dövründə "Öldü var, döndü yoxdur" şüarı xalqın qələbə əzmini, şəhidlərimizin və qazilərimizin ruhunu ifadə edən milli birlik simvoluna çevrildi. Azərbaycan xalqı bu 44 gündə bir yumruq kimi birləşdi, cəbhədə döyüşən əsgərin arxasında dayandı. Bu həm də milli iradənin, milli ləyaqətin və milli ruhun təntənəsi idi.

44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbə xalqın, ordunun və dövlətin vəhdətinin təntənəsi oldu. Bu zəfərin əsas memarları - qəhrəman əsgər və zabitlərimiz, şəhidlərimiz və qazilərimiz xalqımızın qürur mənbəyidir. Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamı ilə hər il 27 sentyabr Anım Günü kimi qeyd olunur. Bu, şəhidlərimizin müqəddəs xatirəsinə olan dərin ehtiramın ifadəsidir.

Dövlət müharibədən sonra da öz qəhrəman övladlarını unutmur. Şəhid ailələri və qazilərə göstərilən qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Qələbənin əbədiləşdirilməsi üçün bir çox orden və medal təsis olunub. Bakıda salınan Zəfər Parkı və Memorial Kompleks həm şəhidlərimizin xatirəsini yaşatmaq, həm də qələbəmizi vizual və mənəvi olaraq nümayiş etdirmək baxımından mühüm layihədir.

Azərbaycan xalqı Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq, birlik və əzm sayəsində tarix yazdı. Qazanılan Zəfər yalnız bir döyüşün yox, əsrlərlə davam edən ədalət mübarizəsinin qələbəsidir və o, hər bir azərbaycanlının qəlbində yaşayır, gələcəyə inam bəxş edir.

***Sevil MİKAYILOVA,***
***Milli Məclisin deputatı***

# Dünya dövlətimizin əzmini və xalqımızın mübarizliyini gördü

**Sentyabrın 27-də Azərbaycanın bir neçə əsrlik dövlətçilik salnaməsinin şərəfli səhifəsi olan İkinci Qarabağ müharibəsinin başlanmasının 5-ci ili tamam olur. Ermənistan ordusunun cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatlardan sonra başlanan bu savaş torpaqlarımızın azadlığı uğrunda mücadiləyə hər an hazır olan xalqımızın arzularının ifadəsinə çevrildi.**

Qarabağın əzəli və tarixi Azərbaycan torpağı olmasına rəğmən, 30 ilə yaxın bir dövrdə ATƏT-in Minsk qrupu problemin həllindən, BMT qətnamələrinin və digər beynəlxalq sənədlərin tələblərinin yerinə yetirilməsi üçün Ermənistana təzyiq göstərməkdən uzaq oldu. Bununla həm də dolayısı ilə Ermənistanın işğal siyasətinə dəstək verdi. Fransa kimi dünya erməniliyinə evsahibliyi edən dövlətlər hesab edirdilər ki, zaman keçdikcə, nəsillər bir-birini əvəz etdikcə Azərbaycan xalqı ərazilərinin itirilməsi və Qarabağda ikinci erməni dövlətinin yaradılması kimi sərsəm ideya ilə barışacaq. Lakin yanılırdılar. Bu gün dönüb tarixə ekskurs edəndə, atəşkəsin davam etdiyi illərin mənzərəsinə nəzər salanda görürük ki, dövlət və xalq olaraq torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hər zaman hazır olmuşuq.

Ulu Öndər Heydər Əliyev çıxışlarının birində demişdir: *"Azərbaycan bu vəziyyətdən çıxacaq. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə, yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir".*

Ümummilli Lider hələ ötən əsrin 90-cı illərindən aparılan sülh danışıqlarında Azərbaycanın milli maraqlarını qətiyyətlə qorudu, Ermənistanın mənafelərinə xidmət edən bütün təzyiqləri qətiyyətlə dəf etdi. Ulu Öndərin bununla bağlı müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyev öz fəaliyyətində torpaqlarımızın işğaldan azad olunmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpasını başlıca məqsəd kimi müəyyənləşdirdi və ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini bəyan etdi.

Məlum olduğu kimi, Minsk qrupu və beynəlxalq təşkilatlar hər zaman belə bir fikri təlqin edirdilər ki, problemin həlli yalnız danışıqlar yolu ilə mümkündür. Prezident İlham Əliyev isə sülh danışıqlarına sadiq qalmaqla yanaşı, Azərbaycanın öz ərazilərini işğaldan döyüş yolu ilə azad edə biləcəyini də həmişə açıq şəkildə bildirirdi. Bu məqsədlə ordumuzun döyüş qabiliyyətinin artırılması istiqamətində məqsədyönlü islahatlar həyata keçirildi, müasir silahlar və hərbi texnikalar Silahlı Qüvvələrimizin arsenalına daxil edildi. Ümumiyyətlə, Azərbaycanın inkişafı, ordumuzun qüdrətlənməsi onu deməyə əsas verirdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan döyüş yolu ilə torpaqlarını işğaldan azad edəcək. Hələ 2016-cı ilin Aprel döyüşləri bunun ilk işartısı oldu. Həmin vaxt dördgünlük döyüşlər göstərdi ki, Azərbaycan torpaqlarını hərbi yolla işğal etməyə tam hazırdır.

Ermənistanın yürütdüyü destruktiv siyasətin nəticəsi kimi artıq 2020-ci ilin ortalarında sülh danışıqlarının nəticəsiz qaldığı ortada idi. Qarabağda ermənilərin qanunsuz məskunlaşdırılması, qondarma rejim tərəfindən "seçkilər"in keçirilməsi və 2020-ci ilin ortalarında Ermənistanın bizim Tovuz rayonu istiqamətində həyata keçirdiyi hərbi təxribat danışıqlar prosesini tamamilə iflasa uğratdı.

2020-ci il sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edən Prezident İlham Əliyev Ermənistanın iyul təxribatını, Azərbaycana diversiya qrupu göndərdiyini, könüllülərdən ibarət qoşun yaratdığını, Şuşada cinayətkar xunta rejiminin qondarma liderinin dırnaqarası andiçmə mərasiminin keçirildiyini və digər təxribatçı hərəkətləri onun diqqətinə çatdırdı. "Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir" deyən İlham Əliyev başqa bir xəbərdarlığını da etdi ki, əgər Ermənistan hücum etsə, peşman olacaq.

Prezident İlham Əliyev necə demişdisə, elə də oldu. 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı hərbi təxribat törədən Ermənistan elə həmin gündən başlayaraq sözün bütün mənalarında peşman edildi. Təxribatların qarşısının alınması məqsədilə Azərbaycan Silahlı Qüvvələrnin başlatdığı əks-hücum əməliyyatı ilə torpaqlarımızın işğaldan azad edilməsi prosesi başladı.

Vətən müharibəsi adını alan bu savaş ilk gündən Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş qabiliyyətini dünyaya nümayiş etdirdi. Ordumuz işğalçıların möhkəmləndirilmiş müdafiə mövqelərini döyüşlərin ilk saatlarında keçərək Füzuli və Cəbrayılın 6 kəndini işğaldan azad etdi. İşğalçı Ermənistanın öz ordusu barədə yaratdığı "məğlubedilməzlik" mifi döyüşlərin ilk günündəcə darmadağın olundu.

Vətən müharibəsi 44 gün davam etdi. Bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının, Laçın, Xocalı rayonlarının kəndlərinin, Suqovuşan və Hadrut qəsəbələrinin işğaldan azad olunması Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun gücünün, xalqımızın həmrəyliyinin təntənəsinə çevrildi. Prezident İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi həm də informasiya savaşında Azərbaycanı qalib etdi. Dövlət başçısının şəhər və rayonların işğaldan azad edilməsi ilə bağlı müjdələri bayrama çevrildi. Qəhrəman hərbçilərinin Ali Baş Komandana etdikləri zəfər məruzələri isə hər birimizi qürurlandırdı.

Mədəniyyətimizin beşiyi, milli qürurumuzun ünvanı olan Şuşanın azad olunmasından sonra isə Ermənistan rəhbərliyi artıq məğlubiyyətini dərk edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtlərinin ifadəsi olan üçtərəfli Bəyanata imza atdı. Bundan sonra Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad edilməsi Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən və qətiyyətli siyasətin növbəti təcəssümü oldu.

Torpaqlarımızı Ali Baş Komandanı İlham Əliyev olan Silahlı Qüvvələrimizin əsgərləri, zabitləri, çavuşları, gizirləri azad etdilər. Onlar müharibənin ilk saatlarından öz mübarizlikləri ilə cəsarətin, qəhrəmanlığın, vətənpərvərliyin nümunələrini yaratdılar. Xalqımızın qəhrəmanlıq tarixini öz rəşadətləri ilə zənginləşdirən oğullar bu savaşda canlarını fəda etdilər, müqəddəs şəhidlik zirvəsinə yüksəldilər.

Bu gün şəhidlərimizin ruhu rahatdır. Çünki uğrunda mübarizə apardıqları Vətən torpaqları azaddır, Qarabağda erməni separatizminə son qoyulub, bütün ərazilərimiz üzərində milli suverenliyimiz təmin olunub. Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının yanında qüdrətli Azərbaycan dövləti var.

Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Bu tarixin əbədiləşdirilməsi zərurəti ona əsaslanır ki, torpaqlarımızı qanı, canı bahasına işğaldan azad edən, xalqımızın başını ucaldan qəhrəman hərbçilərimizin qanı yerdə qalmayıb. Şəhidlərimizin qisası məhz döyüş meydanında alınıb.

27 Sentyabr Anım Günü həm də xalqımızın mübarizliyini dünyaya bəyan edən bir tarixdir. Çünki məhz həmin tarixdən başlayan Zəfər yürüşünün nəticəsi kimi torpaqlarımız işğaldan azad edilib, Qarabağda erməni separatizminə son qoyulub, ərazi bütövlüyümüz bərpa olunub.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Anım Gününün əhəmiyyəti misilsizdir

**Azərbaycanın ən yeni tarixi səhifələrindən biri 2020-ci ilin 27 sentyabrında yazıldı. Məhz həmin gün Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan xalqı və dövləti Vətən müharibəsinə başladı. Bu müharibə sadəcə hərbi əməliyyatlar deyildi, o həm də xalqımızın haqq və ədalət uğrunda mübarizəsi idi.**

Azərbaycan illərlə beynəlxalq hüquqa, ədalətə söykənərək münaqişənin dinc yolla həllini istəyirdi. Lakin Ermənistanın hərbi təcavüzü və yeni hücum planları xalqımızı öz müqəddəs torpaqlarını silahla azad etməyə məcbur etdi. Vətən müharibəsi həm milli birlik, həm də dövlət iradəsinin ən parlaq ifadəsi idi. Azərbaycan əsgəri və zabiti ön, xalq isə arxa cəbhədə bir yumruq kimi birləşərək düşmənin illərlə qurduğu işğal siyasətini darmadağın etdi. Bu mübarizədə hər kəsin rolu vardı - cəbhədə döyüşən igidlər, onlara dəstək olan ailələr, yaralıların həyatını xilas edən tibb işçiləri, həmçinin informasiya müharibəsində ölkəmizin haqq səsini dünyaya çatdıran ziyalılarımız və jurnalistlərimiz.

Azərbaycan Ordusu öz mübarizəsini ən yüksək vətənpərvərlik hissi ilə apardı. Düşmənin hərbi təxribatlarına baxmayaraq, müzəffər ordumuz yalnız legitim hədəfləri vuraraq beynəlxalq humanitar hüquqa əməl etdi. Ermənistan isə əksinə, müharibə cinayətləri törədərək şəhərlərimizi, kəndlərimizi, mülki əhalini, o cümlədən uşaqları hədəfə aldı. Gəncə, Bərdə, Tərtər kimi şəhərlərimizə atılan raketlər nəticəsində günahsız insanlar həyatını itirdi. Bu, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədilmiş cinayət idi.

Müharibədə şəhidlər verdik. Məhz onların qanı bahasına torpaqlarımız işğaldan azad edildi. Qazilərimiz isə torpaqlarımızın azadlığı uğrunda mübarizənin canlı rəmzləridir. Hər bir şəhidin adı Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Onların igidliyi gələcək nəsillərə ən böyük örnəkdir.

Vətən müharibəsinin ən mühüm dərslərindən biri də xalqın birliyinin gücünü göstərməsi oldu. Milli həmrəyliyimiz məhz 44 gün ərzində özünü ən yüksək səviyyədə büruzə verdi. Siyasi baxışından, sosial statusundan, peşəsindən asılı olmayaraq hər kəsin bir məqsədi vardı - Qarabağı azad görmək. Bu, Azərbaycan xalqının tarixi taleyini öz əlində həll etməyə qadir olduğunu bir daha sübut etdi.

Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi bu müharibədə həlledici amil oldu. Dövlət başçısının həm cəbhə bölgəsində, həm də beynəlxalq arenada apardığı mübarizə xalqın inamını daha da gücləndirdi. Müharibə dövründə xalqa ünvanlanan müraciətlər, dünya ictimaiyyətinə verilən mesajlar Azərbaycanın haqq işinin müdafiəsində mühüm rol oynadı.

27 sentyabr Azərbaycanda Anım Günü kimi qeyd olunur. Bu gün hər birimizin qəlbində həm hüzn, həm də qürur hissi doğurur. Hüznlüdür, çünki minlərlə qəhrəmanımız canını Vətən uğrunda fəda edib. Qürurludur, çünki onların qanı yerdə qalmayıb, Azərbaycan tarixi ədaləti bərpa edib.

Dövlətimiz şəhidlərin xatirəsini daim uca tutur. Onların ailələrinə göstərilən diqqət və qayğı, qazilərin sosial müdafiəsi istiqamətində atılan addımlar milli həmrəylik nümunəsidir. Hər bir şəhidin xatirəsi bu torpaqların müqəddəsliyinin simvoluna çevrilib. Azərbaycanın hər bölgəsində şəhidlərin adını daşıyan məktəblər, parklar, küçələr var. Bu, onların igidliyini gələcək nəsillərə çatdırmaq, qəhrəmanlıq ənənəsini yaşatmaq üçündür.

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə təkcə işğal olunmuş ərazilərin azad edilməsi demək deyil. Bu həm də regionda yeni siyasi reallıqların yaranması, ədalətin bərpa olunması deməkdir. Şuşanın azad olunması müharibənin taleyini həll edən əsas məqamlardan biri oldu. Qısa müddətdə ard-arda əldə edilən qələbələr Azərbaycan Ordusunun gücünü, xalqın əzmini bütün dünyaya nümayiş etdirdi. Qələbə ilə Azərbaycan həm beynəlxalq hüququn norma və prinsiplərini təmin etdi, həm də regionda dayanıqlı sülhün əsaslarını qoydu. İşğaldan azad olunmuş torpaqlarda geniş quruculuq işlərinin aparılması, məcburi köçkünlərin yurdlarına qayıdışı bu zəfərin bəhrəsidir.

Anım Günü gələcək nəsillərə böyük bir mesaj daşıyır. Bu gün hər bir gənc anlayır ki, azadlıq, müstəqillik və suverenlik böyük qurbanlar hesabına qazanılıb. Şəhidlərin fədakarlığı gənclər üçün vətənpərvərlik məktəbinə çevrilib. Onların qəhrəmanlığı həm də gələcəyin yol xəritəsidir. Bu gün məktəblərdə, ali təhsil müəssisələrində, ictimai tədbirlərdə Anım Günü xüsusi vurğulanır. Dövlətin, ordunun, xalqın birliyini möhkəmləndirən 27 sentyabr Azərbaycan gəncliyinin milli ruhda formalaşmasına xidmət edir.

Anım Günü xalqımızın tarixi yaddaşının, milli birliyinin və qələbə əzminin simvoludur. Bu gün hər birimizə xatırladır ki, azadlıq və müstəqillik ən böyük sərvətdir və onu qorumaq üçün hər zaman ayıq-sayıq olmalıyıq. Qəhrəman şəhidlərimizin, igid qazilərimizin fədakarlığı nəticəsində əldə edilən qələbə Azərbaycan dövlətinin gələcək inkişafı üçün möhkəm təməl rolunu oynayır. Azərbaycan bu gün daha güclü, daha əzəmətli və daha iradəli dövlətdir. Vətən müharibəsindəki zəfər təkcə tariximizə qızıl hərflərlə yazılmadı, həm də gələcək nəsillər üçün yol göstərən bir mayaka çevrildi.

27 Sentyabr Anım Günü şəhidlərimizin ruhuna ehtiramın, xalqımızın qəhrəmanlığının və dövlətimizin sarsılmaz iradəsinin əbədi rəmzidir.

***Şahin SEYİDZADƏ,***
***Milli Məclisin deputatı***



# Tariximizin qürur səhifəsi

**30 ilə yaxın dövr ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə təxribatlar törətmiş, təmas xətti boyunca dinc əhalimizi mütəmadi atəşə tutaraq onların həyatına daim təhlükə yaratmışdır. Yüz minlərlə soydaşımız ata-baba torpaqlarından didərgin düşmüş, şəhər və kəndlərimiz viran edilmiş, maddi-mədəni irsimiz və dini abidələrimiz vəhşicəsinə məhv edilmişdir.**

Bu siyasətin davamı olaraq 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozaraq cəbhəboyu Azərbaycan Ordusunun mövqelərinə intensiv hücumlar təşkil etmiş, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutmuşdur. Nəticədə hərbi qulluqçularımızla yanaşı, 11 dinc sakin, o cümlədən 2 uşaq həyatını itirmişdir. Bu açıq hərbi təcavüz Azərbaycan dövlətini BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququndan istifadə etməyə vadar etmişdir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev xalqın sarsılmaz iradəsinə arxalanaraq əks-hücuma keçmək əmri vermişdir. Beləliklə, Azərbaycan Ordusunun Qarabağda başladığı əks-hücum əməliyyatı 44 gün davam etmiş və böyük zəfərlə başa çatmışdır. Bu müddət ərzində ordumuz 5 şəhəri, 4 qəsəbəni və 286 kəndi işğaldan azad etmişdir. Bununla yanaşı, Murovdağ, Ağdərə və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər Azərbaycan Ordusunun nəzarətinə keçmişdir.

Müharibənin baş verməsinə səbəb olan əsas amillərdən biri beynəlxalq təşkilatların uzun illər ərzində nümayiş etdirdiyi ikili standartlara əsaslanan siyasət olmuşdur. 1992-ci ildə münaqişənin sülh yolu ilə həll edilməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu elə ilk illərdən gözləntiləri doğrultmamış, faktiki olaraq işğalçı Ermənistanın maraqlarına xidmət etmişdir. Rəsmi vədlərinə baxmayaraq, bu qurum problemin həllinə deyil, əksinə, dondurulmasına üstünlük vermiş, status-kvonun qorunub saxlanmasına şərait yaratmışdır. Ermənistanın destruktiv mövqeyi və hər bir təşəbbüsü sabotaj etməsi açıq şəkildə görünsə də, vasitəçilər buna göz yumur, işğalçı ilə işğala məruz qalan tərəf arasında saxta balans yaratmağa çalışmışlar.

Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti də gözlənilən nəticəni verməmişdir. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, bu sənədlər 27 il ərzində kağız üzərində qalmışdır. Nəticədə beynəlxalq hüququn norma və prinsipləri kobud şəkildə pozulmuşdur.

Azərbaycan isə bütün bu proseslər fonunda daim prinsipial mövqe sərgiləmiş, sülhün bərqərar olması üçün beynəlxalq hüquqa əsaslanan ədalətli həll yolunu müdafiə etmişdir. Dövlətimiz dəfələrlə beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət edərək işğal faktını aradan qaldırmağa çağırmış, münaqişənin həlli üçün konstruktiv təkliflər irəli sürmüşdür. Lakin qarşı tərəfin destruktiv siyasəti və davamlı təxribatları Azərbaycanın milli təhlükəsizliyini və ərazi bütövlüyünü bərpa etmək üçün qəti addımlar atmasını labüd etmişdir.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Azərbaycan beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və ədalət prinsiplərinə əsaslanaraq haqq mübarizəsinə qalxdı. Bu mübarizə təkcə dövlətimizin suverenliyinin bərpasını deyil, həm də regionda uzunmüddətli sülhün və ədalətli nizamın təmin olunmasını hədəfləyirdi.

Azərbaycan Ordusunun 2020-ci ildə qazandığı möhtəşəm qələbə təsadüfi deyildi. Bu Zəfərin əsasında xalqın sarsılmaz birliyi, qəhrəmanlığı, dövlətin siyasi iradəsi, güclənən iqtisadi imkanlar və illərboyu həyata keçirilən ardıcıl ordu quruculuğu siyasəti dayanır. Hələ Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk gündən ölkənin müstəqilliyinin möhkəmləndirilməsi ilə yanaşı, güclü, peşəkar və müasir ordu quruculuğunu prioritetlərdən biri elan etmişdi. O, hər zaman vurğulayırdı ki, müstəqil dövlətin mövcudluğu üçün ən mühüm şərtlərdən biri güclü ordunun olmasıdır. Bu strateji yanaşma Azərbaycanın gələcək Zəfərinin təməli idi.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli maraqlara əsaslanan hərbi siyasəti yeni inkişaf mərhələsinə yüksəltmişdir. Onun uzaqgörən rəhbərliyi və prinsipial mövqeyi nəticəsində son illər ərzində Azərbaycan Ordusu ən müasir silahlarla və qabaqcıl texnologiyalarla təchiz edilmiş, yüksək döyüş qabiliyyətinə malik peşəkar kadr korpusu formalaşdırılmışdır. Bu proses yalnız hərbi qüdrətin artımı ilə məhdudlaşmamış, eyni zamanda ordu ilə xalq arasında möhkəm mənəvi bağların yaranmasına, cəmiyyətin silahlı qüvvələrə olan inam və etimadının daha da güclənməsinə şərait yaratmışdır.

2020-ci ilin payızında bu siyasətin bəhrəsi özünün ən parlaq şəkildə təzahürünü tapdı. Vətən müharibəsi günlərində Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə misilsiz qəhrəmanlıq nümayiş etdirərək qısa müddət ərzində düşməni geri çəkilməyə məcbur etdi. Bu qələbə yalnız hərbi-siyasi tariximizdə yeni bir səhifə açmadı, eyni zamanda xalqımızın onilliklər boyu həsrətini çəkdiyi ədalətin bərpasını təmin etdi. Azərbaycanın əldə etdiyi Zəfər dünya miqyasında ədalətin, milli birliyin və sarsılmaz iradənin təntənəsi kimi dəyərləndirilir.

Eyni zamanda arxa cəbhədə xalqımızın nümayiş etdirdiyi həmrəylik Vətən müharibəsinin nəticəsini müəyyən edən həlledici amillərdən biri oldu. 44 gün davam edən Zəfər savaşında bütün ölkə bir yumruq kimi səfərbər idi. Könüllülərin göstərdiyi yardım, həkimlərin və müəllimlərin fədakarlığı, ictimai təşkilatların dəstəyi, gənclərin ön və arxa cəbhədə nümayiş etdirdiyi vətənpərvərlik nümunələri ordumuza güc və ruh yüksəkliyi verdi. Azərbaycan xalqı sözün əsl mənasında dövlət-xalq-ordu birliyini nümayiş etdirərək tarixi qələbəyə gedən yolu möhkəmləndirdi.

2020-ci il Zəfəri illərlə davam edən ədalətsizliyə son qoydu, beynəlxalq hüququn bərpasını təmin etdi və Azərbaycanı qalib dövlət, qalib xalq statusuna yüksəltdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Azad olunmuş ərazilərdə yeni şəhərlər, kəndlər, yollar, hava limanları, elektrik stansiyaları və sosial infrastruktur obyektləri inşa edilir. Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar. Bu proses xalqımızın gələcəyə inamını möhkəmləndirir, milli birliyi daha da gücləndirir. Prezident İlham Əliyevin dediyi kimi: *"Biz bu Qələbə ilə tarixi ədaləti bərpa etdik, torpaqlarımızı işğaldan azad etdik və güclü dövlət olduğumuzu bütün dünyaya göstərdik"*. Bu sözlər yalnız bir siyasi mesaj deyil, həm də Azərbaycan xalqının gələcək inkişaf yolunun əsas göstəricisidir.

Biz müzəffər ordumuzun qazandığı qələbini qürurla xatırlayır, şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik. Onların canı və qanı bahasına əldə edilən bu Zəfər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün təmin olunması ilə yanaşı, həm də milli kimliyimizin, birliyimizin və dövlətçiliyimizin rəmzinə çevrilmişdir. Qazilərimizin göstərdiyi fədakarlıq və igidlik isə xalqımızın yaddaşında əbədi iz buraxmış, onların nümunəsi gənc nəsil üçün vətənpərvərlik məktəbinə çevrilmişdir.

Azərbaycan bundan sonra da qalib ölkə, güclü dövlət və müzəffər xalq kimi öz inkişaf yolunu qətiyyətlə davam etdirəcəkdir. Bu yol milli iradəyə, dövlət-xalq birliyinə və Prezident İlham Əliyevin uzaqgörən siyasətinə əsaslanır. Əminliklə demək olar ki, əldə edilən bu Zəfər gələcəkdə regionda sülhün, sabitliyin və inkişafın təminatçısı olacaq, Azərbaycan isə beynəlxalq aləmdə haqqın və ədalətin simvolu kimi daha da güclənəcəkdir.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

# Minnətdarlıq və qürur günü

**27 sentyabr Azərbaycan xalqının tarixində təkcə kədər və hüzn günü deyil, həm də qürur və minnətdarlıq günü kimi əbədi yaddaşlara həkk olunub. Bu tarix Vətən uğrunda canından keçən minlərlə qəhrəman övladımızın müqəddəs xatirəsinə ehtiramın, onların qanı bahasına qazanılan möhtəşəm zəfərin rəmzidir. Cənab Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, şəhidlərimizin qanı yerdə qalmadı, onların qisasını döyüş meydanında aldıq, onların ruhu qarşısında hörmət və ehtiramla baş əyməklə yanaşı, qazandıqları Qələbəni dövlətimizin əbədi qürur simvoluna çevirdik.**

Azərbaycan heç vaxt müharibə istəməyib, əksinə, hər zaman beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirib, münaqişənin sülh yolu ilə həllinə çalışıb. Lakin Ermənistanın yüz minlərlə azərbaycanlını deportasiya etməsi, "dənizdən-dənizə Ermənistan" kimi sərsəm ideyanı reallaşdırmaq cəhdləri və Azərbaycana qarşı yeritdiyi işğalçılıq siyasəti müharibəni qaçılmaz etdi. Bu prosesin ən faciəli məqamı 1992-ci ildə baş verən Xocalı soyqırımı oldu. Qadın, qoca, uşağa belə fərq qoyulmadan Xocalıda 613 nəfərin amansızlıqla qətlə yetirilməsi erməni faşizminin əsl simasını bütün dünyaya göstərdi.

Azərbaycan xalqının səbrini tükəndirən amillər yalnız tarixi haqsızlıqlar deyildi. Otuz ilə yaxın bir dövrdə beynəlxalq təşkilatların "ikili standartlar" siyasəti də münaqişənin dərinləşməsinə xidmət etdi. ATƏT-in Minsk qrupu 28 il ərzində problemin həllinə yox, onun dondurulmasına çalışdı, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri isə icrasız qaldı. Ermənistan işğalı davam etdirərək Azərbaycan torpaqlarının 20 faizini zəbt etdi, təmas xətti boyunca mütəmadi təxribatlar törətdi, dinc sakinlərimizi hədəfə aldı. 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin Tovuz hadisələri göstərdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Ermənistan isə bu siqnallardan nəticə çıxarmadı və 2020-ci ilin 27 sentyabrında növbəti təxribatla atəşkəsi pozaraq müharibənin başlanmasına səbəb oldu.

Məhz bu anda Azərbaycan xalqı və dövləti öz birliyini, iradəsini nümayiş etdirdi. Möhtərəm cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə başlayan əks-hücum əməliyyatı nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində möhtəşəm qələbə qazandı. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa şəhərləri və 300-ə yaxın kəndimizin işğaldan azad edilməsi hərb tariximizə qızıl hərflərlə yazıldı. Bu uğurlar təkcə hərbi qələbə deyildi, həm də xalqımızın bir yumruq kimi birləşərək öz tarixi ədalətini bərpa etməsinin təntənəsi idi. Daha sonra Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə Azərbaycana qaytarılması isə hərbi zəfərin diplomatik müstəvidə davamı oldu.

Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz xalqımızın əbədi qürur mənbəyidir. Onların şücaəti artıq dastana çevrilib. Müharibə dövründə "öldü var, döndü yoxdur" şüarı ilə yaşayan xalqımız ordunun arxasında möhkəm dayanaraq ona əlavə güc verdi. Dövlət də hər zaman öz əsgər və zabitlərinin, şəhid ailələrinin və qazilərin yanında oldu. Bu prosesdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri xüsusilə qeyd olunmalıdır. Onun təşəbbüsü və diqqəti nəticəsində müharibədən sonra qazilərimizə və şəhid ailələrinə mənəvi dayaq göstərildi, onların problemlərinin həlli daim diqqət mərkəzində saxlanıldı. Mehriban xanım Əliyevanın humanizmə və xeyirxahlığa söykənən fəaliyyəti bu gün minlərlə ailənin qəlbində böyük minnətdarlıqla anılır.

Qazilərimizin sağlamlığının bərpası üçün ən müasir protezlər sifariş edildi, "YAŞAT" Fondu yaradıldı və minlərlə şəhid ailəsi və on minlərlə müharibə iştirakçısı dövlətin sosial dəstəyi ilə əhatə olundu. Mehriban xanım Əliyevanın dəstəyi ilə humanitar sahədə beynəlxalq əməkdaşlıq genişləndirildi, ən ağır yaralıların müalicəsi üçün ölkə daxilində və xaricdə xüsusi proqramlar həyata keçirildi.

Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Hər il 27 sentyabr tarixinin şəhidlərin Anım Günü kimi qeyd olunması şəhidlərimizə, onların müqəddəs ruhlarına olan hörmət və ehtiramın ifadəsi, minnətdarlıq və qürur günüdür. Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər - yeni medal və ordenlərin təsis edilməsi, Zəfər Parkı, Memorial Kompleks və Muzeyin yaradılması, şəhidlərin adlarının əbədiləşdirilməsi - bütün bunlar gələcək nəsillərə ötürüləcək bir milli yaddaş xəzinəsidir. Zəfər Parkının 44 metr hündürlüyündə tikilən tağı, 8 Noyabr Zəfər Gününü əks etdirən abidəsi xalqımızın həm birliyini, həm də qəhrəmanlığını rəmzləşdirir.

Bu gün Azərbaycan artıq qalib dövlətdir, xalqımız qalib xalqdır. Qazandığımız misilsiz qələbə milli iradəmizin, milli ruhumuzun və ləyaqətimizin təntənəsidir. Şəhidlərimizin canı bahasına azad etdiyimiz torpaqlarda indi geniş quruculuq işləri gedir, Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Dövlət başçısının birbaşa rəhbərliyi ilə azad edilən bölgələrdə hazırda genişmiqyaslı bərpa, quruculuq və abadlıq işləri aparılır. Bu, şəhidlərin əmanətinə sadiqliyin və gələcəyə inamla addımlamanın ən böyük göstəricisidir.

27 Sentyabr Anım Günü xalqımızın tarixində əbədi yaşayacaq. Bu gün biz bir daha təsdiqləyirik ki, Azərbaycan heç vaxt işğalla barışmadı, haqq yolunda mübarizəsini sona qədər apardı və qalib gəldi. Şəhidlərimizin müqəddəs ruhları qarşısında borcumuz ondan ibarətdir ki, onların canı bahasına azad edilən torpaqlarda həyat bərpa edilsin, o torpaqlarda Azərbaycan bayrağı əbədi dalğalansın və gələcək nəsillər bu qəhrəmanlıq dastanını daim qürurla xatırlasın. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi yolunda canını fəda edən bütün şəhidlərimizə Allah rəhmət eləsin!

***Vasif QAFAROV,***
***Milli Məclisin deputatı***

# 27 sentyabr 2020-ci il saat 06:00...

## Savaş gündəliyi

**2020-ci il sentyabrın 26-dan 27-nə keçən gecə Ermənistan hərbi birləşmələri növbəti dəfə genişmiqyaslı hərbi əməliyyata başlayır...**

**Hər zaman olduğu kimi, ordumuz düşmənə cavab verir.**

**Amma bu dəfə Azərbaycan Silahlı Qüvvələrinə verilən əmr hərbi mundir geyinmiş bütün hərbçilərimizin böyük sevincinə səbəb olur.**

**Çünki Azərbaycanın igid oğulları düşmənə layiqli cavab verib 30 illik həsrətə son qoymaq üçün məhz bu əmri gözləyiblər.**

**Budur, illərlə gözlənilən hərbi komanda verilir - İRƏLİ!..**

**Savaş tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi başlayır...**

*Saat 07:30*
*Müdafiə Nazirliyinin məlumatı*

### Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu genişmiqyaslı təxribat törədib

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.



Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilib.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görüb.

*Saat 08:35*
*Müdafiə Nazirliyinin məlumatı*

### Düşmənin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.



Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

*Saat 09:10*
*Müdafiə Nazirliyinin məlumatı*

### Bütün cəbhəboyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

*Saat 10:28*
*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatı*

### Ölkə üzrə internetin verilməsi məhdudlaşdırılır

Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını almaq üçün ölkə üzrə internetin verilməsi məhdudlaşdırılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, nazirlik ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcək: "Azərbaycan vətəndaşlarının münaqişə vəziyyətində internetlə bağlı yarana biləcək məhdudiyyətlər səbəbindən anlayış göstərəcəklərinə ümid edirik".

*Saat 10:53*

### Müdafiə Nazirliyi təkzib edir

Ermənistan tərəfinin guya Azərbaycan Ordusuna məxsus 3 tank, 2 helikopter və 3 pilotsuz uçuş aparatının (PUA) vurulması barədə yaydığı məlumat yalandır və dezinformasiyadır.

Bildiririk ki, cəbhədə bölmələrimiz düşmən üzərində tam üstünlüyə malikdir.

*Saat 11:08*
*Müdafiə Nazirliyinin məlumatı*

### Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.



Rəsmi surətdə bəyan edirik ki, Azərbaycan Ordusu mülki əhalini, mülki obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır. Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq, hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.



Ermənistan ordusu özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirir.

Azərbaycan Ordusu işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırır.

*Saat 11:50*
*Prezident xalqa müraciət edir*

### İlham ƏLİYEV: "Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir"

Prezident İlham Əliyev xalqa müraciət edərək deyir ki, bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Ali Baş Komandan vurğulayır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alırdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olub. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olublar. Amma Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr belə irəliyə gedə bilmədi.

Bu tədbirlərlə düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı: "Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü?

Prezident bu məsələyə aydınlıq gətirərək deyir ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Prezident deyir ki, Ermənistanın iyul və avqust aylarındakı təxribatlarına verilən layiqli cavab onlara dərs olmayıb. Ona görə yenə də çirkin əməllərini həyata keçirirlər.

Dövlət başçısı bildirir ki, əgər Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyirsə, onda hansısa danışıqlardan söhbət gedə bilməz. Bu azmış kimi, Ermənistan rəhbərliyi iddia edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir.

İlham Əliyev qətiyyətli şəkildə bəyan edir ki, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu o deməkdir ki, işğala son qoyulmalıdır:

"Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər".

Ali Baş Komandan Ermənistanın son təxribatlarını, müharibə hazırlıqlarını təsdiq edən faktları da misal göstərir. Bunlar qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərarın qəbul edilməsi, Ermənistanın baş nazirinin on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacağı ilə bağlı bəyanatıdır. Bütün bunlar Azərbaycana qarşı törədilən təxribatın hazırlıq mərhələsi idi.

İlham Əliyev bu barədə hətta BMT kürsüsündən də dünyaya səslənərək Ermənistanın yeni müharibəyə hazırlaşdığını, bu ölkənin təxribatlarının dayandırılmasının vacibliyini bildirdiyini deyir.



Azərbaycan Prezidenti Ermənistanın işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasətinə də aydınlıq gətirir: "Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığını vurğulayan dövlət başçısı deyir ki, bu ölkədə demoqrafik böhran yaşanır və onlarda işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmələri üçün insan resursları yoxdur. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir, tarixi abidələrimiz, məscidlərimiz dağıdılır, təhqir edilir. Məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Prezident deyir ki, Azərbaycan heç bir təxribata əl atmayıb, sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Dövlət başçısı bu qətnamələrin 30 ilə yaxın müddətdə kağız üzərində qaldığını söyləyərək deyir ki, bu müddətdə Minsk qrupu çərçivəsində danışıqlar aparılsa da, Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa, bütün digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir:

"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

*Saat 12:11*
*Müdafiə Nazirliyinin məlumatı*

### Əks-həmlə əməliyyatı uğurla davam edir

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhəboyu şiddətli döyüşlər gedir.

*Saat 13:42*
*Xarici jurnalistlərə qarşı təxribat*

### Ermənistan silahlı qüvvələri türkiyəli jurnalistləri hədəfə alır

Erməni hərbi bölmələri "TRT Haber" telekanalı və "Anadolu" Agentliyinin əməkdaşlarının olduğu nöqtəyə minaatandan 3 atəş açırlar.

Bu barədə məlumatı "Anadolu" Agentliyi və TRT yayır.

Bildirilir ki, mərmilər jurnalistlərdən 100 metr aralı düşüb. Xoşbəxtlikdən hadisə nəticəsində jurnalistlər xəsarət almırlar.

*Saat 13:46*
*Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı*

### Tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayır. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq siyasətini, təxribatçı əməllərini kəskin şəkildə qınamalıdır.

Eyni zamanda Ermənistan beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur edilməlidir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

*Saat 14:00*
*Müdafiə Nazirliyinin məlumatı*

### Ordumuz bir sıra kəndlərimizi və vacib yüksəklikləri azad edib

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.



Məlumata görə, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

Döyüş əməliyyatları davam edir.



# ZƏFƏRƏ belə başladıq

*Saat 14:16*
*Prezidentin Mətbuat Xidmətinin məlumatı*

### Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə tam dəstək



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

*Saat 15:05*
*Müdafiə Nazirliyinin məlumatı*

### Düşmənin döyüş texnikaları məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikaları məhv edilib.



*Saat 15:57*
*Prezidentin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir*

### İlham ƏLİYEV: "Uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaq"

Günün ikinci yarısında Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

İclasda çıxış edən Ali Baş Komandan deyir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Amma Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib:

"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır!"



Prezident deyir ki, Azərbaycan Ermənistana 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verib. Amma görünür ki, bu, onlar üçün dərs olmayıb: "Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".

Ali Baş Komandan bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyinin olduğunu, eyni zamanda ordumuza könüllü yazılanların sayının on minlərlə insanı əhatə etdiyini söyləyərək bunu xalqımızın öz dövlətinə sadiqliyinin göstəricisi adlandırır: "Əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana məruzə edərək deyir ki, əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, yeddi kənd işğaldan azad olunub. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir.

Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Düşmən tam şəkildə geri çəkilir.

İclasa yekun vuran Ali Baş Komandan əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir: "Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

### Fransa Prezidenti Emmanuel Makron İlham Əliyevə zəng edir

Prezident Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Dövlətimizin başçısı qeyd edir ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlət başçısı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Azərbaycan Prezidenti bildirir ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.



*Saat 16:29*
*Müdafiə Nazirliyinin məlumatı*

### Ermənistan hərbi birləşməsinin komandanlığına təslim olmaq təklif edilib

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaşayış məntəqəsində yerləşən qarnizonunun tam məhv edilməməsi və döyüş itkilərinin sayının artmaması məqsədilə Azərbaycanın hərbi komandanlığı tərəfindən bu istiqamətdə yerləşən erməni komandanlığına müqavimət göstərməmək, silahı yerə qoyaraq təslim olmaq barədə təklif edilib.

Azərbaycan Ordusunun komandanlığı onu da bildirir ki, hərbi əsirlər və mülki şəxslərlə davranış Cenevrə Konvensiyasının tələbləri və beynəlxalq humanitar hüquqa əsasən həyata keçiriləcək.

Müqavimət göstəriləcəyi təqdirdə hər bir silahlı şəxs tərəfimizdən zərərsizləşdiriləcək.

*Saat 18:18*
*Müdafiə Nazirliyinin məlumatı*

### Düşmən zirehli texnikasını döyüş meydanında ataraq qaçır

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb.



Nazirlik Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntülərini yayır.

*Saat 18:28*
*Müdafiə Nazirliyinin məlumatı*

### Murovdağ silsiləsindəki əhəmiyyətli yüksəklik azad olunub

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi azad olunub.




Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.



Döyüş əməliyyatları davam edir.

*Saat 18:45*
*Türkiyə Prezidenti sosial şəbəkədə paylaşım edir*

### Rəcəb Tayyib Ərdoğandan Azərbaycana növbəti dəstək

"Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi: "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq".

*Saat 19:05*
*Azərbaycan Respublikası Prezidentinin fərmanı*

### Ölkə ərazisində hərbi vəziyyət elan edilir

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, ölkəmizə qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan edilməsi ilə bağlı fərman imzalayır.

Sənəddə bildirilir ki, hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Şəhər və rayonlara xüsusi giriş-çıxış rejimi tətbiq edilir, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür.

*Saat 19:59*
*Milli Məclisin iclası keçirilir*

### Parlament Azərbaycanda hərbi vəziyyətə keçidi təsdiq edir




Milli Məclisin iclası keçirilir. Parlamentin Sədri Sahibə Qafarova bildirir ki, Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzalayıb və həmin sənədi təsdiq edilməsi üçün Milli Məclisə təqdim edib. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında" fərman Milli Məclisə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, parlamentin iclası keçirilir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.

Müzakirələrdən sonra Milli Məclisin qərarı qəbul edilir. Qərara əsasən, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli fərmanı təsdiq edilir.

*Saat 20:08*
*Baş Prokurorluğun məlumatı*

### Ermənistanın atdığı mərmi nəticəsində Naftalanda bir ailənin 5 üzvü həlak olub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan rayonunda bir ailənin 5 üzvü həlak olur. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində rayonun Qaşaltı kəndinin sakini, 1951-ci il təvəllüdlü Elbrus Qurbanov və onun 4 ailə üzvü, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova həlak olublar.

Bundan başqa, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam edib. Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.



Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə tərəfimizdən xüsusi beynəlxalq tribunalın yaradılması üçün bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediləcək.

*Saat 20:15*
*Müdafiə Nazirliyinin məlumatı*

### Düşmənin 22 tankı, 15 zenit-raket kompleksi, silah anbarı məhv edilir

Qoşunlarımızın keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilir.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar nazirliyin yaydığı videoda aydın müşahidə olunur.

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalır. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.



Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***







# Qələbəyə yol açan tarixi gün

**27 sentyabrı xalqımız daim anacaq, xatırlayacaq və bu gün heç zaman unudulmayacaq. Çünki qələbəmizə gedən yol, düşmənin başının əzildiyi, erməni faşistlərinin ayaqlarının Qarabağ torpaqlarından kəsildiyi anlar bu gündən başlayır.**

Bu gün xalqımızın qələbə tarixinin başlanğıcı, ilk uğurudur. Həmin gün Azərbaycan Prezidentinin, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri verdiyi, ordunu və xalqı torpaqlarımızı azğın erməni faşistlərindən azad etmək üçün səfərbər etdiyi, düşmənə ilk ağır zərbələr vurulduğu gündür.

İlk anlardan düşmən sarsıldı. Ordumuzun zərbələrinə tab gətirə bilmədi, igid oğullarımızın şücaəti qarşısında aciz qaldı və böyük itkilər verdi. Qələbəyə gedən yolun başlanğıcı uğurlu olduğu üçün sonrakı günlərdə qəhrəman əsgər və zabitlərimiz sinələrini alınmaz sipərə çevirdilər, torpağımızın hər qarışı uğrunda cəsarətlə döyüşdülər, əsl qəhrəmanlıq göstərdilər.

44 günün hər bir anı, hər saatı qəhrəmanlıq nümunəsidir və torpaq uğrunda şəhid olanların iradəsi, mətanəti ölçüyəsığmazdır. Azərbaycan Prezidenti bu qəhrəmanlığa böyük dəyər verdi və bildirdi: "Anım günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibəsinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Biz onların qanını aldıq. Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib".

Ölkə rəhbərinin ifadələrində şəhidlərimizə, qazilərimizə, müharibədə hünər göstərən hər bir insana sonsuz ehtiram və məhəbbət olmaqla bərabər, həm də müharibəyə, itkiyə səbəb olanlara kəskin nifrət var idi. Çünki "biz müharibə istəmirik, sülh istəyirik" şüarı həm rəhbərimizin, həm xalqımızın həyat amalıdır. Ancaq düşmən uzun illər bu çağırışı eşitmədi, torpaqlarımızı işğal altında saxladı, şəhər və kəndlərimizi, mədəni-dini, tarixi abidələrimizi məhv etdi, meşələrimizi qırdı, çaylarımızı, göllərimizi zəhərlədi, torpaqlarımızı minaladı, dinc sakinlərimizi qətlə yetirdi. Haqqımız tapdalandı, səsimiz batırıldı.

Belə bir zamanda beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupu, hətta BMT belə susdu, səsimizə səs verən olmadı. Faşist Ermənistanı müdafiə edənlərin sayı artdı. 907-ci maddə əleyhimizə işlədi, Avropa İttifaqı, AŞPA Ermənistana dəstək verdi, ölkəmiz haqqında saxta qətnamələr qəbul edildi, bəyanatlar verildi, qərarlar qəbul edildi.

Prezidentimiz ən mötəbər tribunalardan Ermənistanın təcavüzkar əməllərini, xalqımızın başına gətirilən bəlaları, faciələri, soyqırımları əyani faktlarla açıb söyləsə də, haqqımıza, ədalətli mövqeyimizə biganəlik göstərildi, dövlətimizin çağırışları cavabsız qaldı. Ermənistan rəhbərləri, beynəlxalq təşkilatlar sülhə, ədalətə dəstək vermədilər. Erməni faşistlərinin daha geniş əraziləri zəbt etməsi üçün bəyanatlar səsləndirdilər. Bundan həvəslənən erməni vandalları vaxtaşırı atəşkəsi pozdular, sərhəd rayonlarında dinc sakinləri güllələdilər. Başqa çıxış yolu qalmırdı. Qələbə, sülh yolu səngərdən, döyüşlərdən keçirdi. Odur ki, hərbə üstünlük verildi. Döyüş əmrinin verilməsi qaçılmaz idi, çünki düşmən harınlamışdı, qudurmuşdu, Azərbaycanı zəif, ordunu gücsüz, xalqı aciz hesab edirdi. Əslində, belə deyildi.

Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz son illər güclənmiş, müasir silahlar alınmış, vətənpərvər əsgər və zabit heyəti yetişdirilmiş, hərbi kadrlar təkmilləşdirilmişdi. Xalq döyüşə səfərbər idi. İqtisadi inkişaf, beynəlxalq aləmdə qazanılan nüfuz, dost dövlətlərin mənəvi dəstəyi Azərbaycana döyüşdə qələbə qazanmağa imkan versə də, dövlətimiz, rəhbərimiz yenə də müharibənin tərəfdarı deyildi və çox təəssüflər olsun ki, o vaxt Ermənistan rəhbərliyi bunu dərk etmədi. Haqlı olaraq Azərbaycan xalqının qəzəbinə tuş gəldi və təcavüzkarlar məhv edildilər. "Dənizdən-dənizə Ermənistan" ideyası sona yetdi.

"Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir" ifadəsi xalqımızın dilinin əzbəridir. Suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canını qurban verən, fiziki sağlamlığını itirən, döyüşlərdə hünərlə vuruşub qələbəmizə yol açan hər bir insanın amalı, əməli dövlətimiz, vətəndaşlarımız üçün doğma və əzizdir. Bu hisslər qürurvericidir və rəhbərimizin bildirdiyi kimi: "Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik".

Dövlət rəhbəri söylədiyi hər sözün sahibidir. O, "müharibədə qalib gələcəyik, qələbə bizimlədir" anonsunu vermişdi və dediyini etdi. "Ermənistan, beynəlxalq aləm, böyük dövlətlər haqlı mübarizəmizə dəstək verəcəklər, istədiklərimizi alacağıq" söyləmişdi, bu da oldu.

Vaşinqton razılaşmaları, Azərbaycan, Amerika və Ermənistanın dövlət rəhbərlərinin görüşləri və qəbul olunmuş üçtərəfli Bəyannamə bu həqiqəti sübut etdi. Azərbaycan bu görüşdə bir daha qələbə qazandı. Minsk qrupunun ləğvinə, 907-ci düzəlişin dondurulmasına nail oldu, sülh müqaviləsinin bağlanmasını zərurətə çevirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev sülhə, təhlükəsizliyə, əmin-amanlığa, insan azadlığına, haqqın-ədalətin bərqərar olunmasına sadiqdir və bəşəriyyətin gələcəyini, xoşbəxtliyini, dövlətlərin inkişafını bu nəcib amallarda görür. Dövlətimizin başçısı bütün beynəlxalq tədbirlərdə bu mövqedən çıxış edir, insanların səadəti, dövlətlərin müstəqilliyi və suverenliyi, xalqların birliyi, ölkələrin sağlam əməkdaşlığı, səmimi münasibətləri uğrunda səylərini əsirgəmir.

Prezidentimizin BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə işgüzar səfərə dəvət alması da onun sülhə yönəldilən fəaliyyətinə, xidmətlərinə verilən yüksək qiymətin nəticəsidir.

Ölkəmizin rəhbəri sülh carçısı olmaqla bərabər, həm yaradıcıdır, həm qurucudur, torpağının, suyunun, təbiətinin qədrini biləndir. Azad edilmiş torpaqların qurulması, yenidən bərpası, abadlaşdırma tədbirləri, sakinlərin öz doğma yurd-yuvalarına qayıdışı sözlə əməlin vahidliyinin ifadəsi olmaqla həm də torpağa bağlılığın, insana qayğı və məhəbbətin nümunəsidir.

Prezident İlham Əliyev tez-tez işğaldan azad edilmiş ərazilərə səfərlər edir, işlərin gedişi ilə tanış olur, təməlqoyma, açılış mərasimlərini keçirir, insanlarla görüşür, yeni tapşırıqlarını verir və hər dəfə də Qarabağ və Şərqi Zəngəzur torpaqlarının gülüstana çevrildiyini gördükcə qürurlanır, sevinir, ordusu, xalqı ilə fəxr etdiyini bildirir. Çünki həmin torpaqlarda görülən işlər möhtəşəmdir. Çəkilən yollar, tikilən binalar, salınan tunellər, körpülər, yaradılan şərait, insanların fəallığı ürək açır, ruh verir, gələcəyə daha böyük inam yaradır.

Əlbəttə, bu qürur, bu sevinc 27 sentyabrın təntənəsidir, o günün töhfəsidir. Qələbəmizin təməli olan həmin gün xalqımız üçün unudulmazdır və hər zaman şərəflə, qürurla anılacaqdır.

*Tahir RZAYEV,*
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri*

# Vətən müharibəsi Azərbaycanın qüdrətini dünyaya göstərdi

**27 sentyabr rəşadətli və müzəffər ordumuzun yenilməz sərkərdəsi, Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamı ilə beşinci ildir ki, Anım Günü kimi qeyd olunur. Bu sərəncam Azərbaycan Prezidentinin torpaqlarımızın azadlığı uğrunda böyük şücaət göstərmiş, bayrağımızı işğaldan azad edilmiş torpaqlarda dalğalandırmış və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizə, əsgər və zabitlərimizə dərin ehtiram əlaməti olaraq imzalanıb. Bu, şəhidlərin ruhlarına və onların ailələrinə, bütövlükdə isə Azərbaycan xalqına ən ali ehtiramın göstəricisidir. Xalqımız bundan sonra da hər zaman Anım Gününü böyük ehtiramla yad edəcək, şəhidlərinin ruhu qarşısında baş əyəcək.**

44 günlük Vətən müharibəsi son 200 il ərzində mərhələlərlə azərbaycanlılara, xalqımıza qarşı yönəlmiş işğalçılıq siyasətinə, Avrasiya məkanında ən uzunmüddətli olan Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Bununla da ordumuz XXI əsrin müasir müharibəsinin aparılması taktika və strategiyasını da yaratdı. Hazırda dünyanın ən inkişaf etmiş ölkələri bunu hərbi dərsliklərə salaraq öyrənirlər. Azərbaycan əsgəri isə XXI əsrin bir etalon əsgəri nümunəsini göstərdi.

Eyni zamanda Vətən müharibəsində əldə olunan qələbə ilə erməni təbliğat maşınının 200 il ərzində yaratdığı miflər, "böyük Ermənistan" xülyası, "ermənilərin döyüşkən xalq olduğu" haqqında uydurmaları da param-parça oldu.

Xalqımıza qarşı iki əsr ərzində aparılan bu düşmənçilik siyasətinin tarixi əzəli Azərbaycan torpağı olan Qarabağa ermənilərin çar Rusiyası zamanı köçürüldüyü dövrdən başlayıb. Məlumdur ki, ermənilərin çar Rusiyası tərəfindən XIX əsrin əvvəllərindən etibarən Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən, İrandan və Türkiyədən tarixi torpaqlarımıza, İrəvan xanlığının ərazisinə köçürülməsi ilə bölgənin etnik-dini tərkibini dəyişdi və xalqımızın gələcək faciələrinin əsasını qoydu. Çox keçmədən ermənilər tərəfindən aborigen xalqa qarşı soyqırımı və deportasiya başlandı. Belə ki, son 200 il ərzində ermənilər dinc azərbaycanlılara qarşı dəfələrlə qətliamlar törədiblər, tarixi ərazilərimizi zəbt ediblər, məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlayıb, münbit əraziləri ələ keçirməyə çalışıb, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırıblar.

Çar I Nikolayın 1828-ci il martın 21-də, yəni xalqımızın əziz bayramlarından olan Novruz bayramı günündə imzaladığı fərmanla İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış erməni vilayətinə daxil edilən 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı. 62 kəndin isə 14-nün adı erməni mənşəli idi. Çar Rusiyasının məmuru N.Şavrov 1911-ci ildə açıq etiraf edirdi ki, "hazırda Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyonundan çoxu yerli əhali deyil. Onlar bu torpaqlara bizim tərəfimizdən köçürülüb".

Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. 1918-1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə qaldı. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalıb, yaşadıqları yerlərdən qovulublar. İnsanlara kütləvi şəkildə işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edilmişdir.

1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması xatirinə qədim Azərbaycan şəhəri İrəvanı ətrafındakı ərazilərlə birlikdə ermənilərə güzəştə getdi. Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq Azərbaycan torpaqları hesabına erməni dövləti yaradıldı. Bu vaxtdan etibarən Rusiyanın hərtərəfli köməyi ilə ermənilər tərəfindən Qərbi Azərbaycan torpaqlarının azərbaycanlılardan təmizlənməsi prosesi daha da sürətləndi, ermənilər köç saldığı ərazilər Azərbaycan torpaqları hesabına şərqə doğru daha da genişləndirildi.

Sovet hakimiyyəti illərində də işğal siyasəti davam etdirilib. 1918-1920-ci illərdə 114 min kvadratkilometr ərazisi olan Azərbaycan sovet dövründə 86 min kvadratkilometrədək kiçildildi.

1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdi. 1988-ci ildə isə Dağlıq Qarabağ münaqişəsinin başlaması ilə daha 250 min azərbaycanlı öz doğma yurdundan qovuldu. Bununla da Ermənistan monoetnik dövlətə çevrildi. 1988-ci ildə başlayan Qarabağ hadisələri xarici havadarları tərəfindən silahlandırılan erməni ideoloqlarının "dənizdən-dənizə Ermənistan" adlı ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü (Başlıbel, Ağdaban, Baqanis-Ayrım kəndlərində törədilmiş vəhşiliklər və Xocalı qətliamı), yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi və Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə nəticələndi.

Otuz il ərzində Ermənistan soydaşlarımızı doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurmuş, işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salmış, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv etmiş, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan vurmuşdur. İşğal zamanı mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələri də məhv edilmişdir. 30 il ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə təxribatlar törətmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açmış, onların rahat yaşamasına imkan verməmişdir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün 1992-ci il 24 mart tarixində təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış, bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilmiş və beynəlxalq qətnamələr kağız üzərində qalmışdır. Azərbaycan isə daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Digər bir mötəbər beynəlxalq təşkilat BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

2016-cı il Aprel döyüşləri və 2020-ci ilin iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri xalqımıza qarşı aşağılayıcı və təxribatçı bəyanatlar vermişlər.

2020-ci il sentyabrın 27-də atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhəboyu Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladı. Nəticədə hərbi qulluqçular ilə yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olmuşdur. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhəboyu əks-hücuma keçmək əmri vermişdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ədalət bərpa olunmuşdu. 27 sentyabrdan başlanan və 44 gün davam edən Vətən müharibəsində şanlı Zəfər qazanılmışdı. Bununla da Azərbaycan son iki yüzillik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Qələbəmizin əldə olunmasında mühüm amillərdən biri də tarixi şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi oldu. Şuşanın azad edilməsindən bir gün sonra - Dövlət Bayrağı Günündə daha 72 yaşayış məntəqəsinin, ümumilikdə isə 300-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi Nikol Paşinyanı noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamağa məcbur etdi. Bu sənəd Ermənistanın hərbi kapitulyasiyasını təsdiqlədi. Noyabrın 10-da imzalanmış bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu. Üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərdi. Düşmən torpaqlarımızdan qovuldu, tarixi ədalət və beynəlxalq hüquq bərpa olundu.

Bu gün Azərbaycan xalqı bütün sahələrdə yeni inkişaf tarixinə qədəm qoyub. Dövlət suverenliyimiz tam, ərazilərimiz bütöv, sərhədlərimiz isə toxunulmazdır. Mövcud daxili sabitliyin möhkəmlənməsinə və iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verəcək tam suverenlik şəraitində bu pozitiv dinamikanı qoruyub saxlamaq, uğur və nailiyyətləri artırmaq xalqımızın və dövlətimizin qarşısında duran prioritet vəzifədir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib, ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş, regional və qlobal tərəfdaşlıqda özünün stabil mövqeyi ilə seçilən Azərbaycan bundan sonra daha böyük hədəflərə uğurla çatacaq.

*Sevinc HÜSEYNOVA,*
*Milli Məclisin deputatı*

# Kritik informasiya infrastrukturunun təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsinin ilkin mərhələsi başa çatıb

**Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyi, həmçinin kibertəhdidlərə qarşı mübarizə sahəsində səlahiyyətli qurum olan Dövlət Təhlükəsizliyi Xidmətindən əldə edilmiş məlumata əsasən, müvafiq sahədə normativ hüquqi aktlarla təsbit edilmiş tələblərə riayət edilməsi vəziyyətinin yoxlanılması istiqamətində həyata keçirilmiş tədbirlər, qarşıya çıxan çətinliklər, eləcə də onların aradan qaldırılmasına dair məsələlər aidiyyəti komissiyanın iclasında müzakirə edilib.**

Məlumatda komissiyanın Dövlət Təhlükəsizliyi Xidməti və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən olan üzvlərinin iclasda tam tərkibdə iştirak etdiyi də bildirilib.

Qeyd edilib ki, iclas zamanı kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlı həyata keçirilmiş ilkin qiymətləndirmələrin nəticələri kollegial formada müzakirəyə çıxarılıb. Bəzi kritik informasiya infrastrukturlarında aşkar edilmiş bir sıra nöqsanların aradan qaldırılması da təmin edilib. Müzakirələr nəticəsində ölkənin kritik informasiya infrastrukturunun müasir kibertəhdidlərə qarşı dayanıqlığının gücləndirilməsi istiqamətində yeni hədəflər müəyyən edilib. Bununla yanaşı, səlahiyyətli qurum tərəfindən təsdiq olunmuş plan əsasında kritik informasiya infrastrukturu subyektlərində ümumi və xüsusi təhlükəsizlik tələblərinə riayət olunmasına dair komissiya tərəfindən həyata keçiriləcək yoxlamalarla bağlı məsələlərə baxılıb.

İclasın gündəliyində nəzərdə tutulmuş cari mövzularla yanaşı, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin olunması ilə əlaqədar bir sıra digər məsələlərin də müzakirəsi aparılıb. Beynəlxalq təcrübəyə (NIS-2, CSF 2.0) uyğun olaraq, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi tələblərin təkmilləşdirilməsi, habelə risklər və müasir kibertəhdid modelləri nəzərə alınmaqla, kritik informasiya infrastrukturu obyektlərinin siyahısının daim yenilənməsi milli maraqların təmin olunması baxımından vacib hesab edilib. Göstərilənlər nəzərə alınaraq, kritik informasiya infrastrukturu obyektlərinin siyahısında əlavə və dəyişikliklərin edilməsi ilə bağlı layihə təklifinin aidiyyəti üzrə təqdim edilməsi, habelə ölkədə xüsusi əhəmiyyətli sənaye idarəetmə sistemlərinin (SCADA) diqqətdə saxlanılması və siyahısının təkmilləşdirilməsinin zəruri olduğu bildirilib. Bununla yanaşı, kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə xüsusi tələblərə riayət olunmasına nəzarətin gücləndirilməsi də müzakirə edilib.

Müzakirələr zamanı kritik informasiya infrastrukturunda təhlükəsizlik risklərinin müntəzəm olaraq müəyyən edilməsi və qiymətləndirilməsi, həmçinin bu risklərin maliyyə yükünün hesablanaraq idarəetmədə nəzərə alınmasının ciddi aktuallıq kəsb etdiyi vurğulanıb. Habelə kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyi ilə əlaqədar kibertəhlükəsizlik xidməti provayderinə dair tələblərə uyğun olmayan hüquqi şəxslər tərəfindən göstərilən xidmətlərdən asılılığın aradan qaldırılmasının vacibliyi qeyd olunub.

Komissiyanın iclasında Milli kibermərkəzin aidiyyəti subyektlərlə kriptoqrafik mühafizə vasitəsindən istifadə etməklə məlumat mübadiləsi apardığı bildirilib və bu təcrübənin sahə üzrə standartlar nəzərə alınmaqla daha da təkmilləşdirilməsinin əhəmiyyəti qeyd edilib.

Məlumat üçün qeyd edək ki, sözügedən komissiya, kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair tələblərə riayət olunması vəziyyətinin yoxlanılmasının təşkili ilə yanaşı, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün kritik informasiya infrastrukturu subyektləri tərəfindən həyata keçirilən tədbirlərin qiymətləndirilməsi, görülmüş işlərin nəticələrinə dair dövri hesabat və məlumatların hazırlanması, habelə kritik informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyinin pozulmasına səbəb ola bilən ciddi nöqsanlar aşkar edildikdə və ya təhlükəsizlik üzrə kritik hal baş verdikdə, təxirəsalınmaz tədbirlərin görülməsi məqsədilə müvafiq qaydada məsələnin qaldırılmasına məsuldur.

*"Azərbaycan"*

# Baş prokuror Özbəkistanda səfərdə olub

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda rəsmi səfərdədir.**



Nümayəndə heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şərəfinə Özbəkistanın Daşkənd şəhərində salınmış meydanı ziyarət edib, orada dünyaşöhrətli siyasi xadimin abidəsinin önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad edib.

Daha sonra nümayəndə heyəti, ölkəmizin Özbəkistan Respublikasındakı səfirliyinə gələrək, səfirliyin əməkdaşları ilə görüşüb.

Səfər çərçivəsində baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının Daşkənddə keçirilən 6-cı iclasında iştirak edib.

Baş prokuror çıxışında ekologiya və ətraf mühitin qorunması sahəsində qanunun aliliyinin təmin olunmasında prokurorluq orqanlarının roluna toxunaraq, ekoloji cinayətlərin qlobal problemə çevrildiyini vurğulayıb. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər, xüsusilə də COP29-un Bakıda uğurla təşkil olunması və "Baku Call to Action" təşəbbüsünün qəbul edilməsinin regional və beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli hüquqi əsas yaratdığı diqqətə çatdırılıb.

Baş prokuror həmçinin bildirib ki, Azərbaycanın Baş Prokurorluğu dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində ekoloji qanunvericiliyin icrasına nəzarəti həyata keçirir, təbiətə vurulan ziyanın aradan qaldırılmasını təmin edir və bu sahədə beynəlxalq tərəfdaşlarla təcrübə mübadiləsinə xüsusi önəm verir.

Vurğulanıb ki, Xəzəryanı ölkələr kimi, Xəzər dənizinin ekologiyasına qarşı törədilən cinayətlərlə mübarizədə də birgə səylərin gücləndirilməsi vacibdir.

Tədbir çərçivəsində həmçinin "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 6-cı iclasının Daşkənd Bəyannaməsi" qəbul olunub.

Bəyannamədə üzv dövlətlərin prokurorluq orqanlarının cinayətkarlıqla, xüsusilə korrupsiya və ekoloji cinayətlərlə mübarizədə rolunun gücləndirilməsi, kiber və maliyyə cinayətlərinə qarşı regional əməkdaşlığın artırılması, həmçinin davamlı inkişaf və ətraf mühitin qorunması sahəsində birgə fəaliyyətin vacibliyi vurğulanıb.

Səfər zamanı baş prokuror tərəfindən xarici həmkarlarla ikitərəfli görüşlər də keçirilib.

Tacikistan Respublikasının baş prokuroru Həbibullo Vohidzoda ilə ikitərəfli görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlər, hüquq-mühafizə orqanlarının əməkdaşlığı, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər transsərhəd cinayətkarlıq və digər çağırışlarla mübarizədə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

İran İslam Respublikasının nümayəndə heyəti ilə keçirilmiş görüşdə hər iki ölkənin prokurorluq orqanları arasında mövcud əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması və hüquqi yardım mexanizmlərinin səmərəli tətbiqi məsələləri müzakirə olunub.

Tərəflər həmçinin regional sabitliyin möhkəmləndirilməsi, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər transmilli cinayətlərlə mübarizə sahəsində birgə addımların əhəmiyyətini xüsusi vurğulayıblar.

İkitərəfli görüşlərdə həmçinin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin səfəri başa çatıb.

# Ermənistan vətəndaşlarının məhkəməsində Aprel döyüşləri ilə bağlı sənədlər elan olunub

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 26-da davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasının əvvəlində sədrlik edən Z.Ağayev Azərbaycan və rus dillərində təqsirləndirilən şəxsin hüquq və vəzifələri haqqında bildirişin təqsirləndirilən şəxs David Babayana təqdim edilməsi üçün göstəriş verib və sənəd D.Babayana çatdırılıb (ötən prosesdə D.Babayan bu sənədin Azərbaycan və rus dillərində ona təqdim olunmasını xahiş etmişdi).

Daha sonra məhkəmə prosesi iş üzrə sənədlərin elan olunması ilə davam etdirilib.

Məhkəmədə Azərbaycan Respublikasının Milli Qəhrəmanı İbrahimov Mübariz Ağakərim oğlunun, habelə Abdullayev Əhməd Hüseynağa oğlunun ("İgidliyə görə" medalı ilə təltif edilib - red.) və Əhmədov Fərid Güloğlan oğlunun ("İgidliyə görə" medalı ilə təltif edilib - red.) və digər şəxslərin öldürülməsi faktları ilə bağlı sənədlər elan olunub.

Bundan başqa, Bayramov Pərviz Əlimahir oğlunun öldürülməsi, Rəşidov Səxavət Məmməd oğlunun, İbrahimov Aqil Vahid oğlunun, Məmmədov Tural Ağabala oğlunun, Əliyev Şamil Əlvan oğlunun, Əliyeva Ruqiyyə Rüstəm qızının xəsarət alması ilə bağlı sənədlər elan edilib.

Təqsirləndirilən şəxs Davit İşxanyan məhkəməyə müraciət edərək fasilə vaxtı öz vəkili ilə konfidensial qaydada görüşə icazə verilməsini xahiş edib. Sədrlik edən D.İşxanyanın vəsatətini təmin edib və ona fasilə vaxtı müdafiəçisi ilə konfidensial görüş keçirə biləcəyini deyib.

Ardınca cinayət işi üzrə digər sənədlər elan olunub.

Bundan başqa, Şahkərəmov Ağadadaş Şahkərəm oğlunun, Ağayev Ruslan Qabil oğlunun öldürülməsi, 2015-ci il iyulun 22-də "N" saylı hərbi hissənin hərbi qulluqçularının xəsarət almaları, Əliyeva Müşgünaz Əsgər qızının, Əhmədova Mədinə Əsgər qızının və Əliyeva Zəhra Samir qızının xəsarət almaları, Məmmədov Anar Yaşar oğlunun və Əhmədov Fuad Şaməddin oğlunun mina partlayışı nəticəsinə xəsarətlər almaları, habelə digər faktlar üzrə sənədlər elan olunub.

Daha sonra 2016-cı ilin aprel ayında baş vermiş hadisələrlə (Aprel döyüşləri - red.) bağlı sənədlərin bir hissəsi elan edilib. Elan olunan sənədlərdən biri "N" saylı hərbi hissənin hərbi qulluqçularının 2016-cı il aprelin 2-də Tərtər-Ağdam rayonları ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış atəşlə öldürülmələri və xəsarət yetirilmələri faktları ilə bağlı olub. Sənədə əsasən, Ermənistan silahlı qüvvələri Ağdərə, Tərtər-Ağdam istiqamətində Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı və artilleriya silahlarından intensiv atəşə tutması nəticəsində ölənlər və xəsarət alanlar olub.

Sənədlərlə eyni vaxtda, habelə bir sıra fotoşəkillər nümayiş etdirilib.

Məhkəmə prosesi sentyabrın 29-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# "Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu" adlı seminar

**Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar və dövlət suverenliyinin təminatında prokurorluq orqanlarının rolunun maarifləndirilməsi məqsədilə sentyabrın 26-da Bakı şəhər prokurorluğunda "Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu" mövzusunda seminar təşkil olunub.**



Tədbirdə Bakı şəhər və tabe rayon prokurorluqlarının əməkdaşları, ali təhsil müəssisələrinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri, habelə media nümayəndələri iştirak ediblər. Seminar iştirakçıları prokurorluq fəaliyyətinin müasir tələblərini, vətəndaşlarla qarşılıqlı münasibətlər və hüquqi maarifləndirmə istiqamətlərini ətraflı öyrənmək imkanı əldə ediblər.

Seminarı giriş sözü ilə açan Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətindən danışıb. O, seminarın əsas məqsədinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan gənclərin peşəkar inkişafına dəstək vermək, prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanışlıq yaratmaq və cəmiyyətdə hüquqi maarifləndirməni artırmaq olduğunu vurğulayıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış edərək seminar iştirakçılarına hüquqi maarifləndirmənin önəmini, prokurorluq orqanlarının müasir dövrdə qarşılaşdığı çağırışları, həmçinin cəmiyyətlə effektiv əlaqələrin prokurorluğun fəaliyyətindəki rolunu diqqətə çatdırıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli "Konstitusiya və Suverenlik İli: Azərbaycan dövlətçilik tarixində yeni mərhələ və prokurorluğun dövlət suverenliyinin təminində rolu" mövzusunda çıxış edərək seminar iştirakçılarını ətraflı şəkildə məlumatlandırıb. O, çıxışında "Konstitusiya və Suverenlik İli" çərçivəsində prokurorluq fəaliyyətinin prioritet istiqamətlərini xüsusi vurğulayıb, dövlət suverenliyinin qorunmasında prokurorluq orqanlarının hüquqi və praktiki funksiyalarını izah edib. Eyni zamanda hüquqi nəzarət mexanizmlərinin rolu, qanunun aliliyinin təmin olunması üçün prokurorluq tərəfindən tətbiq olunan prosedurlar və istintaq proseslərinin səmərəliliyi barədə iştirakçılara geniş təqdimat verilib.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kafedra rəisi, dosent, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev çıxış edərək dövlətçilik ənənələrinin möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının birgə fəaliyyətinin zəruriliyini, prokurorluğun bu istiqamətdə mühüm rolunu diqqətə çatdırıb.

Seminar interaktiv formatda davam edib. Tələbələr çıxışçılara hüquqi sahədə suallar ünvanlayaraq ətraflı cavablar əldə ediblər. Eyni zamanda seminar zamanı prokurorluq işinin praktiki nüansları, vətəndaş müraciətlərinə baxılması və ictimaiyyətlə əlaqələrin təşkili sahəsində real təcrübələr təqdim olunub.

# Bakı şəhər prokurorluğunda "Açıq qapı" günü keçirilib

**1 oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü münasibətilə Bakı şəhər prokurorluğunun inzibati binasının yeni korpusunda hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və media nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.**



Tədbirin məqsədi gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış olmalarına, nəzəri biliklərini praktik müstəvidə tətbiq etmələrinə və cəmiyyətdə prokurorluğun fəaliyyətinə dair maarifləndirici məlumatların artırılmasına şərait yaratmaq olub.

Ulu Öndər Heydər Əliyev və bütün şəhidlərin əziz və unudulmaz xatirələri birdəqiqəlik sükutla anıldıqdan sonra açılışda çıxış edən Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov qonaqları salamlayaraq bu cür təşəbbüslərin gənclərin peşəkar formalaşmasında və gələcək fəaliyyətə hazırlanmasında mühüm rol oynadığını vurğulayıb. O, rayon prokurorluqlarının səlahiyyətləri, gündəlik iş prinsipləri barədə ətraflı məlumat verib və iştirakçıların suallarını cavablandırıb.

Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov çıxışında prokurorluğun əsas fəaliyyət istiqamətləri və prioritetləri barədə danışıb.

Daha sonra Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov "Azərbaycan Prokurorluğunun inkişaf yolu: tarixi mərhələlər və müasir çağırışlar" mövzusunda təqdimatla çıxış edib. O, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən hüquq islahatlarının dövlətçiliyin möhkəmlənməsinə, qanunun aliliyinin təmin olunmasına və prokurorluq orqanlarının müasir tələblərə uyğun fəaliyyətinə xidmət etdiyini qeyd edib.

Tədbir çərçivəsində Bakı şəhər prokurorluğunun əməkdaşları Yaqub Məmmədov, Əfqan Qafarov və Ramil Səfərov daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunçuluğa prokuror nəzarəti, prokurorluqda istintaqın təşkili və ona nəzarət, həmçinin prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaş məmnunluğu mövzularında çıxış edərək öz bilik və təcrübələrini iştirakçılarla bölüşüblər.

Gənc hüquqşünaslar və media nümayəndələri ilə səmərəli müzakirələr aparılıb, iştirakçılara kriminalistik avadanlıqlar, habelə Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS) nümayiş etdirilərək onların istintaq prosesində tətbiqi izah olunub.

Sonda iştirakçılar inzibati binada yaradılmış iş şəraiti ilə tanış olub, prokurorluğun gündəlik fəaliyyəti barədə əyani məlumat əldə ediblər. Tədbir xatirə fotosu ilə başa çatıb.



# Səndən ötrü can verməyə cümlə hazırız,
# Səndən ötrü qan tökməyə cümlə qadiriz!..




# Əbədiyyət yolçuları

Yamyaşıl libasa bürünən ağacların saralıb-solduğu, yarpaq-yarpaq seyrəldiyi fəsil idi...

Dəli ruzigarların bulud karvanlarını səmada qovaraq günəşin üzünə rübənd çəkdiyi qüssəli zaman...

Qoca, uca dağların başına bəyaz qarın adda-budda çal saldığı, təbiət ananın qış təlaşına düşdüyü güz əyyamı...

2020-ci ilin xəzan fəsli...

Amma bu da bir möcüzə idi ki, düz beş il əvvəlin son bahar günəşi Odlar yurdunun əbədiyyət üfüqlərində bir daha sönməyəcək şəkildə parladı...

Həmin ilin payızı igid oğullarımızın qəhrəmanlıqlarını bütöv Azərbaycanın yüzilliklər sonra belə qürurla, iftixarla vərəqlənəcək tarix salnamələrinə zər işləmələrlə həkk etdi...

Barlı-bərəkətli, toylu-büsatlı bu qızıl fəsildə bütün Azərbaycan "Vətən" demişdi...

Cəsur döyüşçülərimiz ata-baba yurdumuz Qarabağ uğrunda düşmənlə qanlı savaşa atılmışdı. "Birimiz ölsək də, minimiz doğuluruq. Biz Vətən sevdalılarıyıq, bu müqəddəs eşq uğrunda çarpışmağa, vuruşmağa, gözümüzü qırpmadan fəda olmağa, şəhadət şərbəti içməyə də hazırıq", - deyə bir andaca döyüş meydanını Azərbaycanın mərd oğullarının düşmən bağrını yaran nərələri bürümüşdü.

Bu hünərli igidlərin hər birinin müqəddəs arzusu ürəklərinin üzərində gəzdirdikləri üçrəngli ay-ulduzlu bayrağımızı Qarabağın ən uca zirvələrində dalğalandırmaq idi... Vətənin bütövlüyü uğrunda son damla qanlarına qədər vuruşaraq düşmənə qalib gəlmək idi...

27 sentyabr 2020-ci ildə çıxdığımız haqq savaşı günlərində Qarabağ şəhidlərimizin qanı ilə suvarılmış laləzara, vətən oğullarımızın nərəsindən ucalmış zirvələrə döndü. Son baharda ana yurddan burum-burum qalxan vətənin yaz ətri ön cəbhədə də, arxa cəbhədə də qanımızı coşdurdu, ruhumuzu pərvazlandırdı.

## Candan əziz Vətən

Vətən müharibəsinin o 44 günündə xalqımızın hər bir üzvü körpəsindən yaşlısına, kişisindən qadınına ana torpaq uğrunda baş qoymağa hazır vətən fədailəri oldu. Bu ifadəmizdə nə mübaliğəyə, nə də şişirtməyə yol vermişik...

Vətən müharibəsinin həmin günlərində elə İlahi hisslər yaşadıq, elə möcüzəvi hadisələrə şahidlik etdik ki...

Haqq yolunda zəfər yürüşünə çıxan oğullarımız ilk gündən döyüş meydanında düşmənə qan uddurur, onun murdar ayağını torpağımızdan qarış-qarış qazıyıb atırdılar. Acı məğlubiyyətindən quduza dönən düşmən isə cəbhədən yüzlərlə kilometr uzaqdakı kənd və şəhərlərimizə silahını tuşlayır, vətəndaşlarımızın canına ölüm xofu salmaq, işğal etdikləri torpaqlarımızın itirilməsi ilə barışmağımıza nail olmaq istəyirdilər. Çalışırdılar ki, bizi canımızla sınağa çəkib haqq yolumuzdan döndərsinlər, Qarabağa qayıdış yolumuzu kəssinlər. Lakin 2020-ci ilin payızında güllə səsləri körpələrimizi belə diksindirə bilmirdi...

Bu gün də hər kəs yaxşı xatırlayır. 2020-ci ilin oktyabrında Gəncə terrorunda yaralanan bir oğlan uşağı var idi... Üz-gözündən süzülən al qana koppuş əlləriylə sipər çəkib azğın düşmənin acığına gülümsəyirdi kameralara...

Həmin vaxt valideynlərinin qara lentli fotosunu bağrına bərk-bərk sıxıb mətin addımlarla irəliləyən qızcığazın gözlərindəki qətiyyət, qisas yanğısı hər birimizi kədərqarışıq qürura bürümüşdü. Ata-ana itkisindən ürəyinə atəş düşmüş o balaların Azərbaycan bayrağının kölgəsində məğrurluğunu hiss etmişdik.

Hansı ki bu uşaqlar heç vaxt müharibə görməmişdilər, güllə səsi, bomba partlayışları eşitməmişdilər. Dağıntıların altından yaşam harayı çəkən ata-analarının son nidaları qulaqlarında əks-sədaya çevrilməmişdi. Qana bulaşmış oyuncaqlar, qolları, ayaqları sınmış gəlinciklər daşların altından həsrətli-həsrətli ölən balaların arxasınca boylanmamışdılar...

Azərbaycan xalqı haqq savaşına çıxdığımız o 44 gündə şəhid həyat yoldaşlarının tabutlarına çiyin verən, bir günün içində qara saçlarına ağappaq dən düşən gənc qadınlar gördü, həyətinə şəhid tabutu gələn ata-anaların bağırlarına daş basaraq, "Vətən sağ olsun!" dediklərinə, başlarını dik tutaraq göz yaşlarını ürəklərinə axıtdıqlarına şahidlik etdi...

Düz beş il əvvəl Qarabağın qanayan yarasını durdurmaq üçün körpəsindən yaşlısına, qadınından kişisinə Azərbaycan xalqı müsəlləh əsgərə çevrildi, Vətəni şirin canından əziz tutdu.

## Vətən uğrunda "İrəli"

2020-ci ilin payızında sanki zaman başqa idi, əyyam fərqli...

Elə bil yerlər də, göylər də haqqı nahaqqa verməmək üçün qoşalaşmışdılar. Adətən, yağmurlu olan payız fəslində günəş də Qarabağ uğrunda irəli atılan oğullarımızın yoluna nur çiləmək üçün göy üzündən sanki çəkilmək istəmirdi...

O zaman vətən qibləmiz Qarabağı düşmən caynağından xilas etmək üçün müqəddəs bir yola çıxan igid döyüşçülərimiz elə bir qəhrəmanlıq sərgilədilər ki, dünya tamaşasına durdu. Çətin yollardan, dərələrdən, sıx meşələrdən keçərək, sıldırımlar, zirvələr aşaraq Şuşaya doğru "Zəfər cığırı", Azərbaycana Zəfər yolu açdılar. Silah-sursat olmadıqda belə yalın əllə düşmənin üzərinə şığıdılar. Bu qəhrəman oğulların bir çoxu mənfurların üzərinə yeriyərkən minaya düşdü, qəlpə, güllə yarası aldı, amma onların heç biri can hayına düşüb haqq yolunda irəliləməkdən vaz keçmədi. İgidlərimiz tibbi yardımdan, arxaya təxliyə olunmaqdan imtina etdilər, elə qanları ilə vətən torpaqlarını suvara-suvara yağını qovmaq, vətəni azad etmək üçün irəli atıldılar. 30 illik işğala son qoymaq, bu illər ərzində faciələrə tuş gələn, ədalətsizliyin qurbanı olan xalqımızın qisasını almaq üçün tələsdilər. Ötən illərdə erməni faşistləri xalqımızın başına çox bəlalar gətirmiş, soydaşlarımız dədəbaba torpaqlarından qovulmuş, soyqırımlarla üzləşmiş, tükürpərdici vəhşiliklərə məruz qalmışdılar. Faşist xislətli düşmən əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr həyata keçirmiş, yüz minlərlə vətəndaşımızı öz vətənindən didərgin salmışdı. Bu zaman ərzində o qədər keçmiş məcburi köçkün öz yurd-yuvasını bir daha görmədən bu dünya ilə vidalaşdı ki...

Bütün bu zülmləri, müsibətləri isə nə göydə Allah, nə də yerdə bəndə götürərdi...

İllər idi ki, qəhrəman oğullarımız düşməndən qisas almaq üçün Ali Baş Komandanın Vətən uğrunda "İrəli!" əmrini böyük istək və səbirsizliklə gözləyirdilər.

27 sentyabr 2020-ci ildə qəhrəman döyüşçülərimiz Ali Baş Komandan İlham Əliyevin bu şərəfli əmrini yerinə yetirmək üçün böyük coşqu, ruh yüksəkliyi ilə döyüşə atıldılar. Hünərli oğullarımız çiyin-çiyinə verərək qarış-qarış torpaqlarımızı azad etməyə, elə Vətən müharibəsinin ilk günündən xalqımıza qələbə ərməğanları verməyə başladılar. Ana torpaq uğrunda savaşda iştirak edən hər bir döyüşçümüzün ümdə arzusu üçrəngli bayrağımızı Şuşada dalğalandırmaq oldu. Nə yazıq ki, igidlərimizin bir çoxuna bu arzunu yerinə yetirmək müyəssər olmadı. Düşmən gülləsinə tuş gəlib şəhid olan qəhrəmanlarımızın müqəddəs yolunu döyüşçü yoldaşları davam etdirdilər. Elə oldu ki, can verən döyüşçü yoldaşlarının bu dünyadakı son vəsiyyətlərinə ürəkləri parçalana-parçalana, gözlərindən yaş süzülə-süzülə qulaq verdilər, onların dodaqlarında yarımçıq qalan kəlmeyi-şəhadətlərini tamamladılar, sinələrinə bərk-bərk sıxdıqları bayraqları bu cəsurların əvəzinə Qarabağın zirvələrində dalğalandırdılar...

Bəli, Vətən uğrunda gözünü qırpmadan canından keçməyə hazır olan mərd oğullarımızın fədakarlığı sayəsində biz bu gün bütöv, suveren Azərbaycanın vətəndaşlarıyıq.

İllərlə həsrətində olduğumuz dədə-baba yurdlarımıza, Qarabağa, Şərqi Zəngəzura qayıdıb orada yenidən həyatı canlandırmağımız məhz bu igidlərimizin misilsiz şücaətlərinin nəticəsindədir…

## Əbədi ehtiram

Azərbaycan xalqı qəhrəman şəhidlərini hər zaman əbədi ehtiramla, böyük minnətdarlıqla yad edir.

Hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.

"İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik".

Bu sözləri 27 sentyabr 2021-ci ildə Prezident İlham Əliyev Anım Günü ilə bağlı müraciətində söyləyib və əlavə edib ki, biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq.

Xatırladaq ki, dörd il əvvəlki Anım Günündə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edilmişdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgini, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdirmişdilər.

Dövlət başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı ilə, birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləmişdi.

Hər il 27 sentyabr tarixində şəhidlərimizin ruhuna ehtiram olaraq bir dəqiqəlik sükuta dalırıq...

Əbədiyyətin özü qədər uzun və əbədi minnətdarlığın rəmzinə çevrilən bu bir dəqiqədə hər tərəf ecazkar səssizliyə bürünür...

Susuruq, əllərimiz ürəyimizin üzərində, yaş giləlinən gözlərimiz göylərdə sonsuzluğa doğru yol alırıq...

Bu İlahi səssizliyin fonunda, bu əbədi ehtiram məqamında ana torpağı canından çox sevənlərin, Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların ölməz ruhları qarşısında səcdəyə dururuq...

Torpaqlarımızın bütövlüyünün, suverenliyimizin təmin edilməsinin şəhidlərimizin uca ruhlarını şad etməsinin toxtaqlığı, qüruru içərisində...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Şəhidlik zirvəsinə aparan yol

**O, heç vaxt doğum gününü qeyd etmədi. Hələ ibtidai sinifdə oxuyarkən bir gün müəllimi şagirdlərdən ad günlərini, həmin günü necə keçirəcəklərini soruşub. Növbə Turala çatanda yaşına xas olmayan bir ciddiyyətlə ayağa qalxıb, qaşlarını çataraq "Mənim doğum günümdə Xocalı işğal olunub. Torpaqlarımız azad olunmayana qədər mən o günü qeyd etməyəcəm" - deyib və sözünün üstündə də durub...**



Tural Abdullayev 1990-cı il fevralın 26-da Laçın rayonunun Ərikli kəndində dünyaya gəlib. Sonradan ailəsi ilə Xocalıya köçsələr də, burada da uzun müddət yaşaya bilməyiblər. Onun ikinci doğum günü azğın düşmənin Xocalıda törətdiyi qanlı soyqırımına təsadüf edib. Körpə gözləri qarşısında doğma insanları, qonşuları, şəhərini itirən, bu xatirələrlə böyüyən Turalın qəlbinə intiqam toxumları səpilib. İllər keçsə də, o mənfur günü unutmayan Tural hələ uşaqlıqdan Vətəninin intiqamını alacağını özünə söz verib və alıb da...

Anası İradə xanım deyir ki, Tural həmişə yaşıdlarından fərqlənib: "Oğlum uşaq olanda kim ondan soruşsa ki, səninçün nə alaq, nə istəyirsən, cavabı həmişə eyni olub: bayraq. Təxminən 4 yaşı vardı, atası onunçun üçtəkərli velosiped almışdı. Velosipedi görən kimi hövlnak evə qaçıb bayrağını gətirib sancdı. Elə uşaqlıqdan bayrağa, vətənə dərin sevgisi vardı. Dördüncü sinif buraxılışı bugünkü kimi yadımdadır. Əsgər forması geyinməli idi, o vaxt vəziyyət çətin idi deyə nə qədər axtarsam da, tapa bilmədim. Çox təsir eləmişdi Turala. Müəlliminə demişdi ki, böyüyəndə hərbçi olacaq, düşməndən intiqam alacaq, şəhid olacaq. Bu sözləri dediyi lent yazısı da var. Amma oğlum şəhid olandan sonra neçə dəfə istəsəm də, həmin kaseti izləməyə özümdə güc tapa bilmədim".

Valideynləri Turalın vətənpərvərlik ruhunda böyüməsinə xüsusi diqqət yetirirdilər. Onu və bacılarını tez-tez Xocalı abidəsinə, Şəhidlər xiyabanına aparır, onlara şəhidlərdən, xalqımıza edilən haqsızlıqlardan danışırdılar. Məktəb müəllimləri xatırlayır ki, Tural inşalarda o qədər şəhid adı yazardı ki, bəzilərini heç müəllimlər belə tanımazdı.

2008-ci ildə hərbi xidmətə yollanan Tural Salyanda Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. 2010-cu ildən isə Daxili İşlər Nazirliyinin Zaqatala Xüsusi Təyinatlılar dəstəsində əməliyyat qrupunun üzvü kimi çalışıb. On iki il ərzində qüsursuz xidmət göstərən baş çavuş nümunəvi xidmətlərinə görə dəfələrlə medal və fəxri fərmanlarla təltif olunub.

Turalın igidliyi, qorxmazlığı dillərdə idi. 2017-2018-ci illərdə Türkiyədən təlim üçün gələn hərbçilər ona "Bozqurd" ləqəbini veriblər. Təlim zamanı ağır relyefdə hərbçilər və hətta xüsusi təlimli itlər belə çətinlik çəkərkən, Tural həm öz, həm yoldaşının yükünü, həm də beş hərbçinin silahını çiyninə alaraq zirvəyə qalxıb. Digərləri çatanda isə o, çoxdan dağın başında oturub gülə-gülə əl edərmiş. Həmin gündən hər kəs onu "Bozqurd" deyə çağırmağa başlayıb.

Qorxmaz döyüşçü eyni zamanda mülayim, xeyirxah, kitabsevər insan idi. "Çox danışmağı sevməzdi, amma danışanda hamı onu dinləyərdi. Kitab oxumağı sevirdi. Bacılarına həmişə deyirdi ki, kitab oxuyun, ana insanı dünyaya gətirir, kitab isə yetişdirir. Harda olsa, hara getsə, hörmət qazanardı. Kimisə pərişan görəndə tez maraqlanar, köməyini təklif edərdi. Zaqatalada xidmət etdiyi müddətdə tanış olduğu, köməyi dəydiyi insanlar hələ də mənə zəng edir, hal-əhval tuturlar" deyir şəhid anası.

Övladını sonuncu dəfə 2020-ci il sentyabrın 26-da görür İradə xanım: "Bir günlüyünə evə gəlmişdi. Otağında çantasını hazırlayırdım. Gəldi, möhkəm qucaqladı məni, alnımdan öpdü. "Ana, səni hamıdan çox istəyirəm" deyib üzünü bacılarına çevirdi: "Anamdan muğayat olun, o, sizə əmanətimdir". İki qızım olsa da, mən həmişə onunla dərdləşər, məsləhətləşərdim. Vaxtsız itirdiyim atam, anam, bacım, qardaşımın yerinə qoymuşdum onu sanki... Onu da vaxtsız itirdim. Düz beş ildir Turalsızam, nəfəssizəm, onun mənə "ana" deməsinə həsrətəm. Mənə bircə dəfə "ana" deməsini eşitməkçün dünyaları verərdim".

Həmişə ürəyi anasından sarı nigaran qalan Turalın son sözləri, vəsiyyəti də elə onunla bağlı olub. Silah yoldaşı Hilalla sentyabrın 29-u səhər saat 4-də söhbət edib, halallaşıblar. Tural deyib ki, "ürəyimə damıb şəhid olacam. Bizə gedib anama deyərsən ki, onu həmişə hamıdan çox istəmişəm. Mənə görə ağlamasın, başını dik tutsun. Mən bu həyatı seçdiyimçün çox xoşbəxt idim".

Yalnız ailəsinin deyil, həm də xalqının qüruru olan Tural Abdullayev 2020-ci il sentyabrın 30-da Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək əbədiyyətə qovuşub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində göstərdiyi xüsusi xidmətlərinə görə, Prezident İlham Əliyevin sərəncamı ilə "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Turalın şəhidlik zirvəsinə gedən yolu hər bir Vətən övladının qəlbində qürur, iftixar hissi doğurur. Hər kəs qəhrəman doğulmur, hər kəs də qəhrəman kimi əbədiyyətə qovuşmur, adını Vətənin qəhrəmanlıq tarixinə qızıl hərflərlə yaza bilmir. Bu nakam, amma qürurlu tale Turala qismət oldu...

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



# Milli hədəflərə çatmağın Azərbaycan nümunəsi

## Prezident İlham Əliyevin respublikamızın uğurları ilə bağlı BMT tribunasından bəyan etdiyi həqiqətlər dünya üçün müsbət təcrübədir

**BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak edən Prezident İlham Əliyevin səfər qrafiki olduqca zəngin olub. Dövlətimizin başçısının Nyu Yorkda ayrı-ayrı dövlətlərin liderləri, o cümlədən biznes dairələrinin təmsilçiləri ilə keçirdiyi görüşlər respublikamızın siyasi əlaqələri, iqtisadi maraqları baxımından mühüm əhəmiyyət kəsb edib. Sentyabrın 25-də isə Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.**

Azərbaycan 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu təşkilatın tribunasından diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib. 1994-cü ildə BMT Baş Assambleyasının 49-cu sessiyasında, 1995-ci ildə isə təşkilatın 50 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak edən Ulu Öndər bu qurumun yüksək kürsüsündən mövcud qlobal problemlərə dair Azərbaycanın prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında bir daha diqqəti Qarabağ probleminə yönəldərək demişdi: "Bu təcavüzün gedişində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, etnik təmizləmə aparmış və bir milyon azərbaycanlını öz doğma yerindən-yurdundan zorla qovub çıxarmışlar. Bununla əlaqədar BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin pozulmasını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Ancaq Təhlükəsizlik Şurasının qərarları 1993-cü ildən bu günə qədər hələ də kağız üzərində qalmaqdadır".

Respublikamıza rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını öz fəaliyyətinin prioritet istiqaməti kimi müəyyən edən Prezident İlham Əliyev BMT sessiyalarında çıxışı zamanı diqqəti artıq həllini tapmış Qarabağ probleminə yönəldib. İlham Əliyev BMT Baş Assambleyasının müzakirələrində ümumilikdə dörd dəfə çıxış edib - 2003-cü ildə Azərbaycanın Baş naziri, 2004, 2010 və 2017-ci illərdə isə Prezidenti kimi. Bununla yanaşı, Prezident İlham Əliyev 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci və 2021-ci ildə 76-cı sessiyasında onlayn formatda çıxış edib. Cənab İlham Əliyev bu mötəbər platformanın tribunasından etdiyi hər bir çıxışında Ermənistanın işğalçı siyasətini ifşa edib.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışının məzmunu isə əvvəlkilərdən fərqli idi. Öncə onu qeyd edək ki, dövlətimizin başçısı tək BMT-nin deyil, bütün beynəlxalq təşkilatların tədbirlərində artıq müharibədə qalib gələn lider, öz dövlətinin ərazi bütövlüyünü təmin edən Müzəffər Ali Baş Komandan kimi iştirak edir. Yəqin ki, BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak edən dövlət və hökumət başçıları arasında ədaləti savaşaraq təmin edən, bu gün isə yenə də öz dövlətinin şərtləri əsasında sülhü yaradan lider tapmaq mümkün deyil. Buna nail olan yalnız İlham Əliyevdir. Azərbaycan Prezidenti gərgin və ziddiyyətli beynəlxalq münasibətlər şəraitində öz dövlətinin maraqlarını təmin etməyin nümunəsini yaradıb. Ona görə dövlətimizin başçısına bütün beynəlxalq tədbirlərdə həm də qalib lider kimi böyük ehtiram göstərilir.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında qeyd etdi ki, uzun illər ərzində bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışıb. Bu dəfə isə dövlətimizin başçısı dövlətimizi qələbəyə və sülhə aparan yoldan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışdı.

Azərbaycan torpaqları 30 ilə yaxın işğal altında qaldı. Ermənistanın bu işğalı nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin düşdü. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdən dərhal çıxarılması ilə bağlı tələblər kağız üzərində qaldı. ATƏT-in Minsk qrupu münaqişənin həllindən uzaq oldu. Beynəlxalq hüquq Azərbaycanın yanında olsa da, Minsk qrupu öz fəaliyyəti ilə problemin dondurulmasına çalışdı.

2020-ci ildə Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi, beynəlxalq hüquqa, BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslandı. Prezident İlham Əliyevin BMT tribunasından bəyan etdiyi kimi, Azərbaycan ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi.

Prezident İlham Əliyev mötəbər tribunadan müharibənin başa çatmasından sonra Azərbaycanın təşəbbüsləri ilə başlanan sülh prosesinin gedişi ilə də bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycanın təşəbbüsü ilə başlayan və 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən sülh sazişi layihəsinin mətni üzrə danışıqlar prosesi müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

Xatırladaq ki, bu il avqustun 8-də Vaşinqtonda sülh sazişi layihəsinin mətninin paraflanması, Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun açılması barədə razılığın əldə olunması, sentyabrın 1-dən Minsk prosesinin və əlaqədar strukturların bağlanması göstərir ki, torpaqlarımızı işğaldan azad edən Prezident İlham Əliyev həm də regionda sülhü bərqərar edir.

Prezident İlham Əliyev çıxışında Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə başlanmış genişmiqyaslı yenidənqurma proqramından bəhs etdi. Yerlə yeksan edilmiş kənd və şəhərlərimizin yenidən qurulduğunu, Böyük qayıdış proqramı çərçivəsində artıq 50 mindən çox insanın azad edilmiş torpaqlarda yaşadığını, işlədiyini, təhsil aldığını dünya liderlərinin diqqətinə çatdırdı.

Eyni zamanda Ermənistanın işğalı dövründə yerləşdirdiyi minaların köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törətdiyi, 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçinin mina partlayışları nəticəsində həlak olduğu və ağır yaralandığı, 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyinin xüsusi diqqət və tədbir görülməsini tələb etdiyi BMT tribunasından beynəlxalq ictimaiyyətə bəyan olundu.

Dövlətimizin başçısının Azərbaycanın digər uğurları ilə də bağlı söyledikləri hər bir soydaşımızda qürur doğurdu. Prezident İlham Əliyevin Azərbaycanın 14 dövlətə təbii qaz ixracı, ölkəmizin beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevrilməsi, respublikamızda yoxsulluğun və işsizliyin tarixi minimum həddə - 5 faizə endirilməsi, xarici borcumuzun ÜDM-in cəmi 6,5 faizini təşkil etməsi, valyuta ehtiyatlarımızın xarici borcumuzdan təxminən 16 dəfə artıq olması, bərpaolunan enerjiyə keçid kimi nailiyyətlərimiz barədə dedikləri Azərbaycanın yüksəlişi və inkişafı ilə bağlı qlobal təəssüratları yenilədi.

Prezident İlham Əliyev dərinməzmunlu çıxışında Azərbaycanın öz haqqı uğrunda mübarizəsinin, dövlətimizin milli məqsədlərinə doğru getdiyi yolun mükəmməl təsvirini verdi. Hansı ki, bu mübarizə bir çox dövlətlərin haqsızlıqlara məruz qaldıqları bir şəraitdə müsbət təcrübədir, mükəmməl nümunədir, alternativi olmayan yol xəritəsidir. Bu təcrubəni isə Azərbaycan paylaşmağa hazırdır: "Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq".

Azərbaycan müstəqillik tarixində enişlərdən, yoxuşlardan keçib. Xüsusən torpaqlarımızın azadlığı uğrunda gedən yolda haqsızlıqlar, ədalətsizliklər, ikili standartlar ilə üzləşib. Lakin sonunda ədalət zəfər çalıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur".

Prezident İlham Əliyevin dövlətimizin baxışlarının aydın olduğunu bildirdi. Beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmamaq, qarşılıqlı hörmət və əməkdaşlıq Azərbaycanın vizyonudur. Ona görə Prezident İlham Əliyev beynəlxalq ictimaiyyəti birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya qurmağa çağırdı.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan qlobal arenada söz sahibidir

**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 80-ci yubiley sessiyası qlobal gündəlikdə mühüm yer tutdu. Bu əlamətdar sessiya dünya ölkələrini bir araya gətirərək beynəlxalq ictimaiyyətin qarşısında duran sülh, təhlükəsizlik, davamlı inkişaf və iqlim dəyişikliyi kimi həyati məsələlərin müzakirəsi üçün mühüm platforma yaratdı. Sessiyada dövlət və hökumət başçıları, diplomatlar, beynəlxalq təşkilatların nümayəndələri çıxış edərək müasir dünyanın üzləşdiyi çağırışlar və onlara qarşı birgə mübarizə yolları barədə fikir mübadiləsi apardılar. Xüsusilə davam edən silahlı münaqişələr, qlobal ərzaq böhranı, enerji təhlükəsizliyi sahəsindəki problemlər, yoxsulluğun azaldılması, bərpaolunan enerji mənbələrinin təşviqi və rəqəmsal transformasiya kimi məsələlər əsas müzakirə mövzuları sırasında yer aldı.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, yubiley sessiyası, eyni zamanda BMT-nin fəaliyyətinin qiymətləndirilməsi və təşkilatın gələcək islahatları ilə bağlı geniş debatlara şərait yaratdı. Sessiya çərçivəsində üzv dövlətlər beynəlxalq əməkdaşlığın gücləndirilməsini və qlobal problemlərə qarşı kollektiv yanaşmaların vacibliyini vurğuladılar. "Azərbaycan da bu mühüm sessiyada fəal iştirak edərək, ölkəmizin xarici siyasət prioritetlərini, qlobal və regional məsələlərə dair mövqeyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Ölkəmizin regional təhlükəsizlik, enerji əməkdaşlığı və dayanıqlı inkişaf sahəsində irəli sürdüyü təşəbbüslər beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi. Azərbaycan BMT-nin 80 illik yubiley tədbirində təmsil olunması ilə ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolunu və qlobal proseslərdə fəal iştirakını bir daha aydın şəkildə nümayiş etdirdi. Bu iştirak Azərbaycanın təkcə regional deyil, həm də beynəlxalq miqyasda sülhün, təhlükəsizliyin və davamlı inkişafın təşviqi sahəsindəki prinsipial mövqeyini və fəal təşəbbüskarlığını BMT tribunasından ifadə etməsi önəmli bir addım oldu",- deyə o əlavə edib.



Deputat qeyd edib ki, bu səfərin ən önəmli məqamlarından biri Prezident İlham Əliyevin dünyanın aparıcı maliyyə qurumlarının rəhbərləri ilə keçirdiyi yüksəksəviyyəli görüşlərdir. Prezidentin "Brookfield Asset Management", "Neuberger Berman", "Blackstone" və digər nüfuzlu beynəlxalq investisiya şirkətlərinin rəhbərləri ilə görüşləri Azərbaycanın iqtisadi potensialına və investisiya mühitinə artan marağın aydın göstəricisidir. Qeyd etmək lazımdır ki, bu maliyyə institutlarının hər biri trilyonlarla dollarlıq kapitala nəzarət edir və qlobal iqtisadi sistemdə mühüm rol oynayır. Diqqətçəkən məqam isə odur ki, bu görüşlər Azərbaycan tərəfinin təşəbbüsü ilə deyil, birbaşa qarşı tərəfin müraciəti əsasında təşkil olunub. Bu, Azərbaycanın iqtisadi sabitliyinə, inkişaf strategiyasına və investorlar üçün cəlbedici imkanlar təqdim etməsinə beynəlxalq maliyyə dairələrində göstərilən etimad və marağın bariz sübutudur.

K.Bayramov vurğulayıb ki, ölkəmizin ABŞ-nin aparıcı investisiya şirkətləri və Avropa dövlətləri ilə formalaşdırdığı yeni əməkdaşlıqlar Azərbaycanın iqtisadi gələcəyi üçün bir sıra strateji üstünlüklər vəd edir: "Birincisi, bu əməkdaşlıqlar Azərbaycanın qlobal maliyyə və texnologiya axınlarına daha sıx inteqrasiyasını təmin edir. Belə inteqrasiya yalnız kapital yatırımı ilə məhdudlaşmır, eyni zamanda qabaqcıl idarəetmə təcrübələrinin, innovativ yanaşmaların və rəqəmsal transformasiya alətlərinin ölkəyə gətirilməsinə şərait yaradır. İkincisi, yeni tərəfdaşlıqlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi prosesini sürətləndirə bilər. Enerji sektoru ilə yanaşı, sənaye, "yaşıl texnologiya"lar, aqrobiznes, səhiyyə və maliyyə texnologiyaları kimi sahələrdə sərmayə imkanlarının genişlənməsi iqtisadiyyatın dayanıqlılığını əhəmiyyətli dərəcədə artıracaq. Üçüncüsü, bu əməkdaşlıqlar Azərbaycanın beynəlxalq reytinqlərdə və investisiya cəlbediciliyi indekslərində mövqeyinin daha da möhkəmlənməsinə səbəb ola bilər. Bu isə gələcəkdə daha genişmiqyaslı layihələrə əlavə sərmayələrin cəlb olunmasını asanlaşdıracaq. Qeyd edilməlidir ki, bu cür strateji tərəfdaşlıqlar ölkəmizin regional liderlik mövqeyini gücləndirməklə yanaşı, onun enerji tranziti, logistika və beynəlxalq ticarət qovşağı kimi rolunu da daha da möhkəmləndirir".

K.Bayramov xüsusi olaraq qeyd edib ki, dövlət başçımızın BMT Baş Assambleyasının sessiyası çərçivəsində keçirdiyi görüşlər həm regional sülh gündəliyini, həm də qlobal maliyyə və enerji əməkdaşlığı məsələlərini əhatə edib. Səfərin diqqətçəkən məqamlarından biri də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampla səmimi söhbəti olub. Bu dialoq Azərbaycan-ABŞ münasibətlərində yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Birinci vitse-prezident Mehriban Əliyeva həmin görüşə dair sosial şəbəkədə paylaşdığı qısa videoda iki lider arasında açıq, dostyana və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsini ictimaiyyətə təqdim edib. Bu münasibətlər Prezident İlham Əliyevin dialoqa və qarşılıqlı hörmətə əsaslanan xarici siyasət kursunun uğurlu nəticəsidir. Dövlət başçımızın Finlandiya, Yunanıstan, Keniya, Portuqaliya, Bolqarıstan liderləri, eləcə də Avropa Şurasının Baş katibi ilə keçirdiyi görüşlər Azərbaycanın beynəlxalq arenada artan nüfuzunu və Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasında təşəbbüskar rolunu bir daha nümayiş etdirir. Dünya ictimaiyyəti, xüsusilə Avropa və Afrika regionlarının siyasi rəhbərləri Azərbaycanın regionda həyata keçirdiyi konstruktiv və balanslaşdırılmış siyasəti, eyni zamanda sülhə yönəlmiş təşəbbüslərini yüksək qiymətləndirirlər.

Deputat bildirib ki, bütün görüşlərdə, xüsusilə də, avqustun 7-8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Vaşinqton Sülh Sammitində əldə olunmuş tarixi nəticələr xüsusi vurğulanıb. Sammit çərçivəsində əldə edilən razılaşmalar və Azərbaycanla Ermənistan liderləri tərəfindən imzalanan Birgə Bəyannamə Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətində atılmış strateji əhəmiyyətli addım oldu. "Bu tarixi sənəd, bölgədə süni gərginlik yaratmağa çalışan xarici dairələrin, Ermənistandakı revanşist qüvvələrin, erməni lobbisinin, ümumilikdə Azərbaycanın inkişafına mane olmağa çalışan qüvvələrin planlarının iflasa uğradığını nümayiş etdirdi. Vaşinqtonda imzalanmış Birgə Bəyannamə torpaqlarının işğalı dövründə belə həmişə münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verən, 44 günlük Vətən müharibəsindən dərhal sonra normallaşma və barış üçün təşəbbüslərlə çıxış edən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və prinsipial sülh siyasətinin məntiqi nəticəsidir. Bu sənəd, eyni zamanda Azərbaycanın qətiyyətli, uzaqgörən və məsuliyyətli liderlik modeli ilə beynəlxalq səviyyədə etibarlı sülh təşəbbüskarına çevrildiyini bir daha təsdiqlədi", - deyə o əlavə edib.

K.Bayramov qeyd edib ki, ümumilikdə, Prezident İlham Əliyevin Nyu York səfəri və iştirak etdiyi görüşlər Azərbaycanın beynəlxalq arenadakı mövqelərinin daha da möhkəmləndiyini, ölkəmizin həm iqtisadi, həm siyasi, həm də diplomatik baxımdan güclənməkdə davam etdiyini aydın şəkildə göstərir. Bu cür fəal və məqsədyönlü diplomatik xətt Azərbaycana beynəlxalq tərəfdaşları ilə siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə, eyni zamanda qlobal gündəliyin formalaşdırılmasında fəal rol oynamasına imkan yaradır. Azərbaycanın artan nüfuzu, sülh və sabitlik yönündə irəli sürdüyü təşəbbüslər, eləcə də xarici investisiyalara və əməkdaşlığa açıq mövqeyi ölkəmizi bölgədə və onun hüdudlarından kənarda etibarlı tərəfdaş kimi tanıdır. Nyu York gündəliyi həmçinin Azərbaycanın gələcəyə yönəlmiş strateji baxışının və dünyada baş verən proseslərə prinsipial, məsuliyyətli yanaşmasının bariz təzahürüdür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Anım Günü ilə bağlı tədbirlər keçirilir

### Naftalan



**27 Sentyabr Anım Günü ərəfəsində Naftalan ŞİH-in başçısı Vüqar Novruzov, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki baş konsulu Recep Öztop, Avropa Azərbaycan Məktəbinin direktoru Francesco Banchini və digər şəxslər Vətən müharibəsinin ilk mülki şəhidləri olan Qurbanovlar ailəsini ziyarət etmişlər.**

Ziyarət zamanı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun əldə etdiyi şanlı və tarixi Qələbədən söz açılmış, şəhidlərimizin xatirəsinin hər zaman dərin ehtiramla yad edildiyi vurğulanmış, xalqımızın sarsılmaz birliyi və qətiyyətli mübarizəsi sayəsində qazanılmış dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tarixi əhəmiyyətindən söz açılmışdır.

Şəhidlərin ailə üzvləri dövlətimiz tərəfindən onlara göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, Vətən müharibəsinin ilk günü düşmənin atdığı top mərmisinin Naftalanın Qaşaltı Qaraqoyunlu kənd sakini Elbrus Qurbanovun evinə düşməsi nəticəsində ailənin ikisi uşaq olmaqla beş üzvü faciəvi şəkildə şəhid olmuşdur.

### Qazax



**Hər il 27 Sentyabr Anım Günü Qazax rayonunda da silsilə tədbirlərlə qeyd olunur. Həmin tədbirlərə ilk olaraq Vətən müharibəsi şəhidlərinin məzarlarının ziyarət olunması ilə başlanılır.**

Rayon icra hakimiyyətinin başçısı, icra aparatının məsul şəxsləri, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qazax rayon filialının, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının rayon şöbəsinin əməkdaşları şəhidlərin ailə üzvləri ilə birlikdə bu günlər 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın məzarlarını ziyarət etmişlər. Ziyarətçilər Yuxarı Salahlı, Ağköynək və Qarapapaq kəndlərində qəhrəman oğullarımızın məzarları başında şəhidlərimizin əziz xatirələrini ehtiramla yad etmişlər. Çıxış edənlər 44 günlük Vətən müharibəsində şanlı tarix yazan oğullarımızla, şəhidlərimizlə, qazilərimizlə hər kəsin fəxr etdiyini, qürur duyduğunu bildirmişlər.

❖ ❖ ❖

**Növbəti tədbir rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Bakı-Ələt-Qazax avtomobil yolunun Yuxarı Salahlı kəndi ərazisindən keçən hissəsində ağacəkmə aksiyası olmuşdur.**



Aksiyada RİH aparatının və 2 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, Bakı Dövlət Universiteti Qazax filialının, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin müəllim və tələbələri, rayon icra hakimiyyəti yanında Gənclərin Yerli Məşvərət Şurasının üzvləri, könüllülər iştirak etmişlər.

Aksiya iştirakçıları həmin gün 50 Eldar şamı, 400 tuya, 50 sərv ağacı olmaqla ümumilikdə 500 ağac əkmiş, yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Həqiqət üzərində qurulan abidə

### Quba Soyqırımı Memorial Kompleksini indiyədək bir milyondan çox insan ziyarət edib



**2007-ci il aprel ayının 1-də Quba şəhər stadionu ərazisində torpaq işləri aparılarkən kütləvi məzarlıq aşkar edildi.**

Həmin ilin iyul ayından etibarən ümumi sahəsi 514 kvadratmetr olan ərazidə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən tədqiqat işlərinə başlanıldı. Arxeoloji qazıntılar nəticəsində insan sümükləri ilə doldurulmuş 2 quyu və 2 arx (kanal) aşkar edildi.

Sırf təsadüf nəticəsində Qudyalçayın sağ sahilində üst-üstə qalaqlanan insan sümükləri ilə dolu iki quyu aşkar olundu. Böyük quyunun diametri 5, kiçik quyunun diametri 2,5 metrdir. Quyular arasında 2 metr məsafə var. Aşkar edilmiş insan cəsədlərinin əksəriyyəti uşaq və qadınlara aiddir. Skeletlərin bütöv halda tapılmaması insanların öldürüldükdən sonra şaqqalanaraq quyuya atıldığını göstərir. Odur ki, qurbanların sayı kəllə sümükləri ilə müəyyən olunub. Sümüklərin tədqiqatı zamanı ölüm faktının nə vaxt baş verdiyi dəqiqləşdirilib. Qubada tapılan sümüklərin tərkibindəki nəmliyin miqdarı ölüm tarixinin ötən əsrin ikinci onilliyinə aid olduğunu üzə çıxarıb. Məzarlıqda azərbaycanlılarla birlikdə ləzgilər, yəhudilər, tatlar və digər millətlərin 400-dən artıq nümayəndəsi qətlə yetirilərək basdırılıb. Alimlər belə nəticəyə gəliblər ki, quyu və arxlarda basdırılan insan cəsədləri 1918-ci ildəki Quba qırğınının qurbanlarıdır.

Soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar vermişdir. Bu, keçmiş üzərində qurulan, tarixi kökü həqiqət olan bir soyqırımdır və onun detalları canlı insan sümükləridir.

Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm işlər görülüb. 2013-cü ilin sentyabrında Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Həmin gündən bura ziyarətgaha çevrilib.

Kompleksin ümumi sahəsi 3,5 hektardır. Burada xatirə abidəsi, simvolik məzarlıq, soyqırımı muzeyi, bayraq meydanı və informasiya mərkəzi fəaliyyət göstərir. Ötən illər ərzində bu kompleksi bir milyondan artıq insan ziyarət edib. Onlardan 200 mindən artıq ziyarətçi xarici ölkə vətəndaşlarıdır.

Soyqırımı Memorial Kompleksinin təşkilatçılığı ilə təbliğat və tanıtım xarakterli, soyqırımı - şahid ifadələrini əks etdirən sənədli filmin 3 dildə (Azərbaycan, ingilis və rus) tərcümə olunaraq yazıldığı disklər, həmçinin 5 dildə (Azərbaycan, ingilis, rus, türk və ərəb) buklet, müxtəlif kitabça, digər çap məhsulları hazırlanmışdır və onlar gələn ziyarətçilərə təqdim edilir. Soyqırımı kompleksində vaxtaşırı elmi-praktiki konfrans, "dəyirmi masa" və beynəlxalq görüşlər keçirilir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Goranboyda tütün yığımına başlanılıb

**Son illər Goranboy rayonunda aqrar sahənin, o cümlədən tütünçülüyün inkişafı üçün geniş şərait yaranmışdır. Bu hesaba artıq bir neçə ildir ki, rayonun Qarqucaq, Zeyvə, Yenikənd və Qaraçinar kəndlərində 8 hektar sahədə tütün becərilir.**

Bu qiymətli bitkinin istehsalını artırmaq üçün rayonda həmçinin 14 istixana qurulması nəzərdə tutulmuş, 6-da işlər artıq başa çatdırılmışdır. Həyata keçirilən bu cür tədbirlər sayəsində Aşağı Ağcakənd qəsəbəsi ərazisində 2,45 hektar sahədə tütün toxumu üçün 14 istixana qurulmuş, həmin istixanalarda becərilən şitil toxumları sahələrə köçürülmüşdür.

Artıq 187 hektar sahədə becərilən tütünün yığımına başlanılmışdır. Qısa vaxt ərzində 344 tondan çox yaş tütün toplanmışdır. Yığım davam edir və cari məhsul ilində yüksək nəticə gözlənilir.

*"Azərbaycan"*

## Bərdədə gənclər müasir peşələrə yiyələnirlər

**Hələ sovet dönəmində fəaliyyətə başlayan Bərdə Peşə məktəbi şərəfli bir inkişaf yolu keçmişdir. O illərdə məktəb kolxoz və sovxozlar, fabrik və zavodlar, müxtəlif istehsal və emal müəssisələri üçün yüksək peşə hazırlığına malik kadrlar hazırlayırdı.**





Səmərəli fəaliyyətini müstəqillik illərində Bərdə Dövlət Peşə Təhsil Mərkəzi kimi davam etdirən bu məkana gənclər böyük maraq göstərirlər. Prezident İlham Əliyevin təşəbbüsü və qayğısı ilə peşə təhsil mərkəzinin maddi-texniki bazası əsaslı şəkildə yenidən qurularaq müasir tələblər səviyyəsinə çatdırılmışdır. Köhnə məktəbin yerində yeni inşa olunan təhsil mərkəzi geniş imkanlara malikdir. Tələbə və müəllimlərin istifadəsinə verilən geniş və işıqlı sinif otaqları, laboratoriyalar, emalatxanalar, fənn kabinetləri, iclas zalı zəruri avadanlıqlarla təmin edilmişdir.

Təhsil mərkəzinin tədris korpusunda ideal şərait yaradılmışdır. Yataqxana korpusundakı rahatlıq, əlverişli şərait tələbələri razı salır.

Bərdə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Samir Nəcəfov söhbət zamanı qazandıqları uğurlardan qürurla söhbət açdı. Qardaş Türkiyə Cümhuriyyətinin müvafiq peşə təhsili ocaqları ilə qurulan işgüzar əlaqələrə toxundu. Məmnunluqla vurğuladı ki, bu gün Dövlət Peşə Təhsil Mərkəzi olaraq əsas hədəfimiz başdan-başa yenidən qurulan, bərpa edilən Qarabağ və Şərqi Zəngəzur üçün yüksək peşə vərdişlərinə yiyələnmiş bacarıqlı kadrlar hazırlamaqdır.

Həmsöhbətimiz onu da vurğuladı ki, təhsil mərkəzi təkcə Bərdəni deyil, böyük bir regionu əhatə edir. Respublikanın yaxın-uzaq rayonlarından olan, faydalı peşə vərdişlərinə sahiblənmək istəyən gənclər çox böyük həvəslə bizim təhsil mərkəzini seçirlər.

Bu mərkəzin timsalında da görmək olur ki, müasir gənclik faydalı peşələrə daha çox üstünlük verir. Cari tədris ilində buraya tələbə qəbulu üzrə 920 plan yerinə qarşı 8654 müraciət olub. Onlardan yalnız 750 nəfəri tələbə adı qazanıb. Tələbə sıralarına qəbul olunanların 649 nəfəri dövlət vəsaiti hesabına, 101 nəfəri isə ödənişli əsaslarladır.

Hazırda mərkəzdə ümumilikdə 42 peşə ixtisası üzrə 68 qrupda tədris aparılır. Bu il ilk dəfə olaraq mənzil təsərrüfatı xidməti üzrə mütəxəssis, alternativ enerji və qurğu avadanlıqlarının istismarı, turizm təşkilatçısı kimi yeni ixtisaslar tədrisə əlavə edilib.

Cari tədris ilində Bərdə Dövlət Peşə Təhsil Mərkəzində 1219 nəfər gənc yüksək, texniki və ilk peşə pillələri üzrə təhsil alır. Sabahımızın qurucuları olan gənclərə dövlətin böyük qayğısı böyük ümidlər doğurur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Ağstafa üzümçüləri bu il də bağlarda bol məhsul yetişdiriblər

**Ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrindən biri də üzümçülükdür. Azərbaycan müstəqillik qazandıqdan sonra tənəzzülə uğramış bu sahənin inkişafı üçün də bir sıra məqsədyönlü tədbirlər həyata keçirildi.**



Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirdiyi tədbirlər nəticəsində ölkəmizdə üzümçülüyün inkişaf etdirilməsi ön plana çıxarıldı. Bu gəlirli sahənin inkişafına göstərilən diqqət və qayğı nəticəsində üzümçülük yeni inkişaf mərhələsinə qədəm qoydu. Nəticədə respublika ərazisində üzüm bağlarının sahəsi xeyli genişləndirildi.

Üzümçülük sahəsində zəngin təcrübəsi olan rayonlardan biri də Ağstafadır. Hazırda rayonda üzümçülükdə itirilmiş şöhrətin qaytarılması üçün çoxsaylı tədbirlər həyata keçirilir. Köhnə bağlar bərpa edilməklə yanaşı, yeni , daha məhsuldar bağlar salınır. Görülən məqsədyönlü tədbirlər nəticəsində üzüm bağlarının sahəsi 508,1 hektara çatdırılmışdır ki, bunun da 500,9 hektarı məhsul verən, 7,2 hektarı isə yeni salınmış bağlardır. Plantasiyalara göstərilən yüksək aqrotexniki qulluq nəticəsində keçən il rayon üzrə məhsuldarlıq əvvəlki illərə nisbətən yüksək olmuşdur.

Bu il də bağlarda bol məhsul yetişdirilmişdir. Artıq xeyli vaxtdır ki, üzüm yığımı aparılır. Əvvəlki illərdə olduğu kimi bu il də "AZ KONSALT" MMC 68 hektarda texniki üzüm sortu yetişdirmişdir. Keçən il həmin sahələrdən 700 ton məhsul əldə edən əməkçilər bu il bağlardan 750-800 ton üzüm götürməyi planlaşdırırlar.

Hazırda bağlarda üzüm yığımı sürətlə davam edir. İlkin nəticə onu deməyə əsas verir ki, bu il ötən illə müqayisədə məhsul daha bərəkətli olacaq. Rayonun Pirili kəndində fermer Şamil Allahverdiyev tərəfindən salınmış 6 hektar üzüm bağında bol məhsul yetişmişdir. Keçən il bu bağlardan 60 ton məhsul götürən fermer deyir ki, cari ildə bu göstəricinin 75-80 ton olacağı gözlənilir.

Poylu kəndində Səməndər Vəliyevin yetişdirdiyi 2 hektar üzüm bağında da məhsul boldur. Fermer əsasən "Merlot" və "Redbull" üzüm sortu yetişdirmişdir. Keçən il həmin sahələrin hər hektarından 17 ton məhsul götürən Səməndər bu il məhsuldarlığın daha çox olacağını söylədi. Dedi ki, ilkin göstəricilərə görə, bu rəqəmin 25 tona yaxın olacağı gözlənilir.

Ümumiyyətlə, Ağstafada hər il bol üzüm yetişdirən onlarla fermer var. Poylu kəndindən Qurban Aslanov, Kolxəlfəli kəndindən Yulət Kərimov və başqaları hər il üzüm istehsalında fərqlənirlər. Fermer Qurban Aslanov keçən il 3 hektar üzüm bağından 20 ton, Yulət Kərimov isə 2 hektar üzüm bağından 15 ton məhsul götürmüşdür. Hazırda üzüm yığımında fərqlənən fermerlər bu il də məhsulun daha çox olacağını əminliklə bildirdilər.

Söhbət zamanı fermerlər yetişdirdikləri üzümün satışında problemlər olduğunu da dedilər. Xüsusilə məhsulun ölkədənkənar bazarlara aparılmasında çətinliklərlə rastlaşdıqlarını, bunun da nəticəsində məhsulun bir hissəsinin qısa vaxtda xarab olaraq maddi ziyan vurduğunu söylədilər.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Naxçıvanda aqrar sahə üzrə ilk qadın kooperativi yaradılır

**Naxçıvan Muxtar Respublikasında aqrar sahədə ilk qadın kooperativinin yaradılmasına başlanıb. Kooperativ Azərbaycan Kənd Qadınları Assosiasiyasının təşəbbüsü və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılır.**

Kooperativ aqrobiznes sahəsində fəaliyyət göstərən kiçik sahibkar qadınları bir araya gətirəcək. Qadın sahibkarlar həm istehsal, həm də satış mexanizmini birgə quraraq, kooperativ təsərrüfatın digər üstünlüklərindən faydalanacaqlar. Layihə müxtəlif aqrar sahələri əhatə etməklə, xüsusilə ucqar kəndlərdə yaşayan fermer qadınların iqtisadi və sosial cəhətdən gücləndirilməsinə yönəlib.

İlkin mərhələdə süd məhsullarının emalı və satışı sahəsində fəaliyyət göstərəcək kooperativ qadın fermerlərin bacarıqlarının artırılması, resurslara çıxış imkanlarının genişləndirilməsi və dayanıqlı dəstək mexanizmlərinin formalaşdırılmasını nəzərdə tutur.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində aqrar sahədə ilk qadın kooperativinin yaradılmasına həsr olunmuş "Kooperativ quruculuğu" mövzusunda hibrid formatlı seminar keçirilib. Seminar çərçivəsində kooperativlərin yaradılması, idarə olunması, marketinq və satış strategiyaları ilə bağlı təqdimatlar keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, indiyədək Azərbaycanın müxtəlif bölgələrində 14 qadın kooperativi yaradılıb.

# Ermәni terroru heç vaxt unudulmayacaq

**Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağlın, idrakın sivil nöqtəyə yüksəldiyi bu zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bundan hələ də xilas ola bilməmişdir.**



Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı da terror aktlarının, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən zaman-zaman etnik terrora məruz qalan Azərbaycan xalqına qarşı törədilən cinayətlər insan əxlaqı ilə bir araya sığmır. Bu terror aktları əsl faşist xislətlidir. Elə götürək 44 günlük Vətən müharibəsini. Həmin dövrdə xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Törədilən terrorlar erməni separatçılarının vəhşi simasını bir daha üzə çıxardı. Xüsusilə Gəncə, Tərtər, Bərdə, Mingəçevirdə mülki əhaliyə qarşı törədilən terror aktları erməni millətçilərinin təcavüzkar simasını bir daha ortaya qoydu.

Lakin 30 illik həsrətə son qoyan 44 günlük ədalət müharibəsinin əks-sədası bütün dünyaya səs saldı. Rəşadətli Azərbaycan Ordusu qısa vaxt ərzində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə əsl qəhrəmanlıq dastanı yazdı. "Yeni ərazilər uğrunda müharibə" aparmaq iddiası ilə müharibə aparan ermənilərin cavabı birdəfəlik verildi.

Həmin dövrdə gəncəlilər də ağır günlər yaşadılar. Oktyabrın 4-də şəhərə ilk raket hücumu edildi. Nəticədə bir nəfər həlak oldu, 36 nəfər müxtəlif xəsarətlər aldı. Şəhərin Nəriman Nərimanov, Əziz Əliyev, Əli Nəzmi və digər küçələrindəki evlər dağıldı və bir neçə nəqliyyat vasitəsinə ziyan dəydi.

Oktyabrın 5-də atılan raketlər isə Gəncənin "Grand Qafqaz" ticarət kompleksinə düşdü, 3 nəfər müxtəlif bədən xəsarətləri aldı, ticarət mərkəzinə külli miqdarda ziyan dəydi.

Bununla kifayətlənməyən ermənilər oktyabrın 8-də üçüncü dəfə Gəncəyə raket hücumu etdilər. Gecə saat 3 radələrində atılan raket Həsən Əliyev və Pərviz Səmədov küçələrində yerləşən qeyri-yaşayış sahəsində xeyli dağıntıya səbəb oldu.

Azərbaycan Ordusunun cəbhədəki uğurlarına cavab verə bilməyən erməni cəlladları oktyabrın 11-də və 17-də gecə saatları şəhərə növbəti raket hücumları etdilər. 31 ev tamamilə dağıldı, xeyli sayda mülki şəxs dağıntıların altında qaldı. Nəticədə 15 nəfər həlak oldu, 54 nəfər yaralandı. Ümumilikdə Gəncəyə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq olmaqla 26 nəfər həlak olmuş, 31-i uşaq olmaqla 142 nəfər müxtəlif bədən xəsarətləri almışdır. 3 ailənin üzvü olan 4 uşaq hər iki valideynini itirmişdir.

Həmin hadisələrdən 5 il ötür. Lakin gəncəlilər o qanlı-qadalı günləri unutmurlar. Həmin ağır günlərdə Prezident İlham Əliyevin tapşırığı ilə şəhər rəhbərliyi dağılmış ərazilərdə olur, insanlarla söhbət edərək onları təmkinli olmağa çağırır, terrorun nəticələrinin qısa zamanda aradan qaldırılacağını deyirdi.

Belə də oldu. Üstəlik, Gəncəyə edilmiş raket hücumları nəticəsində həlak olanların xatirəsini əbədiləşdirmək üçün dövlət başçısı xüsusi Memorial Kompleksinin tikintisi ilə bağlı sərəncam imzaladı. 4 hektar ərazidə inşa edilən Gəncə Memorial Kompleksi təkcə bir abidə deyil, həm də tarixi sənəd, böyük yaddaş məkanına çevrildi. Burada ermənilər tərəfindən təkcə müharibə zamanı törədilən terrorları deyil, həm də onların Azərbaycan xalqına qarşı müxtəlif dövrlərdə həyata keçirdikləri cinayətləri - Qərbi Azərbaycan əhalisinin deportasiyası, Qarabağ və Şərqi Zəngəzurdan məcburi köçkünlük, mina terroru kimi faşist əməllərini sübut edən sənədlər toplanıb.

Söz yox ki, Memorial Kompleks bu gün hər bir gəncəliyə o qanlı-qadalı günləri xatırlatmaqla yanaşı, həm də çox da uzaq olmayan həmin müharibənin ağrıacılarından dərs götürməyi aşılayır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




# Şəhid ailələri və müharibə əlilləri ziyarət olunur



**HACIQABUL**

Hacıqabulda Vətən müharibəsində şəhid olmuş Şəhriyar Ağamaliyev, Mehti Şıxəliyev, Hümbət Yaqubov, Nicat Hüseynov və Turab Quliyevin ailələri ziyarət edilib.

Görüş iştirakçıları şəhid və qazilərinin sosial müdafiəsinin gücləndirilməsinin və rifah halının yaxşılaşdırılmasının Prezident İlham Əliyevin sosial siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu vasitəsilə şəhid ailələrinə göstərdiyi qayğı, həyata keçirdiyi tədbirlərdən danışıblar.

Hacıqabul rayonunda şəhid ailələri, Qarabağ müharibəsi veteranları və əlilləri ilə vaxtaşırı görüşlər keçirilir, onların arzu və istəkləri dinlənilir.

**ŞİRVAN**

Şəhər rəhbərliyi idarə, müəssisə və təşkilatların məsul işçiləri Anım Günü ilə bağlı Vətən müharibəsi şəhidlərinin ailələrini, həmçinin müharibə əlillərini ziyarət ediblər.

Görüşlərdə şəhidlərimizin xatirələri yad edilib, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun əldə etdiyi tarixi Zəfərdən, qəhrəman Vətən övladlarının göstərdikləri şücaətlərlə dolu döyüş yollarından bəhs olunub, şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının xatirəsinin hər zaman xalqımızın qəlbində yaşayacağı vurğulanıb. Eyni zamanda ordumuz tərəfindən qanunsuz erməni silahlı dəstələrinin zərərsizləşdirilməsi, ölkəmizin Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirilən lokal xarakterli antiterror tədbirlərində qazanılan uğurlardan söhbət açılıb.

Şəhidlərin ailə üzvləri və müharibə iştirakçıları göstərilən diqqət və qayğıya görə razılıqlarını ifadə ediblər.

***"Azərbaycan"***

**27 Sentyabr Ümumdünya Turizm Günüdür**

# Azərbaycanın turizm potensialı yüksəlir

## Qarabağ və Şərqi Zəngəzur xarici turistlərin ən çox ziyarət etdikləri məkanlardan biri olacaq

**Yerləşdiyi coğrafi şərait, zəngin təbiəti, tarixi abidələri və mədəni irsi ilə Azərbaycan yüksək turizm potensialına malik ölkədir. Paytaxt Bakı ilə yanaşı, bölgələrimiz həm yerli, həm də xarici turistlərin diqqətini çəkir. 2020-ci ildən sonra isə turizm məkanlarına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da qatılıb. Vətən müharibəsindən sonra işğaldan azad olunmuş rayonlarda görülən yenidənqurma və bərpa işləri sayəsində hər bir şəhər və kənd öz irsini, mədəniyyətini geri qaytarır.**



Qarabağ bölgəsi turizm baxımından geniş imkanlara malikdir. Burada turizmin istənilən növünün yaradılması və inkişafı mümkündür. Elə bu baxımdan Şuşa, Laçın, Xankəndi, Kəlbəcərə təşkil olunan turlar hər kəsin diqqətini cəlb edir. Yerləşdikləri təbii coğrafi şərait bu rayonlarda həm qış, həm də yay turizminin inkişafına imkan verir. Bununla yanaşı, bu ərazilərdə əyləncə, ekoturizm, idman, dağ turizmi, mədəni, sağlamlıq, kənd və s. turizm növlərinin yaradılması mümkündür.

Dağlar qoynunda yerləşən Şuşa tarixi mədəni abidələri ilə turistlərin diqqətini çəkən əsas turizm məkanlarından biridir. Burada turizm üçün yaradılan imkanlar - tikilən hotellər, restoranlar, digər iaşə obyektləri, ən əsası isə Zəfər yolu son bir neçə ildə Şuşanı Azərbaycanın əsas turizm destinasiyalarından birinə çevirib. Eyni zamanda burada keçirilən qlobal əhəmiyyətli tədbirlər də Şuşanı daha çox tanıdıb.

Turizmin inkişafı üçün əsas faktorlardan biri infrastruktur, yol, nəqliyyatın əlçatanlığıdır. Bu baxımdan işğaldan azad olunmuş rayonlara çəkilən yollar gediş-gəlişi asanlaşdırmaqla, daha çox turistin əraziyə maraq göstərməsinə səbəb olur.

Xatırladaq ki, beş il ərzində işğaldan azad olunmuş Füzuli, Zəngilan və Laçında üç hava limanı istifadəyə verilib ki, bu da turizmin əsas komponentlərindən biridir. Belə ki, bu aeroportlar Qarabağın və Şərqi Zəngəzurun hava qapıları olmaqla xarici turistləri ölkəmizə cəlb edir.

Şuşa ilə yanaşı, Laçında, Kəlbəcərdə, Xankəndidə, Zəngilanda da mehmanxanalar fəaliyyət göstərir. Kəlbəcərdə İstisu sanatoriyası yaradılmaqdadır. Sağlamlıq turizmi bu gün dünyada ən çox inkişaf edən, turistləri cəlb edən turizm növlərindən biridir. Bu baxımdan Kəlbəcərin gələcəkdə əsas turizm məkanlarından biri olacağı şübhəsizdir. Dağlar qoynunda yerləşən Kəlbəcərin təbiəti qış turizminin inkişafına da imkan verəcək.

Azərbaycanın sosial-iqtisadi inkişafına dair beş milli prioritetlərindən biri də işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışdır. Hazırda bu istiqamətdə işlər görülür və keçmiş məcburi köçkünlər mərhələli şəkildə əzəli torpaqlarına qayıdırlar. Böyük qayıdış Qarabağ və Şərqi Zəngəzurda həyatı canlandırmaqla, həmin rayonların ölkə iqtisadiyyatına reinteqtasiyasını təmin edir ki, bu da turizmin inkişafı baxımından mühüm faktordur.

### Şərqi Zəngəzurda turizm və rekreasiya zonasının yaradılması üzrə işlər davam edir

Dövlət Turizm Agentliyindən sorğumuza cavab olaraq bildirilib ki, Qarabağ bölgəsinin zəngin turizm potensialı bölgənin Azərbaycanın əsas turizm zonalarından birinə çevrilməsinə imkan verir. Ortamüddətli dövrdə işğaldan azad edilmiş əraziləri daxili turizm üçün əlçatan etmək və keyfiyyətli turizm destinasiyasına çevirmək, perspektiv imkanlardan effektiv istifadəyə nail olmaq əsas strateji baxış olaraq müəyyənləşdirilib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın XII məqsədi üzrə "Turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq"dır. Qeyd edilən məqsəd üzrə Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişaf etdirilməsi üçün bir sıra istiqamətlər müəyyən olunub. İşğaldan azad edilmiş ərazilərdə strateji çərçivənin müəyyənləşdirilməsi, institusional inkişaf, turizm destinasiyalarının inkişafı, turistlər üçün zəruri infrastruktur layihələrinin icrası, turizm məhsullarının inkişafı, turizm və rekreasiya zonalarının formalaşdırılması, turizm əhəmiyyətli tədbirlərin keçirilməsi, marketinq və kommunikasiya tədbirlərinin həyata keçirilməsi əsas istiqamətlərdir.

Agentlik tərəfindən Kəlbəcər Turizm İnkişaf Konsepsiyası və Xocavənd Turizm İnkişaf Konsepsiyası hazırlanıb. Hazırda Laçın Turizm İnkişaf Konsepsiyası üzərində iş gedir. Laçın rayonunun Zabuxçay su anbarının ətraf ərazisində, eləcə də Tərtər çayının üzərində yerləşən Sərsəng su anbarı ətrafında turizm infrastrukturunun inkişafı ilə bağlı Dövlət Turizm Agentliyi tərəfindən ilkin konseptual layihə sənədləri hazırlanıb. Şərqi Zəngəzur iqtisadi rayonunda Turizm və rekreasiya zonasının (TRZ) yaradılması üzrə işlər davam etdirilir.

Prezident İlham Əliyevin 15 oktyabr 2023-cü il tarixli Tərtər rayonuna səfəri çərçivəsində Suqovuşan qəsəbəsində istirahət parkının açılışı baş tutub. Şuşa rayonu Daşaltı kəndi, Xocavənd rayonu Tuğ kəndi, Ağdamda Şahbulaq qalası ətrafında turizm infrastrukturunun yaradılması üzrə layihələr isə davam etdirilir.

DTA-dan o da bildirilib ki, ölkəmizin təmsil olunduğu bütün beynəlxalq tədbirlərdə, onlayn platformalarda Qarabağın turizm potensialı ilə bağlı geniş şəkildə marketinq və kommunikasiya tədbirləri keçirilir, beynəlxalq ictimaiyyətə tanıdılır.

### Yaxın gələcəkdə Qarabağa turist axını gözlənilir

Turizmin Azərbaycanda prioritet sahələrdən birinə çevrildiyini deyən Milli Məclisin deputatı Göydəniz Qəhrəmanov bildirib ki, bu, ölkəyə valyuta axınını təmin edən sahələrdən biridir. Eyni zamanda yeni iş yerlərinin açılmasına imkan verir. "Ölkə başçısının xüsusi diqqəti nəticəsində Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır və bu istiqamətdə bir çox işlər görülür. Dövlətimiz tərəfindən əlverişli infrastrukturun qurulması daim nəzarətdədir. Azərbaycanda bir çox tanınmış 5 ulduzlu hotellər fəaliyyət göstərir. Bu da onu göstərir ki Azərbaycanda dayanıqlı turizm və böyük perspektivlər var", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə də turizmlə bağlı bir çox işlər görülür. Qısa zamanda üç beynəlxalq hava limanının inşası başa çatdırılıb və istifadəyə verilib. Bu yaxınlarda Bakı-Ağdam-Bakı istiqamətində dəmir yolu fəaliyyətə başlayıb. Burada dövlət başçısının birbaşa tapşırığı ilə infrastruktur tam olaraq bərpa olunur.

G.Qəhrəmanov deyib ki, Qarabağ bölgəsinin böyük turizm potensialı var: "Burada həm qış, həm də yay turizm imkanları mövcuddur. Eyni zamanda sağlamlıq turizmi üçün də şərait var. Bu bölgədə infrastrukturun qurulması ilə yanaşı, turizm imkanları nəzərə alınaraq paralel olaraq işlər həyata keçirilir. Bu, o deməkdir ki, yaxın gələcəkdə bu bölgəyə turist axını gözlənilir".

### Qarabağ və Şərqi Zəngəzurda turizmin müxtəlif növləri inkişaf edə bilər

Turizm üzrə ekspert Ceyhun Aşurov qəzetimizə açıqlamasında bildirib ki, işğaldan azad olunmuş ərazilərdə turizmin inkişafı məsələsi hər zaman aktualdır. Artıq bu istiqamətdə infrastruktur işləri görülür və turizmin müxtəlif növlərinin inkişafı gözlənilir: "Bunun üçün bir sıra səbəblər var. Birincisi, həmin ərazilərdə təhlükəsizlik baxımından minatəmizləmə işləri görülür, tikinti işləri aparılır, eyni zamanda həmin torpaqlarda məskunlaşma həyata keçirilir. Buna paralel olaraq bu ərazilərə turistlərin gəlişi artacaq".

C.Aşurov Qarabağ və Şərqi Zəngəzurda üç beynəlxalq hava limanının inşa olunduğunu xatırladaraq deyib ki, gələcəkdə bu hava limanlarından turistlərin səmərəli istifadə etməsi labüddür.

Ekspert işğaldan azad olunmuş ərazilərdə yaradıla biləcək turizm növlərindən də danışıb: "Qarabağ və Şərqi Zəngəzur zəngin təbiətə malikdir. Təbiətinə görə də bu ərazilərdə ekoturizm inkişaf edə bilər. Bundan başqa, tarixi, qış turizmi, sağlamlıq və kənd turizmi, demək olar ki, turizmin bütün növlərinin inkişafı mümkündür. Hazırda həmin ərazilərdə tədbirlərin keçirilməsi gələcəkdə burada bu növ turizmin də inkişafına təkan verəcək".

Deyilənlər də göstərir ki, işğaldan azad olunmuş hər bir şəhər və kənddə turizmin hər bir növünün yaradılması üçün potensial var. Qarabağ və Şərqi Zəngəzur yenidən qurulub, bərpa edildikcə ərazilərdə turizm imkanları da nəzərə alınaraq bu istiqamətdə də dövlət tərəfindən davamlı işlər görülür. Əminliklə demək olar ki, gün gələcək bu yerlər ən gözəl rekreasiya məkanlarından biri olaraq sorağı dünyaya yayılacaq. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur xarici turistlərin səfər etdiyi bölgəyə çevriləcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondu tərəfindən Saatlının ucqar kəndində yeni məktəb binası inşa olunub

**Saatlı rayonunda yeni inşa olunan İkram Ağayev adına Nabatkənd tam orta məktəbin binasının açılışı olub.**

Heydər Əliyev Fondu tərəfindən inşa olunan yeni binanın açılış mərasimində Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov, Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Astanov, Mil-Muğan Regional Təhsil İdarəsinin müdir müavini Rabil Şahbazov, məktəb kollektivi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində çıxış edənlər dövlətimiz tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan söhbət açıblar. Qeyd edilib ki, son illər bir çox ucqar kənddə yeni məktəb binaları inşa edilib, həmçinin bir sıra binalar əsaslı təmir olunub. Bildirilib ki, Nabatkənd tam orta məktəbin binası 1937-ci ildə inşa edilib.



Ötən müddət ərzində bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa olunub.

624 şagird yerlik yeni məktəb binasının inşasına 2024-cü il may ayında başlanılıb. Dördmərtəbəli məktəb binası 4 korpusdan ibarətdir. Burada sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Yeni məktəb binasının açılışına ən çox sevinənlər müəllim və şagirdlərdir. 8-ci sinif şagirdi Xumar Təhməzova deyir ki, onun üçün ən sevincli günlərdən biridir: "Əvvəlki məktəb binasında şəraitimiz yaxşı deyildi, qış fəslində sinif otaqları soyuq olurdu. Amma o günlər artıq geridə qaldı. Yeni məktəb binasının açılışı məni çox sevindirir. Sinif otaqları geniş və işıqlıdır, fizika, kimya, kompüter və digər otaqlarımız var. Həmçinin məktəbimizdə idman zalı və meydança da var. Çalışacağıq ki, dərslərimizi daha yaxşı oxuyaq".

Məktəbin müəllimi Vüqar Hüseynov isə bildirib ki, yeni binanın inşası kollektiv üçün ən böyük hədiyyədir. "Son illər məktəb binası yararsız hala düşmüşdü. Bir neçə dəfə cari təmir olunsa da, bina istismar müddətini başa vurmuşdu. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kəndimizdə müasir məktəb binası tikildi. Bu, biz müəllimləri və şagirdləri çox sevindirir. Məktəb kollektivi və kəndimiz adından Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk".

Daha sonra məktəb binasında yaradılan şəraitlə tanışlıq olub.

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**



RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

İlham Əliyevdən dünyaya ədalət dərsi

"Gəlin, ikili standartların aradan qalxdığı bir dünya quraq"

Prezident İlham Əliyevin çıxışı

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb

İlham Əliyev İrakli Kobaxidzeni təbrik edib

azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Tərtərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir olunan uşaq bağçası istifadəyə verilib

**Sentyabrın 26-da Tərtər rayonunun Hüsənli kəndində Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir edilən körpələr evi-uşaq bağçası istifadəyə verilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Hüsənli kənd uşaq bağçasının binası 1970-ci illərdə tikilib. İki korpus və yardımçı otaqlardan ibarət olan birmərtəbəli bina köhnəldiyindən istifadəyə yararsız idi.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə bağçada təmir işləri aparılıb, mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı sahə abadlaşdırılıb. Korpusun ətrafına asfalt örtüyü çəkilib. Bağçanın ərazisində uşaq meydançası təşkil edilib.

Bağçanın açılış mərasimində çıxış edən Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Heydər Əliyev Fondunun nümayəndəsi Cəmil Əliyev, YAP rayon təşkilatının sədri Eldar Əsədov və digərləri uşaqları, onların valideynlərini, bağça kollektivini təbrik edib, balacalara xoşbəxt gələcək və ölkəmiz üçün layiqli övlad olmalarını arzulayıblar.




Çıxışlarda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məktəbəqədər təhsilə göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə görülən işlərdən, Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində həyata keçirilən layihələrdən, məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra olunan tədbirlərdən bəhs edilib.

Kənd sakinləri və valideynlər göstərilən qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbir iştirakçıları sonra uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Fikirlərini AZƏRTAC-la bölüşən Hüsənli kənd körpələr evi-uşaq bağçasının müdir əvəzi Nigar Rzayeva bağça binasının təmirinə görə Azərbaycan dövlətinə, Heydər Əliyev Fonduna təşəkkür edib. "Çalışacağıq ki, uşaqları vətənpərvər ruhda tərbiyə edək, onları cəmiyyətə faydalı vətəndaşlar kimi böyüdək", - deyə o bildirib.

Valideyn Nigar Əliyeva bağçada yaradılmış şəraitdən razılığını bildirərək deyib: "Mən uşaq bağçasının əvvəlki vəziyyətinə görə təəssüf hissi keçirirdim. Həmişə deyirdim ki, kaş, bizim bağçamız da təmir olunsun. Bu gün artıq uşaq bağçası təmirdən sonra istifadəyə verildi. Binada uşaqlar üçün lazımi şərait yaradılıb. Buna görə valideyn kimi çox sevinirəm və buna görə Heydər Əliyev Fonduna təşəkkürümü bildirirəm".

# Ölkə ərazisində yağış yağacaq, leysan olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 14-16, gündüz 16-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 millimetr civə sütunu, nisbi rütubət isə 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 12-16, gündüz 18-23, dağlarda gecə 3-6, gündüz 6-9 dərəcə isti olacağı bildirilir.



# III MDB Oyunları

III MDB OYUNLARI AZƏRBAYCAN 2025

## Fərid Qayıbov: "Bu oyunlar idmanın, iqtisadiyyatın və sosial sahənin inkişafı üçün stimul olacaq"

**Sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanda keçiriləcək III MDB Oyunlarına hazırlıq işləri yekunlaşıb. 12 ölkəni təmsil edən idmançılar 12 məkanda 23 idman növü üzrə medallar uğrunda mübarizə aparacaqlar. Oyunların yüksək səviyyədə keçirilməsi üçün komandalar, media nümayəndələri və tamaşaçıların rahatlığı üçün bütün tədbirlər görülüb.**







Hər bir yarış məkanında məlumat mərkəzləri, media toplanış məntəqələri, mətbuat otaqları, tibb məntəqələri mövcuddur. Hazırlıq zamanı hər bir idman növünün xüsusiyyətləri nəzərə alınıb, beynəlxalq standartlara uyğun idman və digər avadanlıqlar quraşdırılıb.

Azərbaycan Respublikasının gənclər və idman naziri, III MDB Oyunları Təşkilat Komitəsinin sədr müavini Fərid Qayıbov idmançıları və onların komanda üzvlərini salamlayıb. Bildirib ki, respublikamız artıq özünü dünya səviyyəli genişmiqyaslı tədbirlərin etibarlı təşkilatçısı kimi təsdiq edib: "Azərbaycan dəfələrlə dünyanın hər yerindən ən yaxşı idmançıları və minlərlə tamaşaçı toplayan əhəmiyyətli idman hadisələri üçün arenaya çevrilib. Ölkəmiz 2015-ci il I Avropa Oyunlarına, 2017-ci il IV İslam Həmrəyliyi Oyunlarına, 2019-cu il Avropa Gənclər Olimpiya Festivalına, 2019-cu il UEFA Avropa Liqasının finalına, 2020-ci il futbol üzrə Avropa çempionatının 4 matçına, 2016-cı ildən Bakıda hər il keçirilən "Formula-1" Azərbaycan Qran-prisinə evsahibliyi edib. Bütün bu hadisələr Azərbaycanın regionun idman mərkəzi kimi imicini gücləndirməklə yanaşı, ölkəmizin yüksək səviyyədə təşkilatçılıq, inkişaf etmiş infrastruktur və qonaqpərvərliyini nümayiş etdirib".

Nazir qeyd edib ki, III MDB Oyunları ölkə tarixində ilk dəfə olaraq regionlarda keçiriləcək: "Azərbaycanın 7 şəhəri qapılarını açmağa, zəngin mədəniyyət, isti qonaqpərvərlik və müasir idman infrastrukturunu göstərməyə hazırdır. Bu oyunlar idmanın, iqtisadiyyatın və sosial sahənin inkişafı üçün stimul olacaq, gəncləri ruhlandıracaq, parlaq xatirələr yaradacaq və özündən sonra dəyərli irs - dünya səviyyəli yeni və yenilənmiş idman obyektləri saxlayacaq. Biz birlikdə təkcə Azərbaycana deyil, bütün dünyaya qürur yaradacaq idman bayramı yaradacağıq. Bütün iştirakçılara parlaq qələbələr, qonaqlara isə xoş təəssüratlar arzulayıram".

Dünən III MDB Oyunlarına hazırlıqlar çərçivəsində yarışlara həsr olunmuş ilk rəsmi mətbuat konfransı keçirilib.

Tədbirdə çıxış edən Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin mətbuat katibi Arzu Hüseynova oyunların keçiriləcəyi regionlar, idman məkanları və gözlənilən iştirakçı sayı ilə bağlı ətraflı məlumat verib. Qeyd olunub ki, "Hər qəlbdə bir qələbə" şüarı altında keçiriləcək III MDB Oyunlarına təxminən 5500 idmançının qatılması nəzərdə tutulur: "MDB məkanının ən böyük idman tədbirlərindən biri olan bu yarışlar Gəncə, Qəbələ, Şəki, Yevlax, Xankəndi, Göygöl və Mingəçevirdə təşkil olunacaq. Bu bölgələr yalnız müasir idman infrastrukturu ilə deyil, eyni zamanda zəngin mədəni irsi və qonaqpərvərliyi ilə də seçilir".

Mətbuat konfransında həmçinin Könüllü proqramına start verildiyi bildirilib. Proqram çərçivəsində paytaxt Bakı və əsasən də regionlardan 3000-ə yaxın könüllünün III MDB Oyunlarına cəlb olunması gözlənilir.

Konfrans zamanı media nümayəndələrinə yarışla bağlı ətraflı məlumatların yerləşdirildiyi rəsmi veb-sayt - www.cisgames2025.com təqdim olunub. Sayt vasitəsilə iştirakçılar və maraqlı tərəflər yarış cədvəlləri, məkanlar, könüllülər və media qeydiyyatı ilə bağlı yeniliklərlə tanış ola biləcəklər.

Sentyabrın 28-də Gəncə şəhər stadionunda keçiriləcək III MDB Oyunlarının açılış mərasimində Azərbaycanın bayraqdarları məlum olub. Onlar karateçi Asiman Qurbanlı və taekvondoçu Zemfira Həsənzadədir. Asiman Qurbanlı III MDB Oyunlarında çıxış edəcək ən titullu idmançılardan biridir. O, üçqat Avropa çempionu, 2019-cu il II Avropa Oyunlarının və III İslam Həmrəyliyi Oyunlarının qalibi, 2011-ci il dünya çempionatının gümüş medalçısıdır. Zemfira Həsənzadə isə olimpiya çəki dərəcələrində Avropa çempionatının bürünc medalçısı, gənclər arasında Avropa çempionudur.

Sentyabrın 26-da Qəbələ Olimpiya İdman Kompleksində III MDB Oyunları çərçivəsində stolüstü tennis yarışları başlayıb. İlk gün kişilər və qadınlar arasında komanda yarışları keçirilir. Qadınların yarışında yarımfinalda Belarus - Azərbaycan görüşü keçirilib və komandamız 2:1 hesabı ilə qələbə qazanaraq finala çıxıb. Həlledici qarşılaşmada rəqibimiz Rusiya tennisçiləri olacaq.

Son məlumata görə, stolüstü tennis üzrə kişilərdən ibarət komandamız da yarımfinalda Özbəkistan millisi üzərində 2:0 hesablı qələbə qazanaraq finala vəsiqə əldə edib və bu gün qızıl medallar uğrunda Rusiya idmançıları ilə mübarizə aparacaq.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

*Naftalan*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova əzizi

**VAQİF ABASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qusardan Sahir Məmmədxanov Jalə Əmirbəyovaya qardaşı

**QÜDRƏT İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4110
Sifariş 1938

Qiyməti 60 qəpik